# Journal of Baku Engineering University

BEU
BAKU ENGINEERING UNIVERSITY

ISSN 2521-6341

Volume 4
Number 2

2020

## ECONOMICS AND ADMINISTRATION

Journal is published twice a year
*Number-1. June, Number-2. December*

*An International Journal*

http://journal.beu.edu.az

**Founder**

*Havar Mammadov*

**Editor-in-chief**

*Elchin Suleymanov*

**Editor**

*Mayis Azizov*

*Farid Jabiyev*

**Editorial board**

*Altay Ismayilov (Azerbaijan, Khazar University)*
*Elsever Ibadov (Azerbaijan,Baku Engineering University)*
*Firudin Sultanov (Azerbaijan, Baku Engineering University)*
*Hazi Eynalov(Azerbaijan, Baku Engineering University)*
*Murad Isgandarov(Azerbaijan,Baku Engineering University)*
*Nasimi Kamalov (Azerbaijan,Baku Engineering University)*
*Tarbiz Aliev (ANAS, Institute of Economy)*
*Tayyar Mustafayev (Azerbaijan,Baku Engineering University)*
*Vilayat Valiyev (Azerbaijan, Institute for Scientific Research on Economic Reforms)*
*Khanlar Haydarov (Azerbaijan, Baku Engineering University)*
*Samir Guliyev (Azerbaijan,Baku Engineering University)*
*Shahriyar Muhtarov (Azerbaijan, Baku Engineering University)*
*Yadullah Hasanli (Azerbaijan, Azerbaijan State University of Economics)*

**International Advisory board**

*Alina Daniłowska (Poland, Warsaw University of Life Sciences)*
*Alp Malazgirt (Rep. of Korea, SolBridge International School of Business)*
*Anthony Adamthwaite (USA, University of California Berkeley)*
*Frederick Joutz (USA, George Washington University)*
*Gregory R. Quinet (USA, Southern Polytechnic State University)*
*James Dingley (UK, Francis Hutcheson Institute)*
*James F. Rinehart (USA, Troy University)*
*Manouchehr Mokhtari (USA, University of Maryland)*
*Mark S. Hiatt (USA, Southern Polytechnic State University)*
*Manuela Tvaronaviciene (Litva,Vilnius Gediminas Technical University)*
*Nalan Basturk (Netherland, Erasmus University Rotterdam)*
*Robert Powel (USA, University of California Berkeley)*
*Ronny L. Richardson (USA, Southern Polytechnic State University)*
*Tara Sinclair (USA, George Washington University)*
*William Patrick Leonard (Rep.of Korea, SolBridge Inter. School of Business)*

**Executive Editors**

*Shafag Alizade*

**Assistant Editors**

*Rufat Mammadov*

**Design**

*Ilham Aliyev*

**Contact address**

*Journal of Baku Engineering University*
*AZ0101, Khirdalan city, Hasan Aliyev str. 120, Absheron, Baku, Azerbaijan*
***Tel:** 00 994 12 - 349 99 66/78* ***Fax:** 00 994 12 349-99-90/91*

**e-mail:** *jr-eco.adm@beu.edu.az*
**web:** *http://journal.beu.edu.az*
**facebook:** *Journal Of Baku Engineering University*

*Copyright* © Baku Engineering University

ISSN 2521-6341

ISSN 2521-6341

# Journal of
# Baku Engineering University

## ECONOMICS AND ADMINISTRATION

Baku - AZERBAIJAN

# JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY

## ECONOMICS AND ADMINISTRATION

**2020. Volume 4, Number 2**

# CONTENTS

**"COVID-19" VİRUSUNUN YAYILMASININ AZƏRBAYCANDA ƏHALİNİN HƏYAT MƏMNUNİYYƏTİNƏ TƏSİRİ**

*Xətai Alıyev* ______ 99

**QLOBAL İQTİSADİ PROSESLƏRİN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ**

*Arzu Süleymanov* ______ 104

**COVID-19 PANDEMİYASININ AZƏRBAYCANDA BANK KREDİTLƏRİNƏ TƏSİRİ**

*Səbinə Mürşüdova, Nuranə Məmmədova, Mirrazim Həsənov* ______ 113

**QEYRİ-NEFT İXRACINA TƏSİR AMİLLƏRİNİN SEÇİLMƏSİNDƏ QƏRARLARIN QƏBULU**

*Aynurə İsmayılova* ______ 121

**AZƏRBAYCANDA AQRAR KOOPERATIVLƏŞMƏNİN İNKİŞAFINA TƏSİR EDƏN ƏSAS AMİLLƏRİN TƏHLİLİ**

*Qarayev Nurlan* ______ 133

**İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSININ BEYNƏLXALQ NƏZƏRİYYƏLƏRİ VƏ MODELLƏRİ**

*Əlicanova Gülüzar* ______ 140

**BEYNƏLXALQ UÇOT VƏ HESABAT ƏSASINDA MÜHASİBAT İŞİNİN TƏŞKİLİ**

*Rəhimli Aysel Hüseyn qızı* ______ 147

**INVERTED YIELD CURVE AND ITS IMPLICATIONS AT PREDICTING ECONOMIC RECESSIONS**

*Nasirli Turgay* ______ 158

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2020. Volume 4, Number 2* *Pages 99-16*

***UOT: 330.31/.33***

# "COVID-19" VİRUSUNUN YAYILMASININ AZƏRBAYCANDA ƏHALİNİN HƏYAT MƏMNUNİYYƏTİNƏ TƏSİRİ

**XƏTAİ ALIYEV**
Azərbaycan Dövlət İqtisad Universiteti
*UNEC Empirik Tədqiqatlar Mərkəzi*
*Khatai.aliyev@unec.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Yerinə yetirlən tədqiqat işində Azərbaycanda əhalinin həyat məmnuniyyətinə COVID-19 virusunun necə təsir etdiyi sorğu məlumatları əsasında təsviri və empirik qiymətləndirmə metodlarından istifadə edilməklə qiymətləndirilmişdir. Təhlil nəticələri ölkədə virusun müşahidə olunmağa başladığı ötən dövr ərzində əhalinin həyat məmnuniyyətində azalma tendensiyasının müşahidə olunduğunu göstərir. Ölkədə qeydə alınan yoluxma və ölüm hallarının miqdarındakı artış fərdi həyat məmnuniyyəti səviyyəsinə mənfi təsir göstərir. Eyni zamanda, həyat məmnuniyyəti və yoluxma / ölüm sayı arasındakı əlaqə respondentin yaşına görə dəyişir. Yaş artdıqca yoluxma sayına qarşı həssaslıq artır, ölüm sayındakı artışa qarşı həssaslıq isə azalır. Həyat məmnuniyyətinin əha-linin rifahını əks etdirən ən əhəmiyyətli göstəricilərdən biri olduğu nəzərə alınarsa virusun təsirlərinin azaldıl-ması üçün əlavə tədbirlərin keçirilməsi və davamlı dioqnastik təhlilin aparılması zəruridir.

**Açar sözlər:** covid-19, həyat məmnuniyyəti, Azərbaycan, pandemiya, yaş qrupları.

**THE IMPACT OF COVID-19 SPREAD OVER PEOPLE'S LIFE SATISFACTION IN AZERBAIJAN**

**ABSTRACT**

This paper estimates how the COVID-19 pandemic has affected people's life satisfaction in Azerbaijan by using descriptive and empirical assessment methods based on survey data. Analytical results indicate a downward trend in people's well-being since the outbreak of the coronavirus in the country. An increase in the number of recorded daily new cases and deaths in the country negatively affects individuals' self-reported life satisfaction levels. At the same time, the relationship between life satisfaction and the number of daily new cases/deaths depends on the respondent's age. Towards the higher age, the vulnerability to the number of recorded daily new cases increases while the vulnerability to the number of deaths decreases. Because life satisfaction is one of the most important indicators to represent the societal welfare, additional measures and continuous diagnostics are required to diminish well-being effects of COVID-19.

**Keywords:** covid-19, life satisfaction, azerbaijan, pandemics, age groups.

**ВЛИЯНИЕ COVID-19 НА УРОВЕНЬ УДОВЛЕТВОРЕНИЯ ЖИЗНЬЮ НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА**

**РЕЗЮМЕ**

В исследовании используются описательные и эмпирические методы оценки, основанные на данных опросов о том, как вирус COVID-19 влияет на качество жизни населения в Азербайджане. Результаты анализа показывают, что после обнаружения вируса, в стране наблюдается тенденция к снижению удовлетворенности жизнью. Рост числа зарегистрированных в стране инфекций и смертей отрицательно сказывается на уровне удовлетворенности жизнью. В то же время соотношение между удовлетворенностью жизнью и количеством инфекций / смертей зависит от возраста респондента. Чувствительность к количеству инфекций увеличивается с возрастом, в то же время чувствительность к увеличению количества летальных исходов от короновируса снижается. Если учитывать, что, одним из важнейших показателей удовлетворенности жизнью является благополучие населения, нужно принять дополнительные меры по снижению воздействия вируса.

**Ключевые слова**: covid-19, удовлетворение жизни, азербайджан, пандемика, возрастные группы.

## GİRİŞ

Dünya tarixində müxtəlif zamanlarda bəşəriyyət yüksək öldürücü gücü olan çoxsaylı epi-demiya və xəstəliklərlə qarşı-qarşıya qalmış, milyonlarla insan bu xəstəliklər nəticəsində həyatını

itirmişdir. 2020-ci ilin əvvəlindən Çinin Uhan şəhərində baş qaldıran "COVID-19" virusu artıq demək olar ki, bütün ölkələri əhatə edir. Virusa yoluxanların sayı həndəsi silsilə ilə sürətlə artmaqda davam edir. Eyni zamanda, virusdan ölənlərin sayı da gün keçdikçə sürətlə çoxalır. Lakin, burada önəmli olan əhəmiyyətli nüans virusdan sağalanların sayının olduqca çox olmasıdır. Bu gün informasiya axınında olduqca mühüm hissəsi virusun sosial-iqtisadi və siyasi fəsadlarının həllinə aiddir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən pandemiya elan edilən virus bu gün artıq sadəcə tibb elminin mübarizə apardığı deyil, həm də sosial-iqtisadi problemləri qabardan və dünya iqtisadiyyatında böyük durğunluğa zəmin hazırlayan faktor halına gəlib. Bu isə birbaşa insanların həyat məmnuniyyətinə və rifah səviyyəsinə birbaşa təsir edir.

Pandemiyanın əhalinin rihahına və həyat məmnuniyyətinə təsiri artıq mövcud ədəbiyyatda və dünyanın müxtəlif ölkələrində aparılan tədqiqatlarda öz əksini tapmışdır[1, 2, 4, 6, 7, 8].Virusun insanların həyat məmnuniyyətinə təsiri 3 əsas kanal vasitəsiylə baş verir: (1) bir-başa sağlamlıq kanalı (insanlar Azərbaycanda və dünyada virusa yoluxanların və ölənlərin sayından narahatlıq duyur), (2) sosial izolyasiya kanalı (karantin şərtlərinin sərtləşdirilmə-sindən və məcburi sosial izolyasiyadan qaynaqlanan narahatlıq) və (3) sosial-iqtisadi təsir kanalı (insanlar ölkənin, o cümlədən özlərinin və ətrafındakı insanların sosial-iqtisadi vəziy-yətinin pisləşəcəyindən narahat olur). Bu isə hər bir halda insanların həyat məmnuniyyətinin azalması və rifah itkisi ilə nəticələnir.

Azərbaycanda COVID-19 virusu ilə bağlı narahatçılıqlar fevral ayının ikinci yarısında başladı və indiyə qədər (04.04.2020) 443 yoluxma halı qeydə alınıb[9]. Onlardan 32 nəfər sağalıb, 5 nəfər isə vəfat edib. Dünya üzrə isə statistika belədir: 1.13 milyon yoluxma, 234 min sağalma, 60.1 min ölüm [9]. Ölkədə martın 3-dən mərhələli şəkildə karantin rejminin tətbiqinə başlanılıb və məcburi sosial izolyasiya tədbirləri həyata keçirilir. Bu tədqiqat işində məqsəd sosial sorğu məlumatları əsasında [3]Azərbaycanda qeydə alınan virusa yoluxma və ölüm hallarının ölkədə insanların həyat məmnuniyyətinə necə təsir etdiyini qiymətləndir-məkdir.

**TƏDQIQAT METODU**

Tədqiqatda qrafiki təsvir və empirik qiymətləndirmə metodları istifadə olunmuşdur. Cari ilin 22 fevral – 31 mart tarixlərini əhatə edən tədqiqatın məlumat bazasını ASERC [3] tərəfindən keçirilən "Sosial Sorğu-4" təşkil edir. Qeyd olunan dövrdə sorğuda 2123 nəfər ($n_{kişi} = 1092$, $n_{qadın} = 1031$, $Orta_{yaş} = 34.37$). İnsanların fərdi həyat məmnuniyyətinin ölçül-məsi Pavot və Diener [4] tərəfindən inkişaf etdirilən metodologiya əsasında aparılıb və 5-35 aralığında qiymət alır. Hər bir fərd həyatdan müvafiq olaraq məmnuniyyət indeksi 5-9 aralı-ğında olduqda *olduqca qeyri məmnun*, 10-14 aralığında olduqda *qeyri-məmnun*, 15-19 aralığın-da olduqda qismən *qeyri-məmnun*, 20-ə bərabər olduqda *neytral*, 21-25 aralığında olduqda *qis-mən məmnun*, 26-30 aralığında olduqda *məmnun*, 31-35 aralığında olduqda isə *olduqca məmnun* hesab edilir.

Digər tərəfdən, Azərbaycanda hər gün üçün virusa yoluxanların, sağalanların və ölənlərin statistikası www.koronavirusinfo.az internet portalından əldə edilərək sorğu məlumatlarına inteqrasiyası həyata keçirilib.

Tədqiqatın exonometrik model spesifikasiyası aşağıdakı kimidir:

$$\ln(HM)_i = \alpha_0 + \alpha_1 * X_i + \alpha_2 * X_i * yaş_i + \sum_{k=1}^{9} \beta_k * Z_{k,i} + u_i$$

$HM_i$ - fərdi həyat məmnuniyyəti indeksini, $X_i$ - əsas sərbəst dəyişəni (müxtəlif modellərdə $YoluxanSayı_i$, və$ÖlənlərinSayı_i$), $yaş_i$ – respondentin yaşını göstərir. $\sum_{k=1}^{9} \beta_k * Z_{k,i}$ isə control dəyişənləri ($yaş_i$, $yaş_i^2$, $Qadın_i$ (cinsi mənsubiyyəti göstərən binominal dəyişən – qadınlar üçün 1, kişilər üçün 0 qiyməti alır), təhsil səviyyəsini və ailə vəziyyətini təmsil edən binominal dəyişənlər) göstərir. Təhsil səviyyəsini göstərən binominal dəyişənlər bunlardır: $Məktəb_i$ (orta məktəb məzunudursa 1, digər hallarda 0), $Kollec_i$ (peşə-ixtisas / kollec məzunudursa 1, digər hallarda 0, $Magistr_i$ (magistratura təhsili olanlar üçün 1, digər hallarda 0) və $PhD_i$ (doktorantura və daha yuxarı təhsil səviyyəsinə malikdirsə 1, digər hallarda 0). Bakalvr məzunları müqayisə qrupu kimi götürülüb. Ailə vəziyyətini təmsil edən binominal dəyişənlər bunlardır: $Evli_i$ (evil olanlar üçün 1, digər hallarda 0), $Boşanmış_Dul_i$(boşanmış və ya dul olanlar üçün 1, digər hallarda 0). Subay olanlar (evlənməyənlər) müqayisə qrupu kimi götürülüb.

$X_i * yaş_i$ qarşılıqlı təsir effektinin daxil edilməsi modellərin funskional spesifikasiya probleminin Ramse-Reset testi ilə yoxlanılması zamanı yaşın moderator rolunun aşkar olunması nəticəsində modelə əlavə edilib.

## TƏSVIRI VƏ EKONOMETRIK TƏHLIL

Aparılan təsviri təhlil nəticələri şəkil 1 və 2-də təqdim olunmuşdur. Şəkil 1 təhlil olunan müddət ərzində ortalama həyat məmnuniyyəti indeksinin cəmi və cinsi mənsubiyyətə görə necə dəyişdiyini göstərir. Müqayisə üçün yanvar ayı da təsviri təhlilə əlavə edilmişdir. Göründüyü kimi, fevral ayında əvvəlki ayla müqayisədə həyat məmnuniyyəti səviyyəsində kəskin azalma var. Sonrakı müddətdə də qismən də olsa ümumi trend azalma istiqamətindədir. Martın 2-ci on günlüyündə qismi yüksəlmə respondentlərin ilk karantin qərarlarına (təhsilin dayandırılması) adaptasiyası kimi qəbul oluna bilər. Lakin, 3-cü ongünlükdə həyat məmnuniyyətində kifayət qədər ciddi azalma müşahidə olunur. Dəyişmə kişilərdə daha böyükdür.

Yaşa görə paylanmanın təqdim edildiyi şəkil 2-də azalan dinamikanın müşahidə olunması xaricində diqqəti cəlb edən digər əhəmiyyətli nüans 26-35 yaş aralığında olan respondentlərin digər yaş qrupları ilə müqayisədə daha çox həssaslıq nümayiş etdirməsi və həyat məmnuniyyətində daha böyük azalmanın müşahidə olunmasıdır. Karantin tədbirlərinin sərtləşdirildiyi martın 3-cü ongünlüyündə həyat məmnuniyyətində kəskin azalma virusun social-psixoloji və iqtisadi təsirinin kifayət qədər böyük olduğunu göstərir. 65-dən yuxarı yaşa sahib insanlarda da kəskin azalma martın 3-cü ongünlüyündə özünü göstərir.

**Şəkil 1:** Həyat məmnuniyyətinin dəyişmə dinamikası (cinsi mənsubiyyətə görə)




***Qaynaq:** Sorğu məlumatları əsasında müəllif tərəfindən hazırlanılıb.*

**Şəkil 2:** Həyat məmnuniyyətinin yaş qrupları üzrə dəyişmə dinamikası




***Qaynaq:*** *Sorğu məlumatları əsasında müəllif tərəfindən hazırlanılıb.*

Göründüyü kimi, yanvar ayı ilə müqayisədə martın 3-cü ongünlüyündə ortalama həyat məmnuniyyəti ümumilikdə 26.5%, kişilərdə 29%, qadınlarda isə 24% azalmışdır. Yaş qrupları üzrə isə azalma belə olmuşdur: 25 yaş və daha aşağı qrupda 23%, 26-35 yaş aralığı qrupunda 32.5%, 36-45 yaş aralığı qrupunda 24%, 46-64 yaş aralığı qrupunda 21.7%, 65 yaşdan yuxarı qrupda isə 33.8%.

Əhalinin həyat məmnuniyyətinə Azərbaycanda qeydə alınan virusa cəmi yoluxma və ölüm sayının təsirinin ekonometrik qiymətləndirmə nəticələri cədvəl 1-də təqdim edilmişdir.

**Cədvəl 1:** Empirik qiymətləndirmə nəticələri

| **Sərbəst dəyişənlər** | **Model (1)** | **Model (2)** |
|---|---|---|
| $YoluxanSayı_i$ | -0.00003$^{***}$ | - |
| $YoluxanSayı_i * Yaş_i$ | -0.0000007$^{**}$ | - |
| $ÖlənlərinSayı_i$ | - | -0.068$^{***}$ |
| $ÖlənlərinSayı * Yaş_i$ | - | 0.0017$^{***}$ |
| $Qadın_i$ | 0.061$^{***}$ | 0.061$^{***}$ |
| $Yaş_i$ | -0.032$^{***}$ | -0.034$^{***}$ |
| $Yaş_i^2$ | 0.0004$^{***}$ | 0.0004$^{***}$ |
| $Məktəb_i$ | -0.137$^{***}$ | -0.139$^{***}$ |
| $Kollec_i$ | -0.107$^{***}$ | -0.108$^{***}$ |
| $Magistr_i$ | 0.028 | 0.028 |
| $PhD_i$ | 0.154$^{***}$ | 0.158$^{***}$ |
| $Evli_i$ | 0.118$^{***}$ | 0.122$^{***}$ |
| $Boşanmış_Dul_i$ | -0.101$^{**}$ | -0.101$^{**}$ |
| $Sabit\ hədd$ | 3.304$^{***}$ | 3.354$^{***}$ |
| $R^2$ | 0.057 | 0.057 |
| Daxil olan Müş. Sayı | 2117 | 2117 |

***Qeyd:*** *Asılı dəyişən -* $Ln(HM)_i$. *$^{***}$və$^{**}$ müvafiq olaraq 1%, və 5% əhəmiyyətlilik dərəcəsində statistik olaraq əhəmiyyətliliyi göstərir.*

Əldə olunan nəticələr təsirin mənfi və statsitik olaraq əhəmiyyətli ($p < 0.01$) olduğunu göstərir. Eyni zamanda, həyat məmnuniyyəti və yoluxma / ölüm sayı arasındakı əlaqə respondentin yaşına görə dəyişir. $YoluxanSayı_i * Yaş_i$ və $ÖlənlərinSayı * Yaş_i$ qarşılıqlı təsir effekti dəyişənlərinin əmsalları 1% əhəmiyyətlilik dərəcəsində statistiki olaraq əhəmiyyətlidir. Yaş artdıqca yoluxma sayına qarşı həssaslıq artır, ölüm sayındakı artışa qarşı həssaslıq isə azalır. Bu fərqlilik Azərbaycanda ölüm hallarının hələ geniş yayılmaması ilə izah oluna bilər.

Digər faktorlar sabit qalarsa, ortalama olaraq, yoluxma sayındakı bir nəfər artış həyat məmnuniyyətini 20 yaşında biri üçün 0.0044%, 65 yaşında olan biri üçün isə 0.0076% azaldır. Fərdi həyat məmnuniyyətində ölüm sayındakı artışa qarşı həssaslıq isə daha yüksəkdir. Ölüm sayında 1 nəfərlik artış həyat məmnuniyyətini 20 yaşında biri üçün 3.4 % azaldır. Yaş artıqca həyat məmnuniyyətində azalma miqdarı sıfıra yaxınlaşır. Lakin, ölüm sayında əhəmiyyətli artış olarsa həyat məmnuniyyətində azalma əmsalının daha böyük olacağını gözləmək olar.

## NƏTICƏ

Dünyanın iqtisadi, sosial və siyasi həyatında olduqca ciddi təsirləri olan COVID-19 pandemiyasının fərdi həyat məmnuniyyətinə əhəmiyyətli mənfi təsirinin olacağı aydındır. Lakin, bu təsirin elmi qiymətləndirmə və təhlil metodlarının tətbiqi ilə dəyərləndirilməsi doğru addımların atılması baxımından mühüm əhəmiyyət daşıyır.

Bu tədqiqat işində Azərbaycanda keçirilən sosial sorğu məlumatları əsasında ölkədə qeydə alınan virusa yoluxanların və ölənlərin sayındakı artışın fərdi həyat məmnuniyyətinə təsiri təsviri və empirik qiymətləndirmə metodları əsasında təhlil edilmişdir. Təhlil nəticələri yoluxma və ölüm sayındakı artışın fərdi həyat məmnuniyyəti səviyyəsinə əhəmiyyətli mənfi təsiri olduğunu və təsirin miqyasının fərdin yaşından asılı olduğunu göstərir.

Azərbaycanda virusun yayılmasının tədqiqatda qeyd olunan təhlil müddətinin bitməsindən (31 mart 2020-ci il) sonra daha da genişləndiyi, kütləvi yoluxma hallarının qeydə alındığı, sosial izolyasiya və xüsusi karantin rejiminin sərtləşdirildiyi nəzərə alınarsa bu təsirin miqyasının daha da artacağını gözləmək mümkündür. Mənfi təsirin minimallaşdırılması və həyat məmnuniyyətinin artırılması üçün sosial dəstəyin gücləndirilməsi zəruridir.

### ƏDƏBİYYAT SİYAHISI


1. Aliyev, K. 2020. Well-Being Effects of Novel Coronavirus Pneumonia (Covid-19): Moderating Role of Age". *ASERC Journal of Socio-Economic Studies, 3*(1): 1-11.
2. Ammar, A., Chtourou, H., Boukhris, O., Trabelsi, K., Masmoudi, L., Brach, M., ... & ECLB-COVID19 Consortium. (2020). COVID-19 home confinement negatively impacts social participation and life satisfaction: a worldwide multicenter study. *International journal of environmental research and public health*, *17*(17), 6237.
3. ASERC (2020). Sosial Sorğu -4. *Nəşr olunmamış məlumat bazası.*
4. Hamermesh, D. S. (2020). Life satisfaction, loneliness and togetherness, with an application to Covid-19 lock-downs. *Review of Economics of the Household*, *18*(4), 983-1000.
5. Pavot, W., & Diener, E. (2009). Review of the satisfaction with life scale. In *Assessing well-being* (pp. 101-117). Springer, Dordrecht.
6. Rogowska, A. M., Kuśnierz, C., & Bokszczanin, A. (2020). Examining anxiety, life satisfaction, general health, stress and coping styles during COVID-19 pandemic in Polish sample of university students. *Psychology Research and Behavior Management*, *13*, 797.
7. Satici, B., Gocet-Tekin, E., Deniz, M. E., & Satici, S. A. (2020). Adaptation of the Fear of COVID-19 Scale: Its association with psychological distress and life satisfaction in Turkey. *International Journal of Mental Health and Addiction*, 1-9.
8. Zheng, L., Miao, M., & Gan, Y. (2020). Perceived control buffers the effects of the COVID-19 pandemic on general health and life satisfaction: The mediating role of psychological distance. *Applied Psychology: Health and Well-Being*, *12*(4), 1095-1114.
9. https://koronavirusinfo.az/az/page/statistika/azerbaycanda-cari-veziyyet, 04.04.2020.
10. https://www.worldometers.info/coronavirus/#countries, 04.04.2020.

*2020. Volume 4, Number 2* *Pages 104-112*

*UOT: 330.4, 338.2*

# QLOBAL İQTİSADİ PROSESLƏRİN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Arzu SÜLEYMANOV**
Azərbaycan Texniki Universiteti
Bakı, Azərbaycan
*suleymanov.arzu@aztu.edu.az*

**XÜLASƏ**

Məqalədə, bu gün baş verən geosiyasi dəyişikliklərin sürəti və böyüklüyünün anlaşılmasını və yaxın 5-10 il ərzində qlobal inkişafın ölkə iqtisadiyyatına təsiri haqqında təhlillərin aparılması məsələlərinə baxılmış və bu əsasda qısa təsəvvür verilmişdir. İlk öncə xüsusilə qeyd edilməlidir ki, yerinə yetirilən təhlil və qiymətləndirmələr qlobal geosiyasi və iqtisadi tendensiyalar əsasında Azərbaycan iqtisadiyyatında gələcək iqtisadi inkişaf proqnozlaşdırılmır. Bu tam empirik olaraq qeyri-mümkün bir işdir. Ancaq aparılan elmi tədqiqat işləri və əldə olunan nəticələr gələcək iqtisadi inkişaf və onun ehtimal olunan ssenariləri barədə düşünmək üçün müəyyən bir əsas verir. Bu məqsədlə də, məqalədə gözlənilən xarici təsirlərin təhlil edilərək Azərbaycan iqtisadiyyatına yarada biləcəyi təsirlər ekonometrik üsullardan istifadə olunaraq təhlil edilmiş və qiymətləndirmələr aparılmışdır. Nəticədə, Azərbaycanın ÜDM-i, Azərbaycanın ÜDM-in artım tempi və Azərbaycanın xarici ticarət dövriyyəsi kimi istiqa-mətlərdə Azərbaycan iqtisadiyyatı üzrə empirik nəticələr əldə edilmiş və proqnozlar işlənmişdir. Aparılan proq-nozlar həm optimistik, həm də pessimistik ssenarilər üzrə yerinə yetirilmişdir.

**Açar sözlər:**Azərbyacan iqtisadiyyatı, xarici şoklar, ekonometrik qiymətləndirmə, geosiyasi proseslər, təsir analizi.

## ASSESSMENT OF THE IMPACT OF GLOBAL ECONOMİC PROCESSES ON AZERBAIJANI ECONOMY

**ABSTRACT**

The article discusses the understanding of the speed and magnitude of today's geopolitical changes and the impact of global development on the country's economy in the next 5-10 years and gives a brief overview.First of all, it should be noted that the analysis and assessments carried out on the basis of global geopolitical and economic trends do not predict future economic development in the Azerbaijani economy. This is completely empirically impossible. However, the research conducted, and the results obtained provide a basis for thinking about future economic development and its possible scenarios.For this purpose, the article analyzes the expected external influences on the economy of Azerbaijan using econometric methods and evaluates them. As a result, empirical results and forecasts were obtained for the Azerbaijani economy in such areas as Azerbaijan's GDP, Azerbaijan's GDP growth rate and Azerbaijan's foreign trade turnover. The forecasts were made on both optimistic and pessimistic scenarios.

**Key words:**Azerbaijan economy, external shocks, econometric estimation, geopolitical processes, impact assessment.

## ОЦЕНКА ВЛИЯНИЯ ГЛОБАЛЬНЫХ ЭКОНОМИЧЕСКИХ ПРОЦЕССОВ НА ЭКОНОМИКУ АЗЕРБАЙДЖАНА

**РЕЗЮМЕ**

В статье обсуждается понимание скорости и масштабов сегодняшних геополитических изменений и влияния глобального развития на экономику страны в ближайшие 5-10 лет, а также дается краткий обзор. Прежде всего, следует отметить, что анализ и оценки, проведенные на основе глобальных геополитических и экономических тенденций, не предсказывают будущего экономического развития азербайджанской экономики. Это совершенно эмпирически невозможно. Однако проведенные исследования и полученные результаты дают основу для размышлений о будущем экономическом развитии и его возможных сценариях. С этой целью в статье с использованием эконометрических методов анализируются ожидаемые внешние воздействия на экономику Азербайджана и дается их оценка. В результате были получены эмпирические результаты

и прогнозы для экономики Азербайджана по таким направлениям, как ВВП Азербайджана, темпы роста ВВП Азербайджана и внешнеторговый оборот Азербайджана. Прогнозы делались как по оптимистичному, так и по пессимистическому сценарию.

**Ключевые слова:** Экономика Азербайджана, внешние шоки, эконометрическая оценка, геополитические процессы, оценка воздействия.

## 1. Giriş

Məlum olduğu kimi müasir dövrdə dünya iqtisadiyyatında ciddi proseslər baş verməkdədir. Bu dəyişikliklər həm iqtisadi, həm də geosiyasi amillər əsasında formalaşır. Son dövrlərə nəzər salsaq əsas diqqət mərkəzində olan məsələlər neftin dünya bazarındakı qiymətlərinin kəskin dəyişməsi və koronavirus pandemiyasının yaratdığı çətinliklərdir. Lakin bu diqqət mərkəzində olan amillərdən əlavə bir çox iqtisadi və siyasi məqamlar da vardır ki, dünya iqtisadiyyatının gedişinə ciddi təsirlər etmək qabiliyyətindədir. Müasir dövrdə dünya ölkələri arasında ticarət əlaqələri yüksək inkişaf etdiyinə görə hər hansı bir xarici prosesin ölkə iqtisadiyyatına təsiri qaçılmazdır.

Məhz bu məqsədlə də, təqdim olunan məqalədə Azərbaycan iqtisadiyyatı müəyyən xarici şokların ola biləcəyi əsasda təhlil edilərək müxtəlif ssenarilər üzrə qiymətləndirilmişdir[3, 4]. Eyni zamanda, optimistik və pessimistik nöqteyi-nəzərdən proqnozlar verilmişdir. Əldə olunan nəticələr tamamilə elmi-tədqiqat yanaşmasıdır və bu nəticələr siyasət qərarlarının verilməsində köməkçi məlumat kimi istifadə edilə bilər.

## 2. Ən mühüm meyllər, davranışları dəyişən amillər

Müasir dövrdə dünya iqtisadiyyatında baş verən proseslər kifayət qədər dinamik və ciddi təsirlər yarada biləcək istiqamətlərdir. Məlumdur ki, qloballaşan iqtisadiyyat hər hansısa bir baş vermiş şokun bütün ölkə iqtisadiyyatlarında təsirlər yarada biləcəyini qaçılmaz edir.

Cari dövrdə ən mühüm meyllərdən biri dünya ölkələrində koronavirus pandemiyasının yaratdığı sosial və iqtisadi çətinliklərdir. Ticarət əlaqələrinin zəifləməsi, turizmin aşağı səviyyədə olması və sosial məsələlər bütün iqtisadiyyatda mənfi effektlər yaratmaqdadır.

Digər ən mühüm meyllərdən biri insanın hüquq və imkanlarının artmasıdır. Belə ki, insanın hüquq və imkanlarının artması orta sinfin artmasını və yoxsulluğun azaldılmasını sürətləndirir;təhsil səviyyəsini yüksəldir, yeni rabitə və istehsal texnologiyalarının, eləcə də tibbi xidmətlərin istifadəsini genişləndirir.

Demoqrafik modellər ön plana çıxa bilər. Yəni qeyri-sabitliyin demoqrafik qövsü azalacaq, "köhnə" ölkələrdə iqtisadi böyümə səviyyəsi aşağı düşə bilər və dünya əhalisinin 60 %-ı şəhərlərdə yaşamaqla miqrasiya səviyyəsini yüksəldəcək.

Qida, su və enerji resursları ilə bağlı məsələlər də mühüm amil hesab olunur. Böyük ölçüdə dünya əhalisi artdıqca resurslara tələbat artacaq və əsas tələbat məhsullarına tələbin ödənməsi problemləri həlli digər məhsullara da kütləvi tələbat yaradacaqdır.

Qlobal iqtisadiyyatın böhran fonu davranışları dəyişə biləcək əsas məqamdır. Bu zaman suallar yaranır. Qlobal qeyri-sabitlik və iqtisadi ziddiyyətlər iflasa gətirib çıxara bilərmi?Və ya artan çoxqütblülük dünyanın iqtisadi vəziyyətinin dayanıqlılığının artmasına səbəb ola bilərmi?

Yeni texnologiyaların təsiri günümüzün ən mühüm istiqamətidir. Müasir dövrü bir növ innovativ istiqamətlərsiz təsəvvür etmək çətindir. Qlobal əhali artımı, sürətli şəhərsalma və iqlim dəyişikliyinin yaratdığı problemlərin həllində səmərəlilik üçün texnoloji irəliləyişlər olacaqmı?

Sonuncu amil kimi isə iqtisadi cəhətdən hegemon ölkələrin rolunu vurğulamaq lazımdır. Ən pis ssenaridə beynəlxalq qarşıdurmaların riskləri artacaqdır.Bu ölkələrdəki daxili problemlər dünyada tarazlığı dəyişəcəkdir.

**3. Məlumat bazasının formalaşdırılması**

Tədqiqatın məlumat bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (DSK) və Dünya Bankının rəsmi məlumatları təşkil edir. Məlum olduğu kimi ekonometrik qiymətləndirmələr məlumat əsaslıdır. Belə ki, istifadə olunan məlumatlar 1995-2019-cu illər aralığını əhatə etməklə illik intervaldadır [8, 9, 10]. Təhlil və qiymətləndirmələrdə istifadə olunan məlumatlar aşağıdakılardır:

GROWTH_AZE – Azərbaycanın ÜDM-nin artım tempi;
GROWTH_CHN – Çinin ÜDM-nin artım tempi;
GROWTH_IR – İranın ÜDM-nin artım tempi;
GROWTH_RU – Rusiyanın ÜDM-nin artım tempi;
GROWTH_TR – Türkiyənin ÜDM-nin artım tempi;
GROWTH_USA – ABŞ-ın ÜDM-nin artım tempi;
TRADE_BL_AZE – Azərbaycanın xarici ticarət dövriyyəsi;
TRADE_BL_CHN – Çinin xarici ticarət dövriyyəsi;
TRADE_BL_GER – Almaniyanın xarici ticarət dövriyyəsi;
TRADE_BL_IR – İranın xarici ticarət dövriyyəsi;
TRADE_BL_ITA – İtaliyanın xarici ticarət dövriyyəsi;
TRADE_BL_RU – Rusiyanın xarici ticarət dövriyyəsi;
TRADE_BL_TR – Türkiyənin xarici ticarət dövriyyəsi;
TRADE_BL_USA – ABŞ-ın xarici ticarət dövriyyəsi;
GDP_AZE – Azərbaycanın ÜDM-i;
TRANSPORT_AZE – Azərbaycanın tranzit yük daşımalarının həcmi;
OIL_P – Neftin dünya bazarındakı qiyməti;
GASP – Qazın dünya bazarındakı qiyməti.

Qeyd edək ki, yuxarıda iqtisadi göstəricilər üzrə verilmiş adlar EViews statistik proqram paketində istifadə məqsədilə edilmişdir [2]. Çünki proqram təminatının tələblərinə uyğun olaraq göstəricilərin adları qısaldılmış və latın hərfləri ilə verilməlidir. Həmçinin ekonometrik modellərdə istifadə olunan iqtisadi göstəricilər eyni ölçü vahidinə gətirilmişdir. Yəni dollar ifadəsində olmaqla milyon ölçüsündə nəzərə alınmışdır.

**4. Ölkə iqtisadiyyatına təsir edən əsas xarici amillər**

Azərbaycan iqtisadiyyatına təsir edəcək amillər kimi əsasən üç istiqamət müəyyən edilmişdir. Əlbəttə ki, təsir edən amillər kifayət qədər çox və kompleksdir. Lakin təhlil və qiymətləndirmələrdə əsasən qeyd olunan üç istiqamət araşdırılmışdır.

(i) Təbii resursların dünya qiyməti və tranzit daşımaların həcmi
  - Neftin dünya bazarındakı qiyməti;
  - Qazın dünya bazarındakı qiyməti;
  - Tranzit daşımalarının həcmi.

(ii) Aparıcı dünya ölkələrində ÜDM-in artım tempi
- Rusiyanın ÜDM-nin artım tempi;
- Çinin ÜDM-nin artım tempi;
- ABŞ-ın ÜDM-nin artım tempi;
- Türkiyənin ÜDM-nin artım tempi;
- İranın ÜDM-nin artım tempi.

(iii) Aparıcı dünya ölkələrinin ticarət dövriyəsi
- Rusiyanın xarici ticarət dövriyyəsi;
- Çinin xarici ticarət dövriyyəsi;
- ABŞ-ın xarici ticarət dövriyyəsi;
- Türkiyənin xarici ticarət dövriyyəsi;
- İranın xarici ticarət dövriyyəsi;
- Almaniyanın xarici ticarət dövriyyəsi;
- İtaliyanın xarici ticarət dövriyyəsi.

## 5. Nəticələr

Məqalədə yerinə yetirilən tədqiqat işində empirik qiymətləndirmələr əsasən üç istiqamətdə aparılmışdır. Hər bir istiqamət üzrə konkret ekonometrik modellər qurularaq bu əsasda gözlənilən proqnozlar verilmişdir [1, 3]. Empirik qiymətləndirmələr EViews 9 statistik proqram paketində realizasiya edilmişdir [2].

### 5.1. Təbii resursların dünya qiyməti və tranzit daşımaların həcmi

Birinciyanaşmada Azərbaycanın ÜDM-i seçilmiş təsir edən aillər əsasında təhlil edilərək qiymətləndirilmişdir. Eyni zamanda, aparılan proqnozlar həm optimistik, həm də pessimistik ssenarilər üzrə yerinə yetirilmişdir.

**Şəkil 1.** Azərbaycanda ÜDM-in əsas xarici amillərdən asılı olaraq növbəti 5-10 il üçün gözlənilə bilən proqnozumin ABŞ dolları ilə




| | 2021 | 2022 | 2023 | 2024 | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ÜDM (Azərbaycan) (mln_dollar) Optimist ssenari üzrə | 45876.3 | 47239.5 | 48630.0 | 50048.3 | 51495.0 | 52970.6 | 54475.8 | 56011.0 | 57576.9 | 59174.2 |
| ÜDM (Azərbaycan) (mln_dollar) Pessimist ssenari üzrə | 44539.8 | 43229.5 | 41944.8 | 40685.4 | 39450.7 | 38240.2 | 37053.4 | 35889.9 | 34749.2 | 33630.8 |

***Mənbə:*** *Model nəticələri əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

**Şəkil 2.** Pessimist ssenari üzrə təbii resursların qiymətinin və tranzit daşımalarının həcminin proqnozu




| | 2021 | 2022 | 2023 | 2024 | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Neftin 1 barrelinin qiyməti | 54.2 | 53.2 | 52.1 | 51.1 | 50.1 | 49.1 | 48.2 | 47.2 | 46.3 | 45.4 |
| Tranzit daşımaları mln ton | 245.9 | 241.1 | 236.3 | 231.7 | 227.2 | 222.7 | 218.4 | 214.1 | 209.9 | 205.8 |
| Qazın qiyməti (1kub) | 2.7 | 2.7 | 2.6 | 2.6 | 2.5 | 2.5 | 2.4 | 2.4 | 2.3 | 2.3 |

***Mənbə:*** *Model nəticələri əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

**Şəkil 3.** Optimisit ssenari üzrə təbii resursların qiymətinin və tranzit daşımalarının həcminin proqnozu




| | 2021 | 2022 | 2023 | 2024 | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Neftin 1 barrelinin qiyməti | 55.3 | 56.4 | 57.6 | 58.7 | 59.9 | 61.1 | 62.3 | 63.5 | 64.8 | 66.1 |
| Tranzit daşımaları mln ton | 250.8 | 255.8 | 260.9 | 266.2 | 271.5 | 276.9 | 282.5 | 288.1 | 293.9 | 299.7 |
| Qazın qiyməti (1kub) | 2.8 | 2.8 | 2.9 | 2.9 | 3.0 | 3.1 | 3.1 | 3.2 | 3.2 | 3.3 |

***Mənbə:*** *Model nəticələri əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

**Cədvəl 1.** Azərbaycanda ÜDM-in əsas təbii resursların qiymətindən və tranzit daşımaların həcmindən asılıq əmsalları

| Azərbaycanda ÜDM-in əsas təbii resursların qiymətindən və tranzit daşımaların həcmindən asılıq əmsalları | | | |
|---|---|---|---|
| Sərbəst əmsal | Neftin 1 barrelinin qiyməti | Qazın qiyməti (1kub) | Tranzit daşımaları mln ton |
| | oil_p | gasp | transport_aze |
| -22285,83 | 574,0108 | -2205,834 | 169,5102 |

***Mənbə:*** *Model nəticələri əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

## 5.2. Əsas aparıcı ölkələrdə ÜDM-in artım tempi

İkinci yanaşmada Azərbaycanın ÜDM-ininartım tempi seçilmiş təsir edən aillər əsasında təhlil edilərək qiymətləndirilmişdir. Eyni zamanda, aparılan proqnozlar həm optimistik, həm də pessimistik ssenarilər üzrə yerinə yetirilmişdir.

**Şəkil 4.** Azərbaycanda ÜDM-in artım tempinin digər ölkələrin ÜDM-in artım tempindən asılı olaraq gözlənilə bilən proqnozu %-lə



| | 2021 | 2022 | 2023 | 2024 | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ÜDM artım tempi (Azərbaycan) Optimist ssenari üzrə | 3.3 | 3.6 | 4.0 | 4.4 | 4.8 | 5.2 | 5.6 | 6.0 | 6.5 | 6.9 |
| ÜDM artım tempi (Azərbaycan) Pessimist ssenari üzrə | 2.9 | 2.6 | 2.3 | 1.9 | 1.6 | 1.3 | 1.0 | 0.8 | 0.5 | 0.2 |

***Mənbə:*** *Model nəticələri əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

**Şəkil 5.** Pessimist ssenari üzrə digər ölkələrdə ÜDM-in artım tempinin proqnozu %-lə




| | 2021 | 2022 | 2023 | 2024 | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ÜDM artım tempi (Türkiyə) | 3.3 | 3.2 | 3.1 | 3.1 | 3.0 | 2.9 | 2.8 | 2.7 | 2.6 | 2.6 |
| ÜDM artım tempi (Rusiya) | 1.0 | 1.0 | 1.0 | 1.0 | 0.9 | 0.9 | 0.9 | 0.9 | 0.8 | 0.8 |
| ÜDM artım tempi (Çin) | 6.7 | 6.5 | 6.3 | 6.1 | 5.9 | 5.8 | 5.6 | 5.4 | 5.3 | 5.1 |
| ÜDM artım tempi (İran) | 7.1 | 6.9 | 6.7 | 6.5 | 6.3 | 6.1 | 5.9 | 5.8 | 5.6 | 5.4 |
| ÜDM artım tempi (ABŞ) | 2.1 | 2.1 | 2.0 | 1.9 | 1.9 | 1.8 | 1.8 | 1.7 | 1.7 | 1.6 |

***Mənbə:*** *Model nəticələri əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

**Şəkil 6.** Optimist ssenari üzrə digər ölkələrdə ÜDM-in artım tempinin proqnozu %-lə




| | 2021 | 2022 | 2023 | 2024 | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ÜDM artım tempi (Türkiyə) | 3 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 |
| ÜDM artım tempi (Rusiya) | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| ÜDM artım tempi (Çin) | 7 | 7 | 7 | 8 | 8 | 8 | 8 | 8 | 9 | 9 |
| ÜDM artım tempi (İran) | 7 | 8 | 8 | 8 | 8 | 8 | 9 | 9 | 9 | 10 |
| ÜDM artım tempi (ABŞ) | 2 | 2 | 2 | 2 | 2 | 3 | 3 | 3 | 3 | 3 |

***Mənbə:*** *Model nəticələri əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

**Cədvəl 2.** Azərbaycanda ÜDM-in artım tempinin digər ölkələrin ÜDM-inin artım tempindən asılılıq əmsalları

| **Azərbaycanda ÜDM-in artım tempinin digər ölkələrin ÜDM-inin artım tempindən asılılıq əmsalları** | | | | | |
|---|---|---|---|---|---|
| Sərbəst əmsal | ÜDM artım tempi (Türkiyə) | ÜDM artım tempi (Rusiya) | ÜDM artım tempi (Çin) | ÜDM artım tempi (İran) | ÜDM artım tempi (ABŞ) |
| | growth_tr | growth_ru | growth_chn | growth_ir | growth_usa |
| -8,674791 | -0,61177 | 0,944525 | 1,864407 | 0,034814 | -0,03948 |

***Mənbə:** Model nəticələri əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

### 5.3. Əsas aparıcı ölkələrdə ticarət dövriyyəsi

Üçüncü yanaşmada Azərbaycanın xariciticarət dövriyyəsi seçilmiş təsir edən aillər əsasında təhlil edilərək qiymətləndirilmişdir. Eyni zamanda, aparılan proqnozlar həm optimistik, həm də pessimistik ssenarilər üzrə yerinə yetirilmişdir.

**Şəkil 7.**Azərbaycanın ticarət dövriyyəsinin digər ölkələrlə ticarət əlaqələrinin həcmindən asılı olaraq növbəti 5-10 il üçün gözlənilə bilən proqnozu min ABŞ dolları ilə




| | 2021 | 2022 | 2023 | 2024 | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ticarət dövriyyəsi (Azərbaycan) Optimist ssenari üzrə | 5703789 | 5884740 | 6074738 | 6274236 | 6483709 | 6703656 | 6934600 | 7177091 | 7431707 | 7699054 |
| Ticarət dövriyyəsi (Azərbaycan) Pessimist ssenari üzrə | 5367327 | 5211015 | 5062147 | 4920367 | 4785339 | 4656741 | 4534266 | 4417624 | 4306536 | 4200738 |

***Mənbə:** Model nəticələri əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

**Şəkil 8.**Pessimist ssenari üzrə digər ölkələrin ticarət dövriyyəsinin proqnozu min ABŞ dollari ilə




| | 2021 | 2022 | 2023 | 2024 | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ticarət dövriyyəsi (Rusiya) | -1259478 | -1322452 | -1388575 | -1458004 | -1530904 | -1607449 | -1687821 | -1772213 | -1860823 | -1953864 |
| Ticarət dövriyyəsi (Türkiyə) | 399488 | 419463 | 440436 | 462458 | 485580 | 509859 | 535352 | 562120 | 590226 | 619737 |
| Ticarət dövriyyəsi (Çin) | -620373 | -651392 | -683962 | -718160 | -754068 | -791771 | -831360 | -872928 | -916574 | -962403 |
| Ticarət dövriyyəsi (ABŞ) | -524742 | -550979 | -578528 | -607455 | -637828 | -669719 | -703205 | -738365 | -775283 | -814048 |
| Ticarət dövriyyəsi (Almaniya) | 237574 | 249452 | 261925 | 275021 | 288772 | 303211 | 318371 | 334290 | 351004 | 368555 |
| Ticarət dövriyyəsi (İran) | -251111 | -263667 | -276850 | -290693 | -305228 | -320489 | -336513 | -353339 | -371006 | -389556 |
| Ticarət dövriyyəsi (İtaliya) | 4519592 | 4745572 | 4982850 | 5231993 | 5493593 | 5768272 | 6056686 | 6359520 | 6677496 | 7011371 |

***Mənbə:** Model nəticələri əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

**Şəkil 9.** Optimist ssenari üzrə digər ölkələrin ticarət dövriyyəsinin proqnozu min ABŞ dollarılə




| | 2021 | 2022 | 2023 | 2024 | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ticarət dövriyyəsi (Rusiya) | -1142384 | -1087985 | -1036176 | -986834 | -939842 | -895088 | -852465 | -811871 | -773210 | -736391 |
| Ticarət dövriyyəsi (Türkiyə) | 362348 | 345093 | 328660 | 313009 | 298104 | 283909 | 270389 | 257514 | 245251 | 233573 |
| Ticarət dövriyyəsi (Çin) | -562697 | -535902 | -510383 | -486079 | -462932 | -440888 | -419893 | -399898 | -380855 | -362719 |
| Ticarət dövriyyəsi (ABŞ) | -475957 | -453292 | -431707 | -411149 | -391571 | -372925 | -355166 | -338254 | -322146 | -306806 |
| Ticarət dövriyyəsi (Almaniya) | 215486 | 205225 | 195452 | 186145 | 177281 | 168839 | 160799 | 153142 | 145850 | 138904 |
| Ticarət dövriyyəsi (İran) | -227766 | -216920 | -206590 | -196752 | -187383 | -178460 | -169962 | -161869 | -154161 | -146820 |
| Ticarət dövriyyəsi (İtaliya) | 4099403 | 3904194 | 3718280 | 3541219 | 3372589 | 3211990 | 3059038 | 2913369 | 2774638 | 2642512 |

***Mənbə:*** *Model nəticələri əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

**Cədvəl 3.** Azərbaycanın ticarət dövriyyəsinin digər ölkələrin ticarət əlaqələrindən asılılığı

Azərbaycanın ticarət dövriyyəsinin digər ölkələrin ticarət əlaqələrindən asılılığı

| Sərbəst əmsal | Ticarət dövriyyəsi (Rusiya) | Ticarət dövriyyəsi (Türkiyə) | Ticarət dövriyyəsi (Çin) | Ticarət dövriyyəsi (ABŞ) | Ticarət dövriyyəsi (Almaniya) | Ticarət dövriyyəsi (İran) | Ticarət dövriyyəsi (İtaliya) |
|---|---|---|---|---|---|---|---|
| | trade_bl_ru | trade_bl_tr | trade_bl_chn | trade_bl_usa | trade_bl_ger | trade_bl_ir | trade_bl_ita |
| 2084775 | 2,28564 | 0,13672 | -1,41241 | 3,53201 | 4,13453 | -3,87596 | 1,20912 |

***Mənbə:*** *Model nəticələri əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Aparılmış qiymətləndirmələr göstərir ki, Azərbaycanın ÜDM-i və xarici ticarət dövriyyəsi qarşıdakı 5-10 il ərzində optimistik ssenaridə artır, pessimistik senaridə isə azalır. Bu isə, ola biləcək pessimistik tendensiyalara qarşı müəyyən qabaqlayıcı tədbirlərin görülməsini zəruri edir. Bu qabaqlayıcı tədbirlərin obyekti isə, əsasən modellərdə seçilmiş izahedici dəyişənlər olmalıdır.

## İSTIFADƏ OLUNMUŞ ƏDƏBİYYATLARIN SİYAHISI

1. Blanchard, Olivier, Macroeconomics, 2nd ed. Prentice Hall, ISBN 0-13-013306-X, 2000.
2. EViews 7 User Guide I. Quantitative Micro Software, LLC, 2010, 688 p.
3. Gujarati N. D. Basic Econometrics. Fourth Edition 2004, 1004 p.
4. Mehdiyev M. M. İqtisadi siyasət ssenarilərinin simulyasiyasının təşkili // İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun Elmi Əsərlər Toplusu, 2011, XI buraxılış, s.120-127.
5. Süleymanov A.S. Müasir makroiqtisadi modellərin təhlili // Azərbaycan Vergi Jurnalı, 2016, № 1, s.121-132.

6. Süleymanov A.S. Azərbaycanın makroekonometrik modelinin məlumat bazasının formalaşdırılması xüsusiyyətləri // Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Statistika Xəbərləri Jurnalı, 2020, № 2, s.54-61.
7. Süleymanov A.S., Musayev R.R. Azərbaycanın Ümumi Tarazlıq Modeli (AzMOD) əsasında kapital qoyuluşlarının ölkə iqtisadiyyatına təsirlərinin qiymətləndirilməsi // Journal of Baku Engineering University Economics and Administration, 2018, v.2, № 2, pp.117-128.
8. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi www.economy.gov.az
9. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi www.stat.gov.az
10. Dünya Bankının rəsmi internet səhifəsi www.worldbank.org

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2020. Volume 4, Number 2* *Pages 113-120*

***UOT: 336.77***

# COVID-19 PANDEMİYASININ AZƏRBAYCANDA BANK KREDİTLƏRİNƏ TƏSİRİ

**Səbinə MÜRŞÜDOVA, Nuranə MƏMMƏDOVA, Mirrazim HƏSƏNOV**

Bakı Mühəndislik Universiteti

**XÜLASƏ**

Tədqiqatın əsas məqsədi Koronavirus pandemiyasının (COVİD-19) bank kreditlərinə təsirini araşdırmaqdır. Araşdırma zamanı tədqiqatın məlumat bazası olaraq Azərbaycan Mərkəzi Bankının 2018-2020-ci illərdəki statistik bülletenlərindən istifadə olunmuşdur. Tədqiqatda istifadə olunan cədvəllər zaman əsaslı verilənlər əsasında qurulmuşdur. Məlumdur ki, koronavirusun (COVİD-19) yayılması dünya iqtisadiyyatına olduğu kimi Azərbaycan iqtisadiyyatına da əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Pandemiyanın yaratdığı problemlər və iqtisadiyyata təsirləri haqqında müzakirələrin uzun müddət davam edəcəyi görülür.Koronavirusun təsirini azaltmaq üçün görülən bəzi tədbirlər məsələn, küçəyə çıxmağa qoyulan qadağa, sosial məsafənin formalaşması, karantin, izolyasiya və s tədbirlər sosial həyatın və iqtisadiyyatın sürətini azaldır. İqtisadi geriləmənin qalıcı olacağı vəziyyətdə isə bank kredit təklifinin azalması və insanların kredit tələbinin azalması ilə nəticələnməsi mümkün ola bilər. Koronavirus pandemiyası (COVİD-19) işsizliyə, inflyasıyanın artmasına səbəb olduğu kimi, büdcə və ödənişlərin tarazlığının pozulmasına, iqtisadiyyatın böyümə sürətinin azalmasına, xarici maliyyə problemlərinin yaranmasına da səbəb olur. Pandemiya dövründə bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da rəqəmsallaşmanın zəruriliyi, təmassız ödənişlər, elektron ticarət, elektron bankçılıq xidmətləri daha da aktuallaşmışdır. Koronavirusun (COVİD-19) nə qədər davam edəcəyi və bank sektoru üzərindəki təsirlərinin necə olacağı hal-hazırda məlum olmasada önümüzdəki illərdə bu sahədə geniş araşdırmalar aparılacaq.

**Açar sözlər:** Koronavirus pandemiyası, bank sektoru, kreditlər.

**ВЛИЯНИЕ ПАНДЕМИЯ COVID-19 НА БАНКОВСКИЕ КРЕДИТЫ В АЗЕРБАЙДЖАНЕ**

**РЕЗЮМЕ**

Основная цель исследования изучить влияние пандемии коронавируса (COVID-19) на банковские кредиты. В ходе исследования в качестве исследовательской базы данных использовались статистические бюллетени Центрального банка Азербайджана за 2018-2020 годы. Таблицы, используемые в исследовании, основаны на временных данных. Известно, что распространение коронавируса (COVID-19) оказывает значительное влияние на мировую экономику, а также на экономику Азербайджана. Дискуссии о проблемах, вызванных пандемией, и ее влиянии на экономику будут продолжаться еще долго. Некоторые меры, принятые для уменьшения воздействия коронавируса, такие как уличные запреты, социальная дистанция, карантин, изоляция и т. д., снижает темп социальной жизни и экономики. Если экономический спад продолжится, банк может сократить предложение кредита и это может привести к снижению спроса людей на кредиты. Пандемия коронавируса (COVID-19) вызывает безработицу, рост инфляции, диспропорции в бюджетах и платежах, замедление экономического роста и внешние финансовые проблемы. Во время пандемии, как и во всех странах, такжев Азербайджане потребность в цифровизации, бесконтактных платежах, электронной коммерции, услугах электронного банкинга стала еще более актуальной. Хотя пока неизвестно как долго продлится коронавирус (COVID-19) и как он повлияет на банковский сектор, в ближайшие годы будут проведены обширные исследования.

**Ключевые слова:**Пандемия коронавируса, банковский сектор, кредиты.

**EFFECT OF THE COVID-19 PANDEMIC ON BANK LOANS IN AZERBAIJAN**

**ABSTRACT**

The main purpose of the research is to investigate the impact of the Coronavirus pandemic (COVID-19) on bank loans. During the research, the statistical bulletins of the Central Bank of Azerbaijan for 2018-2020 were used as the database. The tables used in the researchare based on time series data. It is known that the spread of coronavirus (COVID-19) has a significant impact on the world economy, as well as on the economy of Azerbaijan. Discussions about the problems caused by the pandemic and its impact on the economy will continue for a long

time. Some measures taken to reduce the impact of the coronavirus, such as street bans, social distance, quarantine, isolation, etc., slow down social life and the economy. If economic downturn continues, it could result in the cutback of the bank credit supplies and decrease of people's demand for it.. The coronavirus pandemic (COVID-19) causes unemployment, rising inflation, imbalances in budgets and payments, slowing economic growth, and external financial problems. During the pandemic, as in all countries, the need for digitalization, contactless payments, e-commerce, e-banking services has become even more relevant in Azerbaijan. Although it is not yet known how long the coronavirus (COVID-19) will last and how it will affect the banking sector, extensive research will be conducted in the coming years.

**Keywords:**Coronavirus pandemic, banking sector, loans.

## Giriş

Müasir dövrdə kredit həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Belə ki, bir çox hallarda şəxsi istehlakı ödəmək və ya hər hansı biznesi qurmaq üçün mütləq əlavə vəsaitə ehtiyac yaranır. Bunun üçün isə insanlar kredit təşkilatlarına, xüsusən də banklara üz tuturlar. Kreditlər vəsait çatışmazlığını kompensasiya etməklə yanaşı ölkədə iqtisadi aktivliyin artırılmasında, sahibkarlığın inkişafında, işsizliyin aradan qaldırılmasında əhəmiyyətli rol oynayır. Kreditlər, həmçinin adi insanların ev, məişət texnikası, avtomobil və s. olan tələbatlarını ödəyirlər.[9]

Son illərdə dünyada baş verən proseslər bank biznesinin məzmununa əhəmiyyətli təsir göstərir.

2019-cu il dekabrın sonundan etibarən Çinin Wuhan vilayətində ortaya çıxan və bütün dünyanı öz təsiri altına alan Covid-19 pandemiyasının insan sağlamlığı və iqtisadi həyat üzərinə zədələyici təsirlərinin olduğu görülür. Yaranan risk sadəcə iqtisadi və ya maliyyə riski deyil, eyni zamanda insan sağlamlığı üçün də bir riskdir. Pandemiya işsizliyə, inflyasiyanın artmasına səbəb olduğu kimi, büdcə və ödənişlərin tarazlığının pozulmasına, iqtisadiyyatın böyümə sürətinin azalmasına, xarici maliyyə problemlərinin yaranmasına da səbəb olur. Pandemiyanın iqtisadiyyat üçün yaratdığı mənfi təsirləri azalda bilmək üçün ölkələr pul siyasəti, maliyyə siyasəti və digər siyasətlər həyata keçirərək müxtəlif tədbirlər görürlər.[10]

Azərbaycanda isə ilk Covid-19 pandemiyasına yoluxma faktı 28 Fevral 2020-ci il, ilk ölüm faktı isə 12 Mart 2020-ci il tarixində qeydə alınmışdır.[Nazirlər Kabineti yanında Operativ Qərargah].

Covid-19 Pandemiyasının yaratdığı problemlər və iqtisadiyyata təsirləri haqqında müzakirələrin uzun bir müddət davam edəcəyi məlumdur. Bu virusun yaradacağı zərərin ölçüsünün nə qədər böyüyəcəyi hələ ki bəlli deyil. Görülən iqtisadi tədbirlər ilə pandemiyanın yaratdığı zərərləri azaltmağa çalışırlar. Pandemiyanın təsirini azaltmaq üçün görülən bəzi tədbirlər məsələn, küçəyə çıxmağa qoyulan qadağa, sosial məsafənin formalaşması, karantin, izolyasiya tədbirləri və s sosial həyatın və iqtisadiyyatın sürətini azaldır. Bu da cəmiyyətdə maliyyə itkisinə səbəb olur. [1]

Koronavirusun (COVİD-19) yayılması ilə əlaqədar dünya ölkələrində qeyri-stabil iqtisadi vəziyyət yayılmışdı. İnfeksiyasının yayılması müxtəlif ölkələrdə əhalinin sağlamlığı ilə bağlı risklər yaratdı, dünyanın iqtisadi-siyasi həyatında ciddi dəyişikliklərə yol açaraq iqtisadiyyatın bütün sektorlarına öz təsirini göstərdi. Turizm sektorunun çətin vəziyyətə düşməsi, neft qiymətlərinin enməsi, dünya üzrə həm istehsal, həm də istehlak həcminin azalması iqtisadiyyatı tamamilə fərqli bir vəziyyətə gətirdi. Əlbəttə, bu faktorların iqtisadiyyatın qan damar-

ları hesab edilən bank sektoruna da öz təsirini göstərməsi qaçılmazdır.Bu proses Azərbaycan iqtisayyatına bütünlükdə dünya iqtisadiyyatıda mənfi təsir göstərmişdi. [3]

Covid-19 pandemiyası təklif və tələb üzərində müxtəlif təsirlər yaratmışdır. Artan ölüm sayı, virusa yoluxma qorxusu, küçəyə çıxma qadağaları, iş yerlərinin bağlanması kimi faktorlar həm insanların psixologiyasına həm də iqtisadi vəziyyətinə mənfi təsir etmişdir. Sosial aktivliyin azalması ilə xidmət sektorundakı bir çox sahə kiçilməyə başlamışdır. İqtisadi gerilənmənin qalıcı olacağı vəziyyətdə isə bank kredit təkliflərinin azalması və insanların kredit tələblərinin azalması ilə nəticələnməsi mümkün ola bilər. Önümüzdəki illərdə virusun yaradacağı risklərin artması kreditləşmə mərhələsinin pozulmasına səbəb ola bilər.Bu pozulma 2 formada özünü göstərə bilər:

1) Mövcud kredit stokunu formalaşdıran borcluların borclarını ödəyə bilməmələri,
2) Bankların yeni kredit verilməsi məsələsindəki həddindən artıq tədbirli və mühafizəkar davranışı. [1]

Kommersiya banklarının dayanıqlığı, bankın qarşıya qoyduğu strateji vəzifələrin icrasına nail olmaq üçün, həm də xarici və daxili amillərin müsbət və ya mənfi təsirləri altında mövcud iqtisadi mühitdə bir tarazlıq vəziyyətinə gələ bilməsi və bu vəziyyəti uzun müddət davam etdirməsidir. [3]

Bazar iqtisadiyyatında kredit kommersiya krediti və bank krediti formalarında çıxış edir. Onlar iştirakçıların tərkibi, ssuda obyektləri, faiz səviyyəsi və fəaliyyət sferalarına görə fərqlənirlər. Kommersiya krediti zamanı sahibkarlar bir-birinə mal- material qiymətlilərini ödəniş vaxtı uzadılmaqla satırlar. Kommersiya kreditinin obyekti əmtəə kapitalıdır və məqsədi əmtəələrin reallaşdırılmasını və mənfəət əldə etməyi sürətləndirməkdir. Kommersiya krediti veksellərlə rəsmiləşdirilir. Bu kreditlər üzrə faizlər malın və vekselin qiymətində əks olunur. Bank krediti banklar və ya xüsusi kredit təşkilatlan tərəfindən borcalanlara verilən pul-ssudasıdır. Bank kreditinin obyekti pul kapitalıdır. Bank krediti istiqaməti, müddəti və məbləğinə görə məhdudiyyət olmadığına görə kommersiya kreditindən geniş fəaliyyət sferasına malikdir. [4]

Bank krediti (bundan sonra kredit) - bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komisyon haqqlar) ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir. Həmin şərtlərlə pul vəsaitinin verilməsi haqqında götürülmüş hər hansı öhdəlik, qarantiya, zəmanət, borc qiymətli kağızlarının diskontla və ya faizlər alınmaqla satın alınması və müqaviləyə əsasən hər hansı formada verilmiş vəsaitin qaytarılmasını tələb etməklə bağlı digər hüquq da kredit anlayışına aiddir. [5]

Qanunda da qeyd edildiyi kimi kreditlər təminatlı və təminatsız olaraq verilə bilər. Ödəniş cədvəli kredit verildiyi vaxt müəyyən edilir. Burada ən vacib nöqtə faiz ödənişlərinin ödənilməsidir. Kredit ödəmə cədvəlinin müəyyən bir başa çatma müddəti var ki, borclu borc məbləği və faiz dərəcəsi hesablamasından əldə olunan məbləği ödəyir. Bu mənada, bütün kredit vermə prosesi faiz dərəcələrinə tabedir. [6]

Bank krediti kreditin əsas forması kimi çıxış edir. Burada kredit münasibətlərinin subyekti kimi təsərrüfat təşkilatları, əhali, dövlət və bankların özləri çıxış edir.Bu subyektlər həm borcalan yəni qaytarmaq şərti ilə vəsait alan, həm də kreditor kimi yəni özünün sərbəst pul vəsaitlərini müəyyən müddətə borc verən kimi çıxış edirlər. [13]

**İstifadə olunan verilənlər**

Tədqiqatın məlumat bazası Azərbaycan Mərkəzi Bankının 2018-2020-ci illərdə Statistik bülletenləri əsasında yazılmışdır. Analizdə zaman əsaslı verilənlərdən istifadə edilmişdir.

| İl, Ay | Cəmi kredit qoyuluşları | Dövlət bankları | Özəl banklar |
|---|---|---|---|
| | | mln.manat | mln.manat |
| **2018** | **13020,3** | **2098,4** | **10529,8** |
| **1** | 11656,1 | 1861,9 | 9380,3 |
| **2** | 11561,1 | 1814,2 | 9333,0 |
| **3** | 11663,5 | 1798,8 | 9450,7 |
| **4** | 11815,8 | 1768,9 | 9653,7 |
| **5** | 11945,5 | 1789,1 | 9763,2 |
| **6** | 12105,6 | 1819,4 | 9893,0 |
| **7** | 12170,7 | 1820,4 | 9949,2 |
| **8** | 12306,5 | 1812,7 | 10092,8 |
| **9** | 12302,4 | 1858,8 | 10042,6 |
| **10** | 12281,3 | 1862,2 | 10027,0 |
| **11** | 12564,2 | 1848,7 | 10323,4 |
| **12** | 13020,3 | 2098,4 | 10529,8 |
| **2019** | **15298,2** | **2561,5** | **12339,4** |
| **1** | 12884,7 | 2062,4 | 10478,6 |
| **2** | 12974,6 | 2080,2 | 10550,7 |
| **3** | 13058,0 | 2103,7 | 10610,7 |
| **4** | 13011,4 | 2131,9 | 10542,9 |
| **5** | 13198,0 | 2158,4 | 10703,0 |
| **6** | 13482,6 | 2181,8 | 10964,2 |
| **7** | 13681,4 | 2202,8 | 11139,4 |
| **8** | 13865,5 | 2220,0 | 11306,4 |
| **9** | 14243,0 | 2419,8 | 11452,3 |
| **10** | 14445,8 | 2425,4 | 11649,6 |
| **11** | 15116,4 | 2514,0 | 12231,5 |
| **12** | 15298,2 | 2561,5 | 12339,4 |
| **2020** | **14992,9** | **2625.0** | **11978,7** |
| **1** | 15513,6 | 2533,2 | 12583,2 |
| **2** | 15696,4 | 2564,0 | 12735,1 |
| **3** | 15637,4 | 2606,4 | 12626,3 |
| **4** | 15146.8 | 2646,1 | 12096,0 |
| **5** | 14765.7 | 2571,2 | 11789,8 |
| **6** | 14550,7 | 2585,6 | 11584,2 |
| **7** | 14585,3 | 2604,1 | 11600,4 |
| **8** | 14685,1 | 2614,8 | 11689,4 |
| **9** | 14873,7 | 2642,0 | 11855,0 |
| **10** | 14785,9 | 2667,5 | 11741,8 |
| **11** | 14681,3 | 2840,1 | 11464,5 |

Cədvəldən də göründüyü kimi 2019-cu ildə 15298,2 mln.manat kredit qoyuluşları həyata keçirilmişdir. 2018-ci ildə 2019-cu ilə nisbətən 2277,9 mln.manat az kredit əməliyyatı aparılmış, 2020-ci ilin 11 ayı üçün isə 2019-cu ilə nisbətən 305,3 mln.manat az kredit əməliyyatı həyata keçirilib.




"Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı"na əsasən iqtisadiyyata və sahibkarlığa dövlətin kredit-zəmanət dəstəyinin verilməsi istiqamətində

-Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə [o cümlədən kiçik və orta sahibkarlığa] veriləcək 0.5 mlrd. manat həcmində bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və kredit faizlərinin subsidiyalaşdırılması:

- Yeni verilən 500 milyon manat həcmində kreditlərin 60%-nə dövlət zəmanətinin verilməsi;
- Zəmanət verilən kreditlər üzrə faiz dərəcəsinin 50%-nin dövlət büdcəsi hesabına subsidiyalaşdırılması; [Azərbaycan Respublikası Nazirlər Kabineti]

Fiziki şəxslərin (sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan) dəstəklənməsi istiqamətində Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına verilmiş ipoteka kreditlərinin restrukturizasiya imkanları yaradılacaqdır. Bu tədbir nəticəsində 1.1 mlrd. manat həcmində ipoteka krediti üzrə 23 minə yaxın sayda borcalanın faydalanması imkanı yaranacaqdır. Kreditlər borcalanların müraciəti əsasında restrukturizasiya olunacaqdır. 01 mart 2020-ci il tarixinədək verilmiş və keyfiyyəti qənaətbəxş olan belə kreditlərin restrukturizasiyası 30 sentyabr 2020-ci ilədək həyata keçirildiyi halda onların keyfiyyəti pisləşdirilməyəcəkdir.

Eyni zamanda, bankların öz vəsaitləri hesabına ipoteka kreditləşməsini stimullaşdırmaq məqsədilə bu kateqoriyadan olan kreditlər üzrə risk dərəcələrinin 100%-dən 50%-dək azaldılması barədə qərar qəbul edilmişdir[Azərbaycan Mərkəzi Bankı]

Mərkəzi bankın əsas və başlıca funksiyalarından biri pul-kredit siyasətinin həyata keçirilməsidir. Pul-kredit siyasətinin başlıca məqsədi maliyyə stabilliyinin, inflyasiyaya səbəb olmadan davamlı məşğulluq səviyyəsinin və iqtisadi artımın təmin edilməsi kimi qiymətləndirilir.

Mərkəzi banklar pul siyasətinin iki formada həyata keçirirlər: tənzimləyici funksiyasını istifadə edərək birbaşa və ya pul yaratma funksiyasından istifadə edərək isə dolayı yolla pul bazarındakı vəziyyətə təsir edir. [Azərbaycan Mərkəzi Bankı]

Pul siyasətinin real iqtisadiyyat üzərindəki təsiri qiymətləndirilərkən kredit kanalı ənənəvi faiz dərəcə kanalına bir alternativ olaraq çıxmayıb, əksinə ənənəvi faiz dərəcə kanalının təsirlərini genişləndirən və qüvvətləndirən bir mexanizm olaraq qarşımıza çıxır. [12]




Azərbaycanın kredit bazarında faiz dərəcələrinin yüksək olmasına təsir göstərən əsas səbəblər kreditin geri qayıtması ilə bağlı risklərin yüksək olması və cəlb edilmiş vəsaitlərin bahalığı ilə bağlıdır. Müştərilərə verilmiş kreditlərin geri qaytarılması ilə bağlı halların mövcudluğu və bu halların getdikcə artması, girov mexanizminin qeyri-təkmil olması və s. bankları özlərini sığortalamağa vadar edir və onlar bunu faiz dərəcələrini artırmaqda görürlər. Digər tərəfdən, bankların kredit portfelinin əsas hissəsini təşkil edən depozitlərin yüksək faiz dərəcəsi ilə əhalidən cəlb edilməsi kreditlər üzrə faiz dərəcələrini artıran amillərdəndir. Statistik məlumatlar göstərir ki, faiz dərəcələrinin yüksək olmasına rəğmən bankların qazancı bir o qədər də yüksək deyil. [16]

Banklar müştərilərinə kredit vermək, pulu mühafizə etmək, köçürmə etmək, çek sənəd əməliyyatları, ödəniş və kart əməliyyatları, kredit kartı əməliyyatları və s yerinə yetirərək iqtisadi fəaliyyətlərini davam etdirirlər. Banklar fəaliyyətlərini davam etdirərkən tənzimləmələr, rəqabət şərtləri, müştəri gözləntiləri, maliyyə bazarlarının gözləntiləri, işçilərin gözləntiləri, texnologiyanın inkişafı və cəmiyyətin gözləntilərinə görə prosesləri formalaşdırırlar. [1

| İl, ay | Xarici valyutada kreditlər | | | | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi kreditlər | o cümlədən: vaxtı keçmiş | Qısamüddətli | o cümlədən: vaxtı keçmiş | Uzun-müddətli | o cümlədən: vaxtı keçmiş |
| **2018** | **4946,7** | **810,9** | **1184,9** | **171,4** | **3761,8** | **639,4** |
| **2019** | **5297,4** | **570,7** | **1259,1** | **120,0** | **4038,2** | **450,7** |
| **2020** | **4870,1** | **442,7** | **872,9** | **77,6** | **3997,2** | **365,2** |

| İl, ay | Cəmi | o cümlədən: vaxtı keçmiş | Milli valyutada kreditlər | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Cəmi kreditlər | o cümlədən: vaxtı keçmiş | Qısa-müddətli | o cümlədən: vaxtı keçmiş | Uzun-müddətli | o cümlədən: vaxtı keçmiş |
| **2018** | **13020,3** | **1585,0** | **8073,6** | **774,1** | **1510,2** | **157,9** | **6563,3** | **616,2** |
| **2019** | **15298,2** | **1273,1** | **10000,8** | **702,4** | **1659,6** | **106,0** | **8341,2** | **596,4** |
| **2020** | **12273,6** | **1136,5** | **10122,8** | **693,7** | **1742,0** | **109,4** | **8380,8** | **584,3** |

**Ödəniş kartları ilə aparılan təmassız əməliyyatlar**

Ödəniş kartı malların, iş və xidmətlərin dəyərinin ödənilməsi, öz hesabından digər şəxsin hesabına pul vəsaitinin köçürülməsi, habelə nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş alətidir. İnkişaf etmiş ölkələrdə alış-verişin təxminən 80-85 faizi ödəniş kartı vasitəsi ilə aparılır. Dünyada 1,5 milyarda yaxın ödəniş kartları mövcuddur. [Azərbaycan Respublikası Vergilər Nazirliyi]

Son illərdə ölkədə rəqəmsal ödəniş ekosisteminin yaradılması istiqamətində görülən işlər nəticəsində təmassız ödəniş infrastrukturunda ciddi irəliləyişlər müşahidə olunur. Belə ki, hazırda dövriyyədə olan ödəniş kartlarının 26%-i (2.3 mln. ədəd), POS-terminalların isə 53%-i (29.5 min) təmassız ödənişləri dəstəkləyir. Müqayisə üçün qeyd edək ki, 2018-ci ilin analoji dövründə bu göstəricilər müvafiq olaraq 7% (409 min ədəd) və 32% (21 min ədəd) olmuşdur.

Xüsusilə pandemiya dövründə bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da rəqəmsallaşmanın zəruriliyi, təmassız ödənişlər, elektron ticarət, elektron bankçılıq xidmətləri daha da aktuallaşmışdır. Pandemiya şəraitində virusun səthə toxunaraq yayılması faktı əhali tərəfindən POS-terminala toxunmadan aparılan təmassız ödənişlərə üstünlük verilməsinə səbəb olmuşdur. Pandemiya dövründə əhalinin təmassız ödəniş imkanlarını artırmaq üçün dünyanın bir çox ölkələrində PİN-kod daxil edilmədən təmassız kartlarla aparılan nağdsız əməliyyatların limitləri yüksəldilmişdir. Mərkəzi Bank analoji təcrübədən yararlanaraq, kartlar vasitəsilə PİN-kod daxil edilmədən aparılan təmassız ödəniş limitini hazırki 50 manat səviyyəsindən 100 manata yüksəltmişdir. Nəticə etibarilə, istehlakçılar üçün gündəlik əsasda həyata keçirilən təmassız ödənişlərin daha rahat, sürətli və təhlükəsiz formada aparılması imkanları genişləndirilmişdir. [Azərbaycan Respublikası Mərkəzi Bankı]

**Nəticə**

2020-ci ildə 4 bankın lisenziyaları Mərkəzi Bank tərəfindən ləğv edilmişdir. Bunlar "Atabank", "AGBank", "NBCBank" və "Əmrah Bank" dır. Hal-hazırda 26 bank fəaliyyətini davam etdirir.

Koronavirusun nə qədər davam edəcəyi və iqtisadi nəticələrinin necə olacağı məlum olmasa da, virusun zərərini minimuma endirmək üçün dövlətimiz geniş iqtisadi tədbirlər həyata keçirir. Ən çox zərər çəkmiş sahələrə yardım olunur. Bank sektoru, turizm və sənaye sahələri ilə birlikdə ən böyük risk qrupuna daxil olduqları üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı"ı hazırlanmışdır. Planda büdcədən bu sahələrə yardım ayrılmış və müxtəlif güzəştlər tətbiq olunmuşdur.

Bu il biznes kreditlərinə konkret güzəştlərin verilməsini nəzərdə tutan iqtisadi paket qəbul olundu. Biznes kreditləri üzrə 12 olan orta faiz dərəcəsinin 10 faizi dövlət tərəfindən subsidiya olundu. Bu da 1 milyard manatlıq kredit portfelini əhatə etdi. Sözügedən istiqamətdə 100 milyon manat vəsait ayrıldı.

Kreditlərin artmasının problemli kreditlərin artmasına hansı şəkildə təsir edəcəyini, başqa sözlə desək bank sektoru üzərində mənfi təsirlər yaradıb yaratmayacağını pandemiya tam başa çatdıqdan sonra daha yaxşı analiz edə bilərik.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Hicabi Ersoy, Ali Osman Gürbüz, Mefule Fındıkçı Erdoğan ''COVİD-19'UN TÜRK BANKACILIK VE FİNANS SEKTÖRÜ ÜZERİNE ETKİLERİ, ALINABİLECEK ÖNLEMLER" 2020
2. Nazirlər Kabineti yanında Operativ Qərargah
3. ВЛИЯНИЕ КОРОНАВИРУСА НА УСТОЙЧИВОСТЬ КОММЕРЧЕСКИХ БАНКОВГусейнова Алида Теймур
4. Rafiq Bəşirov "Bank işi" Bakı-2016
5. Banklar haqqında AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
6. Xətai ALIYEV, Ilkin GASIMOV "BANKING IN AZERBAIJAN ECONOMY: CONVENTIONAL OR ISLAMIC BANKING?" 2014
7. https://www.taxes.gov.az/files/2/Vergilere_aid_nesrler/2/2.7.pdf
8. https://www.cbar.az/press-release-2707
9. Мещдийев А., Ялийев С. «Азярбайжанда кредит фаизляринин йцксяк олмасына тясир эюстярян амиллярин гиймятляндирилмяси» лайищяси чярчивясиндя апарылан тядгигат. Медиа вя Ижтимаи Тяшяббцсляр Мяркязи. Бакы, 2011.
10. Öğr. Gör. Havva Arabacı, Dr. Öğr. Üyesi Duygu Yücel "COVID-19 Pandemisinin Türk Bankacılık Sektörü Üzerine Etkisi" 2020
11. Dr. Hale Nur GÜLER "KORONAVİRÜSÜ (COVID-19) GÜNLERİNDE BANKALARA İLETİLEN MÜŞTERİ İTİRAZ VE ŞİKAYETLERİNİN İNCELENMESİ" 2020
12. Shahriyar MUKHTAROV, Ceyhun MİKAYILOV, Zamig MAMMADOV "AZERBAYCAN'DA BANKA KREDİ KANALININ İŞLEYİŞİ: AMPİRİK BİR ANALİZ" 2016
13. RAFİQ BƏŞİROV ''BANK İŞİ" BAKI 2007
14. Azərbaycan Mərkəzi Bankı
15. Azərbaycan Respublikası Vergilər Nazirliyi
16. KREDİT ÖHDƏLİKLƏRİNİN İCRASI İLƏ BAĞLI YARANAN MÜBAHİSƏLƏRİN HƏLLİNDƏ MƏHKƏMƏ-MÜHASİBAT EKSPERTİZASININ ROLU QALİB HƏSƏNOV Bakı 2014

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2020. Volume 4, Number 2* *Pages 121-132*

*UOT 330.341.42*

# QEYRİ-NEFT İXRACINA TƏSİR AMİLLƏRİNİN SEÇİLMƏSİNDƏ QƏRARLARIN QƏBULU

**Aynurə İSMAYILOVA**
İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu
Bakı / AZƏRBAYCAN
*a-ismayilova@hotmail.com*

### XÜLASƏ

Təqdim olunan məqalədə resurs ixracından asılılığın azaldılması üzrə alternativ istiqamət kimi qeyri-neft ixracının artırılmasına dair cari vəziyyət, bu istiqamətdə təsir amillərinin tədqiqi və qiymətləndirilməsinə dair yerli və xarici müəlliflərin əsərləri təhlil edilmişdir. Neft ixrac edən ölkələrin təcrübəsi göstərmişdir ki, Azərbaycanın timsalında qeyri-neft ixracına təsir edən amillər həm təsnifatına, həm də təsir dərəcələrinə görə fərqlənir. Çoxmeyarlılıq şəraitində formalaşan qeyri-səlis şəraitdə alternativlər seçilməsi, müqayisəli üstünlük üzrə ekspert qiymətləndirmələrinin aparılası, texnoloji tərəqqinin təsirləri nəzərə alınmaqla ekonometrik təhlil və proqnoz modellərinin qurulması üzrə metodoloji yanaşma verilmişdir. Ölkəmizdə 2010-cu ildən başlayaraq həyata keçirilən innovativ və yeni texnologiyalar əsasında qurulan sənayenin təsirlərinin nəzərə alınmaqla, seçilmiş amillər əsasında ölkə üzrə qeyri–neft ixracının qiymətləndirilməsinin üç faktorlu muliplikativ modeli qurulmuşdur.

**Açar sözlər:** qeyri-neft ixracı, resurs çoxluğu, ixrac siyasəti, təsir amillər, ixracın diversifikasiyası, qeyri-səlis məntiq, ekspert sorğuları

### DECISION MAKING IN THE SELECTION OF FACTORS AFFECTING NON-OIL EXPORT

### ABSTRACT

The presented article analyzes the current situation of increasing non-oil exports as an alternative direction to reduce dependence on resource exports, as well as the work of domestic and foreign authors on the study and assessment of influencing factors in this direction. The experience of oil exporting countries has shown that the factors affecting non-oil exports in case of Azerbaijan differ both in classification and in the degree of influence. A methodological approach is given to the choice of alternatives in fuzzy conditions that are formed in multidimensional conditions, to conduct expert assessments of comparative advantages, to build econometric analysis and forecasting models, taking into account the effects of technical progress. Taking into account the influence of the industry based on innovative and new technologies, implemented in our country since 2010, based on the selected factors, a three-factor multiplicative model for assessing non-oil exports in the country was built.

**Key words:** non-oil exports, resource abundance, export policy, influencing factors, export diversification, fuzzy logic, expert polls.

### ПРИНЯТИЕ РЕШЕНИЯ ПРИ ВЫБОРЕ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА НЕФТЯНОЙ ЭКСПОРТ

### РЕЗЮМЕ

В представленной статье проанализирована текущая ситуация по увеличению ненефтяного экспорта как альтернативного направления снижения зависимости от экспорта ресурсов, а также работы отечественных и зарубежных авторов по исследованию и оценке факторов влияния в этом направлении. Опыт стран-экспортеров нефти показал, что факторы, влияющие на ненефтяной экспорт Азербайджана, отличаются как по классификации, так и по степени влияния. Дан методологический подход к выбору альтернатив в нечетких условиях, формирующихся в условиях многомерности, проведению экспертных оценок сравнительных преимуществ, построения эконометрического анализа и моделей прогнозирования с учетом эффектов технического прогресса. С учетом влияния промышленности, основанной на инновационных и новых технологиях, реализуемых в нашей стране с 2010 года, на основе выбранных факторов построена трехфакторная мультипликативная модель оценки ненефтяного экспорта по стране.

**Ключевые слова:** ненефтяной экспорт, изобилие ресурсов, экспортная политика, влияющие факторы, диверсификация экспорта, нечеткая логика, экспертные опросы.

## 1. Giriş

İxracın artırılması bir tərəfdən ölkənin malik olduğu mütləq üstünlüklərlə şərtlənirsə, digər tərəfdən dünya bazarında rəqabətə tab gətirəcək istər əmtəə, istərsə də xidmətlərin istehsalından asılıdır. Bu baxımdan ixracın vəziyyəti ölkənin mövcud resurslarından (təbii, iqtisadi, insan) səmərəli istifadədən, elmi-texniki tərəqqinin səviyyəsindən və s. asılıdır.

1995-2021-ci illərdə ölkəmizdə ümumi daxili məhsul (ÜDM) və ixracım artım sürəti nisbi proporsionallıq təşkil etmişdir. Bildiyimiz kimi ixrac ÜDM-in əsas komponenti olmaqla onun formalaşmasında mühüm yerə malikdir. Təhlilin aparıldığı dövrdə ÜDM və ixracın artım sürətinə nəzər saldıqda, görürük ki, ÜDM ilə müqayisədə ixracın artım sürətində daha çox dalğalanmalar mövcud olmuşdur ki, bu da öz növbəsində ölkə ixracının qeyd edilən illər ərzində böyük bir hissəsinin (80%-dən çox) mineral yanacaqların hesabına formalaşmasından və neftin dünya bazar qiymətlərində baş vermiş dalğalanmalarla əlaqədar olmuşdur. 1994-2021-ci illərdə 20 qrupda cəmləşdirilmiş məhsul qrupları üzrə ixracın dinamikasının təhlilinə nəzər yetirdikdə, görürük ki, mineral yanacaq, neft və onun qovulma məhsulları, bitumlu maddələr qrupu üzrə ixracın çəkisi təhlil edilən dövr üzrə ən yüksəkdir. Bu isə ölkənin neft və qazın xammal olaraq, ixrac olunması ilə əlaqədardır. Məsələn, neftin qiymətinin son 30 ildə 2008 və 2011-2014-cü illərdən özünün ən yüksək zirvəsinə çatması ixracın həcminin artmasına səbəb olmuşdur. 2009-cu ildən başlayaraq, ölkə üzrə ixracın həcmi azalsa da, 2015-ci ildə manatın məzənnəsinin 2 dəfəyə yaxın ucuzlaşması 2016-cı ildə ixracı stimullaşdırmış, eyni zamanda ÜDM xeyli azalmışdır.

Qeyri-neft sektorunun inkişafına və iqtisadi diversifikasiyaya əsaslanmaqla Azərbaycan 2020 inkişaf konsepsiyası 2020-ci ilədək Azərbaycanın qeyri-neft sektoru üzrə ixracın adambaşına 1000 ABŞ dollarına çatdırılması, ÜDM-in iki dəfədən çox artırılması ilə 13000 ABŞ dolları həcminə çatdırılması hədəflənmişdir. 11 sektorun inşkişaf yolunu müəyyən edən perspektivlər üzrə Strateji Yol Xəritəsi çərçivəsində qeyri-neft ixrac yönümlü müəyyən edilmiş hədəflərə daxildir: (a) "xarici şokların mənfi təsiri" nəticəsində yaranmış vəziyyətdən çıxmaq: sabitləşdirilmə, şaxələnmə və dünya iqtisadiyyatına inteqrasiya etməklə, rəqabət qabiliyyətinin artırılması ilə; (d) 2025-ci ilə qədər qeyri-neft sektoruna yönəldilmiş birbaşa xarici investisiyaların qeyri-neft ümumi daxili məhsulundakı payının 4%-ə çatdırılması hədəfi (hazırda bu rəqəm 2,627%-dir); (c) qeyri-neft sektoru üzrə ixracın 2015-ci ildəki adambaşına 170 ABŞ dollarından azı 450 ABŞ dollarına qaldırılması və (e) bu dövrdə Neft Fondundan büdcə köçürmələrinin 15% azaldılması, xüsusilə qeyri-neft ixracının şaxələndirilməsinin labüdlüyü vurğulanmışdır[1].

Mövcud karbohidrogen ixracına alternativ olaraq, qeyri-neft ixracının artırılmasına çoxsaylı beynəlxalq, regional, milli, makro və mikro, sosial-mədəni, siyasi-iqtisadi və s. kimi müxtəlif amillər təsir etdiyi aşkar görünür. Bu amillər ayrı-ayrı xüsusiyyətlərinə, təsir dairəsinin genişliyinə, ölçüləbilən olmasına və s. kimi əlamətlərinə görə fərqlənirlər. Amillər çoxluğunun geniş olması, eyni zamanda ixrac potensialının artırılması üçün qərar qəbul etmə prosesini də çətinləşdirir. Beləliklə, tədqiqat işində Azərbaycanın qeyri-neft ixracına dair iqtisasi siyasət, atılan addımlar, qeyri-neft ixracına dair göstəricilərin statistik təhlili, əmtəə axınlarının meylləri, quruluşu və dinamikası makroiqtisadi göstəricilər, dünya bazarlarının konyunkturası və s. təhlil edilmiş, təsir amilləri müəyyən edilərək, sistemləşdirilmişdir[2-7].

Tədqiqat işində ekspert qiymətləndirmə üsulu, qeyri-səlis çoxluqlar nəzəriyyəsi, ekonometrik təhlil üsullarından, eləcə də, MS Excel, Python (Spyder), eViews proqram paketlərin-

dən istifadə edilməklə seçilmiş amillər əsasında ölkə üzrə qeyri–neft ixracının qiymətləndirilməsinin üç faktorlu muliplikativ model qurulmuşdir.

Tədqiqata dair məlumatlar 2001-2021-ci illəri əhatə etməklə, OPEC, Dünya Bankı, UNSTAD Comtrade və İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda mövcud olan məlumat mənbələrindən əldə edilmişdir.

**2. Ədəbiyyat xülasəsi**

Mövcud elmi mənbələrin təhlilində qeyri-neft ixracına təsir amillərinin öyrənilməsi və qiymətləndiilməsinə dair vahid nəzəri əsaslar yoxdur, lakin bununla belə ənənəvi iqtisadi tədqiqatlarda müxtəlif təsir amillərinin tədqiqinə həsr olunmuş çox saylı elmi əsərlər vardır. Xarici elmi mənbələrin təhlilinə əsasən ixracın artırılması deyildikdə isə ölçülə bilən, keyfiyyət və kəmiyyət xüsusiyyətlərinin məcmusu başa düşülür.

Heç şübhəsiz beynəlxalq ticarət istər bazarların strukturlarına, istərsə də yerli şirkətlərin davranışlarına bilavasitə təsir göstərir, lakin ixracın artırılmasına təsir amillərinin müəssisələrin timsalında təhlilləri parçalanmış və şaxələnmiş formalarda rast gəlinmişdir. Sözügedən təhlilləri ümumiləşdirməyə çalışsaq, burada əksər tədqiqatlar əsasən (a) istehsal müəssisələri; (b) kiçik və orta sahibkarlıq müəssəsisələri; (c) bir sıra təhlillərdə məhz ixrac müəssisəsi analiz vahidi kimi tədqiq olunmuşdur; (d) ixracın artırılmasına dair təhlillərdə nəzarət və yenilənmə kimi dəyişənlərin istifadəsi; (e) yerli bazar xüsusiyyətləri daxil olmaqla, xarici mühit amillərinin modelə daxil edilməsi; eləcə də, (f) bazar yönümlülüyünün ixracın artırılmasının əsas istiqamətvericisi kimi baxılmışdır. Xidmət sektorlarını əhatə edən tədqiqatlara çox geniş yer verilməmiş, ayrı-ayrı sektorların, müəssisələrin timsalında ali təhsil, turizm, tibbi xidmətlərin ixracının artırılmasına təsir amillərinin təhlillərinə rast gəlinmişdir. Ümumilikdə isə tədqiq olunanlara daxil edilmiş olanlar: (a) İxrac marketinq strategiyası b) Müəssisənin xarakteristikası və səlahiyyəti üzrə (c) İdarəetmənin xüsusiyyəti üzrə (d) İxracın idarəolunması üçün dəstək üzrə (e) Sahənin xüsusiyyəti (f) Xarici bazarın xüsusiyyəti üzrə (g) Daxili bazarın xüsusiyyəti üzrə (j) İqtisadi aspektlər üzrə (e) Siyasi-hüquqi aspektlər üzrə (f) Sosial-mədəni aspektlər üzrə (n) Texniki aspektlər üzrə (m) Coğrafi-iqlim üzrə.

ÜTT-nin illik hesabatında[3] xarici ticarətə təsir edən iqtisadi amillər tədqiq edilmiş və (1) demoqrafik dəyişikliklər, (2) investisiya, (3) texnologiyalar, (4) enerji və digər təbii resurslar, (5) daşınma xərcləri və (6) institutlar aid edilmişdir. Ümumilikdə iqtisadi-statistik qiymətləndirmədə ixracın səmərəliliyinə təsir edən makroiqtisadi amillərə (göstəricilərə) (i) xarici sərmayə (dolayı və birbaşa xarici sərmayə); (ii) valyuta məzənnəsi (real və nominal məzənnə); (iii) faiz dərəcəsi (real və nominal faiz dərəcəsi); (iv) inflyasiya və (v) idxal aid edilir. Bu zaman ixracın səmərəliliyinin makroiqtisadi dəyişənlərdən asılılığının qiymətləndirilməsində ixrac asılı olmayan, idxal, inflyasiya, valyuta məzənnəsi, faiz dərəcəsi və xarici sərmayə isə xarici asılı dəyişənlər kimi götürülərək, ekonometrik qiymətləndirilmə aparılır.

Digər tərəfdən xüsusilə karbohidrogen ixracatçısı ölkələrin timsalında əhəmiyyətli amillərdən ən əsası isə dünya qiymətlərinin bu ölkələrin ixracatının həcminə təsiri ilə əlaqəli aydınlığa baxmayaraq, praktiki cəhətdən bu təsir olduqca mürəkkəb xarakter daşıyır. Bu istiqamətdə isə ən çox tədqiq olunanlar neft və digər ixrac olunan resurs mallarının qiymətləri kimi xarici amillərdir, məsələn, dünya ÜDM dinamikası və yaxud idxalçı ölkələrin iqtisadiyyatının artım tempinin bilavasitə təsiri və s. kimi. Məsələn, amillərin qeyri-neft ixracına çoxfaktorlu-reqresiya analizi ilə əhəmiyyətli təsirinə dair aparılan tədqiqat işində müəllif 4 amili müəyyən etmiş və qiymətləndirmə aparmışdır: (i) milli valyutanın ABŞ

dollarına nisbəti, artım tempi %-lə; (ii) neftin bir barelinin qiyməti, artım tempi %-lə; (iii) bütövlükdə iqtisadiyyatda əmək məhsuldarlığı indeksi, artım tempi %-lə; (iv) xarici ticarətdə mal və xidmətlərin orta qiymət indeksi, artım tempi %-lə[8]. Aparılan qiymətləndirmə nəticəsində neftin qiyməti valyuta məzənnəsinə təsir edir, ondan isə ixrac çox asılıdır, bu isə həmin ölkənin iqtisadiyyatının xarici valyutanın məzənnəsindən güclü şəkildə asılılığını göstərmiş olur. Digər bir tədqiqat işində real mübadilə məzənnəsinin qeyri-neft ixracına təsirinə tədqiqinə dair aparılan təhlildə qeyri-neft ixracının artırılmasına təsir amillərinin effektiv öyrənilməsi üçün onların (i) makro, (ii) mezo, (iii) mikro və (iv) institusional olmaqla, 4 qrupda təsnifləşdirilməsi məqsədə müvafiq hesab edilmişdir [9-10].

Nəhayət aparılan təhlillər və nəzəri əsaslar üzrə ümumiləşdirmə apardıqda: Qaydalar, normativ hüquqi çərçivə üzr); Keyfiyyət standartları üzrə; Ticarətə maneə olan prosedurlar üzrə; Tədqiqat, təhlil və məlumat üzrə; İxrac imkanları üzrə; Xarici bazarlara girişin asanlaşdırılması-ticarət sazişlərinin gücləndirilməsi üzrə; İstehsalın şaxələndirilməsi və təkmilləşdirilməsi üzrə; İnvestisyaların təşviqi üzrə; Xarici bazarlara giriş üzrə; Maliyyə aspektləri üzrə; İxracata hədəflənmiş daxili siyasət üzrə; Digər fəaliyyətlər üzrə.

### 3. Qeyri-neft ixracına təsir amillərin üstünlük dərəcələrinin qiymətləndirilməsi

Amillərin təsir dərəcəsinin müəyyən edilməsi üçün istifadə edilən ən mükəmməl üsullardan biri ekspertlərin iştirakı ilə amilləri təsir dərəcəsinə görə ranqlaşdırılmasıdır. Bu üsulun tətbiqi zamanı ekspert müqayisələrin formalaşması üçün lingvistik ifadələrlə qiymətləndirmə apara bilir. Yəni müqayisə zamanı, "bərabər təsir", "aşağı təsir", "orta təsir", yüksək təsir" və ya "bərabər üstünlük", "az üstünlük", "orta üstünlük", yüksək üstünlük" və ya "vacib", "az vacib", "orta vacib", "yüksək vacibdir" kimi linqvistik ifadələrindən istifadə edilir. Bu ifadələrin tətbiqi ekspert üçün müqayisəli qiymətləndirmə aparmaq üçün ekspert üçün müəyyən rahatlıq yaradır, lakin bu çoxmeyarlılığın yaratdığı qeyri–səlis şəraitdə, əlavə olaraq rəqəmlərin olmaması səbəbindən böyük çətinliklər yaranır.

Təhlil nəticəsində qeyri-neft ixracının dəyişməsinə təsir edən n sayda amillər çoxluğu verilir: $F = \{F_1, F_1, \ldots, F_n\}$. Amillər çoxmeyarlılığın yaratdığı qeyri-səlis şəraitdə ekspertlər tərəfindən Saati şkalası ilə cüt müqayisə əsasında seçilir. Şkala əsasında hər bir ekspert i amilinin j amilinə nisbətən üstünlük dərəcəsini qiymətləndirir. $F_i$amilinin $F_j$ amilinə nisbətən mühüm olduğunu göstərən qiymətləndirməni $a_{ij}$ilə işarə edək. j amilinin i amili ilə müqayisəsi zamanı tərs mütənasiblik prinsipi qəbul edilir, yəni $a_{ij} = {}^{1}/_{a_{ij}}$. Amillərin müqayisəsi əsasında qeyri–neft ixracının hər bir amili (izahedici amili) üçün $A$ matrisi qurulur.

$$A = \begin{bmatrix} 1 a_{12} \ldots a_{1n} \\ 1/a_{12}\ 1 \ldots a_{2n} \\ 1/a_{1n}\, 1/a_{2n} \ldots 1 \end{bmatrix}$$

$A$ matrisinin məxsusi vektorunun $V = (v_1, \ldots, v_n)$ müəyyən edilməsi üçün onun λ - məxsusi qiyməti aşağıdakı tənliyin həllindən tapılır: $AV = \lambda V$. Məxsusi qiymətlərin cəmi matrisin izinə (əsas diaqonalların qiymətlərinin cəmi) bərabərdir. Məqsəd – bir neçə məxsusi qiymət və vektorlardan maksimumunun seçilməsidir. Məxsusi qiymətin seçimi üçün $(A - \lambda I)$ matrisinin determinantının sıfra bərabər olması qaydası mövcuddur, yəni $det|A - \lambda I| = 0$, burada $I$- əsas diaqonal matrisidir. Bu şərtə uyğun gələn λ - maksimal qiyməti $A$ matrisinin maksimal məxsusi $\lambda_{\max}$ qiymətidir $(\lambda_{\max} \geq n)$. Sonra məxsusi vektor hesablanır: $AV = \lambda_{max} V$, burada $\sum_{i=1}^{n} v_i = 1$. Hesablanmış məxsusi vektorlarının$v_i, i = \overline{1, n}$ qiymətləri $F_i$ amilinin qeyri–neft ixracına təsir dərəcəsi kimi qəbul edilir: $\mu_u(F_i) = v_i, i = \overline{1, n}$.

Qeyd etmək lazımdır ki, maksimal məxsusi qiymətin - $\lambda_{max}$ $n$ - ədədindən çox fərqlənməsi A matrisinin elementlərinin qiymətləndirilməsində ekspertlərin mülahizələrində uyğunsuzluq olmasını göstərir və onlara yenidən baxılmasını zəruri edir. Digər tərəfdən, əgər $\lambda_{max}$ n-ə daha yaxın bir kəmiyyətdirsə, onda vahidə normalaşdırılmış V vektorunu amillərin təsir dərəcəsi kimi qəbul etmək olar. Müəyyən edilmiş məxsusi vektorlar maksimum qiymətlərinə görə nizamlanır və qeyri-neft sektorunun ixracına təsir göstərən amillərin üstünlük dərəcələri (vaciblik səviyyəsi) uyğun məxsusi vektorun müqayisəli böyüklük səviyyəsinə uyğun nizamlanır [11-18].

## 4. Təsir göstərən amillərin təsir dərəcələrinin qiymətləndirilməsinə dair nəticələrin təhlili.

Qeyri-neft ixracının artırılmasına təsir amillərinin üstünlük dərəcələrinin qiymətləndirilməsi məqsədilə mütəxəssislərlə müsahibələr aparılmış və ekspertliyə namizədlər seçilmişdir. Sorğu aparılması məqsədilə qeyri-neft ixracının artırımasına təsir amillərinin inkişaf tendensiyası və cari göstəriciləri haqqında məlumat verilmişdir. Aparılan müsabihələr zamanı bir çox təcrübəli mütəxəssislərin ekspertliyə hazır olmadıqları olmadığı məlum olmuşdur. Yaranmış vəziyyətdə amillərin sinfi təsnifatının verilməsi və daha sonradan onların üsütünlük dərəcələrinin qiymətləndirilməsində çətinlik yaratmışdır. Belə ki, bir sıra amillərin zaman sıralarının az olduğu məqamda elə bir şərait yaranmışdır ki, təsirləri, üstünlükləri qiymətləndirməsində çətinlik yaratmış, üstünlüklərin müəyyən edilməsi mümkün olmamışdır. Sorğuların keçirilməsi və nəticələrin emal olunması prosesi Ms Excel və Python (Spyder) proqram paketləri vasitəsilə həyata keçirilmişdir.

Birinci mərhələdə aparılmış təhlillər əsasında müəyyən edilmiş 60-dək amillər arasından birinci mərhələdə qiymətləndirmə aparması üçün ekpertə müsahibə əsasında tədqim olunmuş, onlardan prioritet təşkil edən 20 amil qiymətləndirmə üçün seçilmişdir (şəkil 1):Valyuta Məzənnəsi (ER), Faiz dərəcəsi (IR), İstehlakçı qiymətləri indeksi (CPI), İxrac Qiymət İndeksi (EPI), Tərəfdaş ölkələrdə ÜDM-in artımı (GDPP), Neftin Dünya bazar qiymətləri (WOP), Xarici Borc (FD), Əmək Məhsuldarlığı (LP), Əhali artımı (PG), Tərəfdaş ölkələrdə orta tarif dərəcəsi (TRP), İkitərəfli Güzəştli Ticarət Sazişləri (NTA), İxrac Təşviqi alan Müəssisələrin Sayı (NEP), Gömrük Brokerliyinin Təşkil Edilmə Səviyyəsi (LCB), Logistik Sistemin Vəziyyəti (SLS), Ölkənin Geopolitik Vəziyyəti (GPC), Diversifikasiya İndeksi (DX), Təmərküzləşmə İndeksi (ECI), İnfrastruktur Vəziyyəti (IC), Ticarətin Rəqəmsallaşdırılması Vəziyyəti (SDT), Xarici Bazarların Öyrənilmə Səviyyəsi (LFM).

**Şəkil 1.** 20 amilin Saati şkalası əsasında seçilməsi üzrə nəticələr

| | ER | IR | CPI | EPI | GDPP | WOP | FD | LP | PG | TRP | NTA | NEP | LCB | SLS | GPC | DX | ECI | IC | SDT | LFM |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **ER** | 1 | 4,13 | 4,75 | 5,88 | 6,50 | 3,25 | 6,88 | 6,25 | 7,13 | 6,00 | 6,88 | 6,88 | 5,88 | 6,75 | 6,50 | 7,25 | 5,75 | 4,50 | 4,38 | 5,50 |
| **IR** | 0,27 | 1 | 4,25 | 4,13 | 4,38 | 2,63 | 6,00 | 5,50 | 5,50 | 4,88 | 5,50 | 6,50 | 5,75 | 5,13 | 7,25 | 6,50 | 5,13 | 4,13 | 4,75 | 5,63 |
| **CPI** | 0,29 | 0,32 | 1 | 3,38 | 5,13 | 4,38 | 6,63 | 6,13 | 6,38 | 5,38 | 6,50 | 5,88 | 6,63 | 6,13 | 6,38 | 6,25 | 5,63 | 4,50 | 5,63 | 4,00 |
| **EPI** | 0,19 | 0,26 | 0,37 | 1 | 5,38 | 3,63 | 4,38 | 6,88 | 6,50 | 5,50 | 7,00 | 6,25 | 6,63 | 6,38 | 6,88 | 6,75 | 6,38 | 4,50 | 4,63 | 5,38 |
| **GDPP** | 0,16 | 0,25 | 0,21 | 0,22 | 1 | 3,63 | 4,00 | 3,25 | 4,25 | 4,63 | 5,50 | 6,13 | 5,63 | 6,50 | 6,75 | 6,25 | 5,63 | 4,75 | 5,50 | 5,13 |
| **WOP** | 0,33 | 0,42 | 0,28 | 0,34 | 0,31 | 1 | 6,13 | 6,00 | 5,63 | 4,88 | 6,25 | 5,50 | 7,13 | 7,13 | 6,75 | 6,13 | 5,25 | 5,25 | 4,88 | 5,75 |
| **FD** | 0,15 | 0,17 | 0,17 | 0,24 | 0,27 | 0,17 | 1 | 4,50 | 3,38 | 2,88 | 5,25 | 5,38 | 4,88 | 5,25 | 6,50 | 5,75 | 5,38 | 5,25 | 5,00 | 4,13 |
| **LP** | 0,18 | 0,19 | 0,17 | 0,16 | 0,31 | 0,17 | 0,26 | 1 | 6,13 | 5,88 | 5,38 | 5,25 | 6,50 | 4,13 | 6,88 | 6,13 | 5,88 | 4,63 | 5,75 | 6,38 |
| **PG** | 0,18 | 0,22 | 0,17 | 0,20 | 0,27 | 0,20 | 0,32 | 0,20 | 1 | 5,88 | 6,00 | 5,88 | 6,75 | 6,38 | 6,25 | 5,63 | 5,50 | 4,75 | 5,25 | 6,88 |
| **TRP** | 0,18 | 0,25 | 0,26 | 0,19 | 0,25 | 0,24 | 0,35 | 0,25 | 0,24 | 1 | 6,38 | 5,63 | 4,88 | 4,88 | 4,63 | 4,63 | 6,25 | 3,88 | 4,00 | 5,63 |
| **NTA** | 0,20 | 0,22 | 0,20 | 0,18 | 0,19 | 0,21 | 0,23 | 0,25 | 0,24 | 0,19 | 1 | 6,75 | 5,00 | 5,00 | 4,88 | 5,00 | 5,88 | 4,13 | 4,75 | 5,75 |
| **NEP** | 0,16 | 0,19 | 0,19 | 0,18 | 0,19 | 0,21 | 0,22 | 0,23 | 0,22 | 0,21 | 0,16 | 1 | 4,88 | 4,13 | 4,63 | 6,38 | 5,00 | 3,13 | 4,75 | 6,63 |
| **LCB** | 0,23 | 0,24 | 0,22 | 0,19 | 0,22 | 0,18 | 0,24 | 0,22 | 0,19 | 0,23 | 0,22 | 0,26 | 1 | 3,75 | 5,13 | 4,63 | 2,88 | 2,88 | 2,63 | 5,13 |
| **SLS** | 0,20 | 0,23 | 0,20 | 0,20 | 0,16 | 0,15 | 0,23 | 0,28 | 0,21 | 0,27 | 0,24 | 0,35 | 0,13 | 1 | 5,25 | 5,00 | 5,63 | 3,88 | 4,13 | 6,00 |
| **GPC** | 0,20 | 0,18 | 0,18 | 0,18 | 0,17 | 0,17 | 0,17 | 0,20 | 0,18 | 0,25 | 0,22 | 0,25 | 0,24 | 0,22 | 1 | 4,63 | 6,75 | 5,63 | 4,75 | 4,38 |
| **DX** | 0,16 | 0,19 | 0,18 | 0,17 | 0,19 | 0,21 | 0,19 | 0,21 | 0,21 | 0,26 | 0,23 | 0,19 | 0,25 | 0,22 | 0,25 | 1 | 6,00 | 3,63 | 5,13 | 7,25 |
| **ECI** | 0,19 | 0,21 | 0,20 | 0,17 | 0,20 | 0,20 | 0,19 | 0,20 | 0,25 | 0,17 | 0,19 | 0,26 | 0,39 | 0,23 | 0,19 | 0,20 | 1 | 5,25 | 3,63 | 4,88 |
| **IC** | 0,26 | 0,27 | 0,24 | 0,23 | 0,23 | 0,23 | 0,19 | 0,24 | 0,24 | 0,30 | 0,27 | 0,38 | 0,39 | 0,33 | 0,21 | 0,33 | 0,26 | 1 | 3,25 | 3,88 |
| **SDT** | 0,26 | 0,22 | 0,19 | 0,27 | 0,18 | 0,22 | 0,21 | 0,21 | 0,22 | 0,27 | 0,22 | 0,24 | 0,59 | 0,28 | 0,24 | 0,22 | 0,34 | 0,37 | 1 | 3,75 |
| **LFM** | 0,23 | 0,21 | 0,27 | 0,21 | 0,21 | 0,18 | 0,27 | 0,19 | 0,16 | 0,19 | 0,19 | 0,19 | 0,23 | 0,18 | 0,29 | 0,16 | 0,24 | 0,29 | 0,34 | 1 |

***Mənbə:*** *Müəllif tərəfindən tərtib olunmuşdur.*

Daha sonra ikinci mərhələdə hər bir ekspert üzrə MS Excel proqramında emal edilən matrislərə əsasən matrisin məxsusi ədəd və məxsusi vektorların tapılması Python (Spyder) proqram təminatından istifadə edilməklə qiymətləndirilmişdir. Matrisin məxsusi ədədləri aşağıdakı kimi həqiqi və kompleks ədədlər olaraq hesablanmışdır. Bu proqram təminatı istifadədə sadə olmaqla ekspert rəylərinin rahat bir şəkildə qiymətləndirilməsinə imkan verir (Şəkil 2).

**Şəkil 2.** Nəticələrin Python (Spyder) proqram paketində email




***Mənbə:*** *Müəllif tərəfindən tərtib olunmuşdur.*

Matrisin maksimal məxsusi qiyməti $\lambda_{max}$ = 20-dən yuxarı nəticə alınmışdır. $n$ = 20 olduğundan matrisin maksimal məxsusi qiyməti matrisin ölçüsündən böyük olmuşdur. Göründüyü kimi məxsusi qiymətlər matrisin ölçüsünə yaxın bir kəmiyyətdir və maksimal matrisin məxsusi qiymətinə uyğun məxsusi amillərin təsir üstünlüyü kimi qəbul etmək olar. Lakin alınan nəticələrə əsasən nisbi üstünlüyün müəyyən edilməsi çətinlik yaratmış (qeyri-müəyyən şərait yaratmış), amillərə prioritet üstünlük verilə bilməmişdir. Belə ki, təhlil göstərmişdir ki, ekspertlər işlərində səriştəli olsalar da amillərin seçilməsinə ilk yarısında nisbətən diqqətlə yanaşmış, sonradan onların üstünlüklərinin qiymətləndirilməsi qeyri-ciddi xarakter almışdır. Bu halın aradan qaldırılması, ekspertlərin qiymətləndirməsi üçün amillərin prioritetləşdirilməsi məqsədilə peşəkar ekspertlərlə müsahibə əsasında təkrar sorğu aparılmış, 10 amil seçilmişdir: İxrac Qiymət İndeksi, Tərəfdaş ölkələrdə ÜDM-in artımı, Neftin Dünya bazar qiymətləri, Əhali artımı, Tərəfdaş ölkələrdə orta tarif dərəcəsi, İkitərəfli Güzəştli Ticarət Sazişləri, İnfrastruktur Vəziyyəti (investisiyalar), İxrac Təşviqi alan Müəssisələrin Sayı, Qeyri-neft sektoruna qoyulan birbaşa xarici investisiyalar və Beynəlxalq yük daşımaları.

İlkin mərhələdə olduğu kimi qiymətləndirilmə aparılmış, hesabalanmış məxsusi qiymətlər müqaysəli şəkildə təqdim cədvəldə verilmişdir (cədvəl 1):

**Cədvəl 1.** 20 və 10 ölçülü matrislərin məxsusi qiymətləri

| **20 amil üçün** | | | | **10 amil üçün** | | | |
|---|---|---|---|---|---|---|---|
| $\lambda_{max}$ | n | $\lambda_{max}$ - n | | $\lambda_{max}$ | n | $\lambda_{max}$ - n | |
| **28,88** | 20 | 8,88 | 31% | 12,59 | 10 | 2,59 | 21% |
| **30,14** | 20 | 10,14 | 34% | 12,15 | 10 | 2,15 | 18% |
| **26,25** | 20 | 6,25 | 24% | 13,32 | 10 | 3,32 | 25% |
| **28,85** | 20 | 8,85 | 31% | 12,30 | 10 | 2,30 | 19% |
| **31,33** | 20 | 11,33 | 36% | 11,94 | 10 | 1,94 | 16% |
| **23,98** | 20 | 3,98 | 17% | 11,92 | 10 | 1,92 | 16% |
| **29,20** | 20 | 9,20 | 32% | 11,99 | 10 | 1,99 | 17% |
| **31,73** | 20 | 11,73 | 37% | 12,04 | 10 | 2,04 | 17% |

***Mənbə:*** *Müəllif tərəfindən tərtib olunmuşdur.*

Nəhayət, təsir amillərinin üstünlük dərəcələrinə görə prioritetləşdirilməsi nəticəsində ixracın artırılmasına ən yüksək təsir üstünlüyünə malik 3 amil müəyyən edilmişdir:

1. Neftin Dünya bazar qiymətləri (0,68);

2. Tərəfdaş ölkələrdə ÜDM-in artımı (0,66)

3. İxrac Qiymət İndeksi (0,64).

**5. Təklif edilən metodologiya və məlumat bazası**

Xarici ticarətin təşkili və proqnozlaşdırılması üzrə həm ixrac, həmdə idxalın dəyiməsini xarakterizə edən amillər əsasında müəyyən edən ənənəvi yanaşmalar mövcuddur. Ənənəvi yanaşmaların tətbiqi ümumi təhlil üçün əhəmiyyətli olsa da, yaranmış mövcud şərait, ölkə iqtisadiyyatının sürətli dəyişməyə məruz qalması, texnoloji həllərin mövcudluğu iqtisadinəzəriyyənin ümumi prinsipləri əsas götürülməklə qeyri ənənəvi alternativ üsulların tətbiqinin mühüm əhəmiyyəti vardır.

Odur ki, Azərbaycanda qeyri–neft ixracının artrılmasının əsas hədəfi iqtisadi nəzəriyyənin tələbləri baxımından yeni alternativ proqnoz modelinin verilməsidir. Bu məqsədlə, yeni yanaşma əsasında seçilmiş üç amil: ixrac qiymət indeksi, tərəfdaş ölkələrdə ÜDM artımı və neftin dünya bazar qiyməti əsasında yeni proqnoz üsulunun işlənməsi vacibdir. Belə ki, yeni metodologiya əsasında seçilmiş ixrac qiymət indeksi, tərəfdaş ölkələrdə ÜDM artımı və neftin dünya bazar qiyməti amillərinin qeyri-neft ixracına təsiri qiymətləndirilir. Qiymətləndirmələr ardıcıl olaraq ayrılıqda və qrup şəklində seçilmiş üç amilin təsirləri öyrənilir. Beləliklə ümumi iqtisadi nəzəriyyənin tələbləri baxımından qeyri–neft ixracının seçilmiş izahedici amillər əsasında mültiplikativ funksiya kimi axtarılır.

Ekonometrik təhlillər ayrı–ayrılıqda aşkar şəkildə texnoloji tərəqqinin təsiri nəzərə alınmır və aşkar şəkildə texnoloji tərəqqinin təsiri nəzərə alınmaqla aparılır:

1. Aşkar şəkildə texnoloji tərəqinin təsirləri nəzərə alınmadan:

$$noil_ex = a \cdot exp_in^{\alpha} \cdot oil_pr^{\beta} \cdot pgdp^{\gamma} \quad (1)$$

və ya loqarifmik formada

$$log(noil_ex) = c + \alpha \cdot exp_in + \beta \cdot oil_pr, c = log(a) \quad (2)$$

2. Aşkar şəkildə texnoloji tərəqinin təsirləri nəzərə alınmaqla:

$$noil_ex = a \cdot exp_in^{\alpha} \cdot oil_pr^{\beta} \cdot pgdp^{\gamma} \cdot exp(\lambda \cdot t) \quad (3)$$

və ya loqarifmik formada

$$log(noil_ex) = c + \alpha \cdot exp_in + \beta \cdot oil_pr + \gamma \cdot pgdp + \lambda \cdot t \quad (4)$$

Burada, $exp_in$ - ixrac qiymət indeksi, $oil_pr$ - neftin dünya bazar qiyməti, $pgdp$ - tərəfdaş ölkələr üzrə ÜDM – in həcmidir (artımıdır).

Təhlillər göstərir ki, ixrac üzrə tərəfdaş ölkələr kimi, ixracda ən çox paya malik əsas tərəfdaş ölkələr Rusiya, Türkiyə, İtaliya, İsveçrə, Gürcüstan və Çindir.

Buradan $pgdp = \{ru_gdp, tr_gdp, ge_gdp, sw_gdp, it_gdp, ch_gdp\}$

Odur ki, hesablamalarda ayrı-ayrılıqda qeyri–neft ixracında əsas payı olan dövlətlər: Rusiya, Türkiyə, İtaliya, İsveçrə, Gürcüstan, İtaliyanın və Çinin ÜDM-i götürülmüşdür. Qeyd olunan izahedici dəyişənlər üzrə məlumat bazası verilmişdir (cədvəl 2).

**Cədvəl 2.** Dəyişənlər üzrə məlumatlar, 2001-2020-cu illər

| T | noil_ex | exp_id | oil_pr | ru_gdp | tr_gdp | ge_gdp | sw_gdp | it_gdp | ch_gdp |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2001 | 188 | 48 | 23 | 307 | 202 | 3 | 279 | 1167 | 1339 |
| 2002 | 221 | 49 | 24 | 345 | 240 | 3 | 301 | 1271 | 1471 |
| 2003 | 358 | 53 | 28 | 430 | 315 | 4 | 353 | 1574 | 1660 |
| 2004 | 624 | 58 | 36 | 591 | 409 | 5 | 394 | 1803 | 1955 |
| 2005 | 1005 | 66 | 51 | 764 | 506 | 6 | 409 | 1858 | 2286 |
| 2006 | 933 | 74 | 61 | 990 | 557 | 8 | 431 | 1948 | 2752 |
| 2007 | 1094 | 86 | 69 | 1300 | 681 | 10 | 480 | 2210 | 3550 |
| 2008 | 1389 | 106 | 94 | 1661 | 770 | 13 | 554 | 2399 | 4594 |
| 2009 | 1046 | 104 | 61 | 1223 | 649 | 11 | 542 | 2191 | 5102 |
| 2010 | 1235 | 104 | 77 | 1525 | 777 | 12 | 584 | 2134 | 6087 |
| 2011 | 1464 | 103 | 107 | 2046 | 839 | 15 | 700 | 2292 | 7552 |
| 2012 | 1590 | 102 | 109 | 2208 | 881 | 16 | 668 | 2087 | 8532 |
| 2013 | 1563 | 102 | 106 | 2292 | 958 | 17 | 689 | 2141 | 9570 |
| 2014 | 1457 | 100 | 96 | 2059 | 939 | 18 | 709 | 2159 | 10476 |
| 2015 | 1328 | 101 | 49 | 1363 | 864 | 15 | 680 | 1836 | 11062 |
| 2016 | 1183 | 103 | 41 | 1277 | 870 | 15 | 671 | 1876 | 11233 |
| 2017 | 1451 | 102 | 53 | 1574 | 859 | 16 | 680 | 1962 | 12310 |
| 2018 | 1599 | 103 | 70 | 1670 | 778 | 18 | 705 | 2092 | 13895 |
| 2019 | 1833 | 104 | 64 | 1700 | 761 | 17 | 703 | 2004 | 14280 |
| 2020 | 1759 | 106 | 41 | 1484 | 720 | 16 | 748 | 1886 | 14723 |

*Mənbə: Müəllif tərəfindən tərtib olunmuşdur.*

Qısamüddətli proqnoz modellərinin qurulması və iqtisadiyyatın qısamüddətli monitorinqi etibarlı aylıq və rüblük məlimatların olmasını tələb edir. Aydındır ki, belə məlumatların əldə edilməsi praktiki olaraq mümkün deyildir. Odur ki, proqnoz modelinin qurulmasında göründüyü kimi illik məlumatlardan istifadə edilir ki, baxılan proqnoz modeli daha çox ortamüddətli proseslərin izah olunmasına imkan verir.

## 5. Modeldəki dəyişənlərin statistik xüsusiyyətləri

Ekonometrik təhlil və proqnoz modelinin etibarlılığının təmin olunması üçün modellərdə iştirak edən göstəricilərə müvafiq zaman sıralarının statistik xüsusiyyətlərinin öyrənmək zəruridir. Təqdim edilən tədqiqat işində modeldə iştirak edən bütün göstəricilərin statistik xüsusiyyətləri öyrənilmiş və modelin etibarlı qurulması üçün müvafiq analitik səriştələr tətbiq edilmişdir.

Statistik xüsusiyyətləri qeyri-neft ixracı (nonoil_ex) timsalında verək (Şəkil 3).

**Şəkil 3.** Qeyri-neft ixracının (nonoil_ex) statistik xüsusiyyətləri




*Mənbə: Müəllif tərəfindən tərtib olunmuşdur.*

Burada, 2001-2019-ci illərdə real qeyri–neft ixracı ardıcıl artması qrafikdən aydın şəkildə görünür. Qeyri–neft ixracının histogramı bu dəyişmənin təhlili üçün bir sıra statistik xarakteristikaları verir. 2001-2019-ci illər üçün real qeyri–neft ixracının orta səviyyəsi 1134.88, median eyni dövr üçün 1235.15, 2019-cu ildə maksimum 1833.02, 2001-ci ildə minimum 187.61 təşkil edir.

Real qeyri–neft ixracının səviyyəsindəki dəyişiklik 482.07 standart sapma ilə əhəmiyyətlidir və paylanmasının əyilmə əmsalı -0.76 və pik kəskinliy əmsalı 2,53-ə bərabərdir. Jarque-Bera və bununla bağlı statistika real qeyri–neft ixracının paylanmasının normal paylanmadan statistik olaraq fərqli olmadığını göstərir.

Model seçimi prosesində dəyişənlərin stasionarlığına əmin olmaq və zaman sıralarında mövsümi dəyişkənliklərin olmasını müəyyənləşdirmək üçün avtokorrelyasiya (AC) və qismən avtokorrelyasiya (PAC) funksiyalarından istifadə etmək vacibdir. Bununla zaman sırasının təhlilində bu xüsusiyyətlərin müəyyən olunması Box-Jenkins üsulunun tətbiqi ilə həyata keçirilir ki, bu da ARMA və ARIMA modelləri tətbiqini şərtləndirir. Odur ki, avtokorrelyasiya və qismən avtokorrelyasiya funksiyalarının Box-Jenkins üsulu çərçivəsində baxılan zaman sırasının təhlili müçün istifadə edilməsi qərar vermək baxımından faydalıdır.

Qrafikdə qeyri-neft ixracı üçün birinci dərəcəli avtokorrelyasiya və qismən avtokorrelyasiya funksiyalarının dəyişməsi göstərilmişdir. Göründüyü kimi həm avtokorrelyasiya, həm də qismən avtokorrelyasiya 12-dək bütün gecikmələr üçün nisbətən azdır. Burada mütləq vurğulamaq yerinə düşər ki, müşahidələrin sayı nisbətən azdır (n=19). Aydındır ki, belə statistikaların təhlili çox sayda müşahidəni tələb edən asimptotik paylamalara əsaslanır.

Onu da qeyd etmək zəruridir ki, müstəqilliyin ilk illərində qeyri–neft ixraçının kəskin azalması ilə müşahidə olunurdu. Demək olar ki, qeyri–neft ixracının formalaşmağa başlanılması 2000-ci illərin əvvəllərində başladığından məhz məlumatlarda 2001-ci ildən verilmişdir. Eyni zamanda bütün mənbəələrdə 2000-ci ilin baza götürməklə qeyri-neft ixracı məlumatlarının zaman sırasının daha etibarlı olması qeyd edilir. Habelə, qeyri-neft ixracının artma tempində də tam monotonluğu görmək çətindir. Bu isə ölkəmizdə aparılan struktur dəyişikliyi və innovativ yüksək texnologiyalara əsaslanan sənaye reformalarının başlanması və ardıcıl davam etməsi ilə şərtlənir. Model quruculuğunda bu istiqamətdə əlavə araşdırmaların aparılması daha məqsədə müvafiq olardı. Lakin zaman sıralarının təhlilində alınan nəticələ ilkin olaraq müvafiq modellərin qurulmasında ilkin olaraq əhəmiyyətli olmasını göstərir.

Vahid kök testləri (Unit root tests) zaman sıralarının stasionar olub–olmamasını müəyyənləşdirməyə kömək edir. Hesablamalar real qeyri–neft ixracı üçün testlər birinci və ikinci fərqlərlə Dickey-Fuller testləri əsasında aparılmışdır. Real qeyri–neft ixracı üçün 0–fərqlə aparılmış testlərə görə vahid kökün sıfır fərziyyəsi beş faiz səviyyəsində rədd edilmir (t = -1.49, Prob = 0.52). Real qeyri–neft ixracı üçün 1-ci fərlə aparılmış testlərə görə vahid kökünün olması barədə sıfır fərziyyə beş faiz səviyyəsində rədd edilə bilməz (t = -3.88, Prob = 0.01). Real qeyri–neft ixracı üçün 2-ci fərlə aparılmış testlərə görə vahid kökün sıfır fərziyyəsi, %1 əhəmiyyətlilik səviyyəsində də rədd edilir (t =-4.89, Prob = 0.0018). Həm korrelogram, həm də vahid kök testləri Real qeyri–neft ixracının 2-ci tərtib fərqlərindən istifadəni daha minasib olduğunu göstərir.

**6. Ekonometrik qiymətləndirmələr**

Aparılan ilkin statistik təhlillər ortamüddətli dövrdə ekonometrik modelin qurulmasına şəraitin olduğunu göstərmişdir. Odur ki, ixrac qiymət indeksi, neftin dünya bazar qiyməti və

tərəfdaş ölkələr kimi Rusiya, Türkiyə, İtaliya, İsveçrə, Gürcüstan və Çinin ÜDM–lərinin qeyri-neft ixracına təsirinin iqtisadi əhəmiyyətliliyi qiymətləndirilmişdir. Qeyd olunduğu kimi, göstəricilər arasında əlaqənin qurulması onların loqarifmləri əsasında aparılır. Eviews 9.0 proqram paketində göstəricilərin loqarifmləri arasında ortamüddətli əalqələrin ekonometrik təhlili aparılmışdır. Qiymətləndirmənin nəticələri zəruri statistik parametrlər əsasında cədvəl formasında hər bir tərəfdaş ölkə üzrə cədvəldə verilmişdir. Cədvəldə izahedici dəyişənlərin qiymətləndirilmiş əmsalları və ona uyğun ehtimalları, R-squared, Durbin-Watson statistikası hər bir ölkə üçün ayrılıqda verilmişdir. Yəni ekonometrik model və onun zəruri xarakteristikaları verilmişdir (Cədvəl 3).

**Cədvəl 3.** Ekometrik qiymətləndirmənin nəticələri

| | **Türkiyə** | | **Rusiya** | |
|---|---|---|---|---|
| **LOG(EXP_IN)** | -0.099416 | -0.121202 | -0.053187 | -0.046930 |
| **LOG(OIL_PR)** | 0.190858 | 0.299233 | -0.322132 | -0.286491 |
| **LOG(TR_GDP)** | 1.321306 | 1.091725 | 1.301076 | 1.255149 |
| **T** | | 0.015854 | | 0.002084 |
| **C** | -1.799789 | -32.49886 | -0.661048 | -4.707320 |
| **R-squared** | 0.946023 | 0.949990 | 0.923133 | 0.923154 |
| **Durbin-Watson** | 0.646696 | 0.665402 | 0.682365 | 0.677591 |
| | **Çin** | | **İtaliya** | |
| **LOG(EXP_IN)** | 0.245628 | 0.455399 | 0.542605 | -0.078650 |
| **LOG(OIL_PR)** | 0.562409 | 0.864891 | 0.058542 | 0.208605 |
| **LOG(CH_GDP)** | 0.344284 | -1.268950 | 1.753643 | 2.033988 |
| **T** | | 0.204608 | | 0.054112 |
| **C** | 0.191108 | -399.7435 | -9.842148 | -117.6378 |
| **R-squared** | 0.893280 | 0.935131 | 0.880661 | 0.962797 |
| **Durbin-Watson** | 0.594527 | 0.973814 | 0.597919 | 1.738255 |
| | **İsveçrə** | | **Gürcüstan** | |
| **LOG(EXP_IN)** | 0.184651 | 0.184832 | -0.013892 | -0.019806 |
| **LOG(OIL_PR)** | 0.382572 | 0.518704 | 0.337494 | 0.328218 |
| **LOG(SW_GDP)** | 1.240387 | 0.643222 | 0.849667 | 0.873928 |
| **T** | | 0.025707 | | -0.001503 |
| **C** | -3.554521 | -52.03086 | 3.616309 | 6.653796 |
| **R-squared** | 0.910121 | 0.912875 | 0.914920 | 0.914924 |
| **Durbin-Watson** | 0.604305 | 0.625664 | 0.635999 | 0.635636 |

***Mənbə:*** *Müəllif tərəfindən tərtib olunmuşdur.*

Qeyd etmək zəruridir ki, hazırda qeyri–neft ixracına təsir göstərən əsas amillərdən biri də mövcud şəraitdə yüksək texnologiyaların tətbiqinin yaratdığı şəraitdir. Bunu texnoloji tərəqqi adı ilə bildirsək, bu göstəricinin təsiri müxtəlif ölkələr üçün fərqli olduğunu düşünmək olar. Əlbətdə ki, bu tərəfdaş ölkələrin özünün də texnoloji tərəqqi ilə silahlanma səviyyəsindən də yüksək səviyyədə asılıdır. Odur ki, ekonometrik qiymətləndirmələr iki vaiantda, bilavasitə texnoloji tərəqqinin təsirini nəzərə almamaq və almaqla həyata keçirilmişdir. Texnoloji tərəqqinin təsiri $exp(\lambda \cdot t)$ həddi vasitəsi ilə nəzərə alınır.

## 7. Nəticə

Heç şübhəsiz Azərbaycanda ixracın artırılmasına təsir göstərən müəyyən edilmiş amillər küllisində hər bir amilin qeyri-neft ixracına təsir dərəcəsi müxtəlifdir və hər bir amilin vacib-

lik dərəcələrinin qiymətləndirilməsi prosesi çox amilli qeyri-səlis şərait yaradır ki, burada da amillərin bir–biri ilə müqayisəsi qeyri-səlis məntiq əsasında aparılmışdır. Qeyri–səlis məntiq əsasında qeyri–neft ixracına təsir göstərən amillərin vaciblik dərəcələrinin qiymətləndirilməsi və üstünlük dərəcələrinə görə ranqlaşdırılmsı üçün metodooloji yanaşma verilmişdir.

Təklif edilmiş qeyri-səlis yanaşma əsasında ekspertlər tərəfindən ilkin qiymətləndirmələr nəticəsində zaman sırasına malik 10 amilin üstünlük dərəcələrinin qiymətləndirilməsi aparılmış: İxrac Qiymət İndeksi, Tərəfdaş ölkələrin ÜDM, Neftin dünya bazar qiyməti, Əhalinin artımı, Tərəfdaş ölkələrdə orta tarif dərəcələri, İkitərəfli (Azad) Ticarət Sazişləri, İnfrastrukturun vəziyyəti (investisiya), İxrac təşviqi alan müəssisələrin sayı, Qeyri neft sektoruna qoyulan birbaşa xarici investisiyalar, Beynəlxalq yük daşınmaları. Bu amillər vaciblik dərəcələrinə görə ranqlaşdırılmışdır: 1. Neftin Dünya bazar qiymətləri (0,68), 2. Tərəfdaş ölkələrdə ÜDM-in artımı (0,66) və 3. İxrac Qiymət İndeksi (0,64).

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLARIN SİYAHISI**


1. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 dekabr 2016-cı il, http://www.e-qanun.az/framework/34254.
2. J.E.Stiglitz. *The Price of Inequality How Today's Divided Society Endangers our Future*, Sustainable Humanity, Sustainable Nature: Our Responsibility, 2012, http://www.pas.va/content/dam/accademia/pdf/es41/es41-stiglitz.pdf.
3. D.Haglund. *Blessing or curse? The rise of mineral dependence among low- and middle-income countries (web-version),* Oxford Policy Management, December, 2011, https://eiti.org/files/documents/2011-12-19-OPM-Blessing-or-curse.pdf.
4. F.J. Hasanov, "The Impact of Real Effective Exchange Rate on the Non-oil Export: The Case of Azerbaijan," Forthcoming in: Economic Journal of Economic Cooperation Organization, No. 2, Issue, 2010, pp. 19.
5. World Trade Report, "Factors shaping the future of world trade,", WTO, 2013, pp. 340.
6. S.Samen, "A Primer on Export Diversification: Key Concepts, Theoretical Underpinnings And Empirical Evidence, Growth and Crisis," Unit World Bank Institute, May, 2010, pp. 23.
7. Ali, Alwang and Siegel, "Is export Diversification the best way to achieve export growth and Stability? A look at three African Countries," World Bank Working Papers, No. 729, 1991, pp. 49.
8. Бирюкова, М. В. Статистический анализ экспорта товаров и услуг РФ / М. В. Бирюкова. — Текст : непосредственный // Актуальные вопросы экономики и управления : материалы V Междунар. науч. конф. (г. Москва, июнь 2017 г.). — Москва : Буки-Веди, 2017. — С. 158-160.
9. F.Həsənov, "Qeyri-neftsektorununixracınınmövcudvəziyyətininqiymətləndirilməsivəpotensialınınyüksəldilməsiproblemləri" layihə, AzərbaycanRespublikasıİqtisadiİnkişafNazirliyininİqtisadiİslahatlarElmi-Tədqiqatİnstitutu, Bakı, 2010
10. N.F.İsmayılova, "Azərbaycanınqeyri-neftsektorunixracınatəsiredəndigər (hüquqi, institutsional, mikrosəviyyəli) amillər", AzərbaycanRespublikasıİqtisadiİnkişafNazirliyiİqtisadiİslahatlarElmi-Tədqiqatİnstitutu, "Azərbaycandaiqtisadiislahatlarınhəyatakeçirilməsixüsusiyyətlərivəproblemləri" Elmiəsərlərtoplusu, X buraxılış, Bakı, 2010, səh. 115-125.
11. Заде Л.А. Основы нового подхода к анализу сложных систем и процессов принятия решений // Математика сегодня, М.: Знание, 1974, с.5-49
12. Заде Л.А. Понятие лингвистической переменной и его применение к принятию приближенных решений. М.: Мир, 1976, 165 с.
13. Борисов А.Н., Крумберг О.А., Федоров И.П. Принятие решений на основе нечетких моделей. Примерыиспользования. Рига.: Зинатне, 1990, 184 с.
14. Валиев В.М. Принятие решений в процессе освоения углеводородных ресурсов в условиях неопределенности и риска. Баку.: Нафта-Пресс, 2004, 251 с.

15. İmanov Q.C., Tağıyev N.F., Məmmədov F.C. Müasiriqtisadiyyat, neyronşəbəkələri, fazimәntiq. Bakı, Elm, 2003, 200 s.
16. Литвак Б.Г. Экспертные оценки и принятие решений. М.: Патент, 1996, 271 с.
17. Саати Т.Л., Кернс К. Аналитическое планирование. Организация систем. М.: Радио и связь, 1991, 224 с.
18. Саати Т.Л. Принятие решений. Метод анализа иерархий. М.: Радио и связь, 1993, 315 с.

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2020. Volume 4, Number 2* *Pages 133-139*

*UOT:338.43*

# AZƏRBAYCANDA AQRAR KOOPERATIVLƏŞMƏNİN İNKİŞAFINA TƏSİR EDƏN ƏSAS AMİLLƏRİN TƏHLİLİ

**QARAYEV NURLAN**
Bakı Mühəndislik Universitet
*nqarayev2std@beu.edu.az*
Bakı, Azərbaycan

**XÜLASƏ**

Aqrar sektorda mühüm yerə malik kooperativçilik mülkiyyət forması dünya ölkələrində və ölkəmizdə tətbiq olunmaqdadır.Təbi iki, kooperativləşmə prosesi müxtəlif amillərin, dəyişənlərin təsiri altında baş verir.Bu amillərin təsnifi və əsas istiqamətləri ətraflı formatda məqalədə qeyd olunacaqdır. Hər bir ölkədə aqrar kooperativlərin inkişafına təsir göstərən ümumi və spesifik amillər vardır. Ümumi amillərə hər dövlətdə baş verməsi mümkün olan məhsuldarlıq, səmərəliliyin təmin olunması kimi dəyişənləri nümunə göstərə bilərik. Lakin, biz bu tədqiqatda əsasən, spesifik amillərə diqqət yetirəcəyik. Azərbaycanda aqrar kooperativləşməyə təsir edən amillərin miqyasını, təsir gücünü və inkişafı təmin edəcək həll yolları axtarılacaqdır. Bu təsirlərini gücünü minimallaşdırmaq fermerlərə edilə biləcək dəstəyin formaları da təyin ediləcək. Məqalənin sonunda ümumiləşdirmə aparılaraq qarşısını almaq üçün lazım olan tədbirlər təklif kimi veriləcəkdir.

**Açar sözlər:** Aqrar kooperativçilik, Kooperativlər, Aqrar sahə.

## ANALYSIS OF THE MAIN FACTORS AFFECTING THE DEVELOPMENT OF AGRICULTURAL COOPERATION IN AZERBAIJAN

**ABSTRACT**

Cooperative form of ownership, which has an important place in the agricultural sector, is used in countries around the world and in our country. Of course, the process of cooperation takes place under the influence of various factors and variables. The classification and main directions of these factors will be described in detail in the article. There are general and specific factors influencing the development of agrarian cooperatives in each country. Examples of common factors are the variables that can occur in any country, such as productivity and efficiency. However, we will focus on specific factors in this study. Solutions will be sought to ensure the scale, impact and development of the factors affecting agrarian cooperation in Azerbaijan. The forms of support that can be given to farmers to minimize the power of these effects will also be determined. At the end of the article, a general review will be made and the necessary measures to prevent it will be suggested.

**Key words:** Agrarian cooperative, Cooperatives, Agrarian sector.

## АНАЛИЗ ОСНОВНЫХ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА РАЗВИТИЕ СЕЛЬСКОХОЗЯЙСТВЕННОГО СОТРУДНИЧЕСТВА В АЗЕРБАЙДЖАНЕ

**РЕЗЮМЕ**

Кооперативная форма собственности, занимающая важное место в аграрном секторе, используется во многих странах мира и в нашей стране. Конечно, процесс сотрудничества происходит под влиянием различных факторов и переменных. Классификация и основные направления этих факторов будут подробно описаны в статье. Существуют общие и специфи-ческие факторы, влияющие на развитие аграрных кооперативов в каждой стране. Примерами общих факторов являются переменные, которые могут иметь место в любой стране, такие как производительность и эффективность. Будут искать решения для обеспечения масштаба, воздействия и развития факторов, влияющих на аграрное сотрудничество в Азербайджане. Также будут определены формы поддержки, которая может быть предоставлена фермерам для минимизации силы этих эффектов. В конце статьи будет сделан общий обзор и предложены необходимые меры по его предотвращению.

**Ключевые слова:** Аграрный кооператив, Кооперативы, Аграрная зона.

## Giriş

Dünyada müasir kooperativləşmə prosesi artıq 2 əsrdən çoxdur ki, davam edir. Əsasən də, aqrar sektorda bu proses çox mühüm-dür. Belə ki, aqrar sahə riskli və maliyyə tələb edən sektor oldu-ğundan, fərdi təsərrüfatlarda kəmiyət və keyfiyyət baxımından məhsul yetişdirilməsi, emalı, saxlanması və satılmasında belə problemlər yaranır. Ona görə də kooperativlərin aqrar sektorda fəaliyyət göstərməsini təşviq etmək əsas şərtlərdəndir.

Ölkəmizdə aqrar sektorda kooperativləşmənin effektiv həyata keçirilməsində müəyyən ləngimələr mövcuddur. Bu tədqiqatda da kooperativlərin inkişafına təsir göstərən amilləri araşdıracam. Bu amillərin nədən ibarət olduğunu və təsir miqyası haqqında məlumat verəcəm.

Əhalinin kooperativlər barədə düşüncəsi haqqında bir sorğu-anket də qeyd olunmuşdur. Həmin sorğuda ümumiyyətlə ölkə fermerlərinin kooperativlərin inkişafı haqqında düşüncələri və seqmentasiyası verilmişdir. Həmin bu amil bəlkə də, digərləri arasından ən mühümüdür. Çünki, fermerlərin düşüncəsi vəziyyə-tin reallığını bizə əks etdirir. Bu amilin qarşısın alınması üçün hö-kumət tərəfindən müxtəlif tədbirlərin görülməsi barədə məlumat verilmişdir.

Yekunda, Azərbaycanda aqrar sahədə olan potensialın qiymət-ləndirilməsində aqrar kooperativlərin bilavasitə rolunun olduğu qənaətinə gəldim. Kooperativləşmə prosesinin qarşısını alan amil-lərin həll olunduğu təqdirdə, ölkəmizdə ümumilikdə aqrar sekto-run inkişafını təmin edəcəyini qeyd edə bilərəm.

### Azərbaycanda aqrar sektorun inkişafına təsir edən amillər

Ölkəmizdə aqrar kooperativləşməyə təsir edən amillərin təhlili daha dərindən anlamaq və izləmək üçün müxtəlif aqrar yönümlü təşkilatlar tərəfindən müxtəlif anketlər, sorğular aparılmışdır. Əsasən də, ölkə əhalisin-dən aqrar kooperativlərlə münasibəti ilə müxtəlif rəylər alınmışdır. Qeyd edilən araşdırmanın aqrar kooperativləşmə ilə bağlı 4 fərqli fikirə sahib seqment aşkarlanmışdır. Həmin seqmentləri aşağıdakı kimi sıralaya bilərik:

- Birinci qrup hələ də keçmiş Sovet əkinçilik sistemləri (kolxoz və sovxoz) bərpa edilməsinin tərəfdarıdır.
- Daha yeni, daha müasir iş modellərini təqdim etmək istəyən qruplar da üstünlük təşkil edir.
- Mövcud iş mühiti ilə kifayətlənənlər
- Kooperativlərin inkişaf potensialına laqeyd yanaşan və istədikləri kimi torpaq sahələrini istifadə etmək istəyənlər

Yuxarıda qeyd etiyim 4 seqmentin ortaya çıxmasının da özünə məxsus obyektiv səbəbləri vardır. Yuxarıda qeyd edilənlər arasında ən çox zərər görən seqment şübhəsiz ki, sovet əkinçillik sisteminin tərəfdarı olanlardır. Yaxın tarixə nəzər yetirsək, həmin əhali seqmentinin də bu istiqamətdə düşünməsinin rasional səbələri olduğunu da görə bilərik.

**Şəkil 1.** Aqrar kooperativlərlə bağlı sorğu-anket




***Mənbə:*** *Uluçay Sosial İqtisadi İnnovasiya Mərkəzi*

Belə ki, 1991-ci ildə Sovet İttifaqı dağıldı və iqtisadiyyatın bütün sahələri bundan təsirləndi. Dövlət tərəfindən idarə olunan bütün kolxozların ləğvi həyata keçirildi. Sərbəst bazar iqtisadiyya-tına uyğunlaşmağa çalışan fermerlər böyük zərər gördü. Bunun ardından bütün torpaqlar, əmlak və aqrar texnika yerli əhali arasında pay prinsipi əsasında bölündü. Fərdi mülkiyyətin yeni sahibləri olaraq fermerlər kortəbii olaraq torpaqlarını başqa məqsədlər üçün də istifadə etdilər. Son illərə qədər müəyyən bir kənd təsərrüfatı nəzarəti və rəhbərliyinin olmaması fermerlər arasında disfunksiyaya gətirib çıxardı. Planlaşdırmanın olmaması ixracatın idarə olunması və iqtisadi stimullaşdırmanı əngəlləyir. Sovet sisteminin qüsurları olsa da, bir mərkəzi var idi. Həmin birinci kateqoriyaya aid olan seqment nəzarət funksiyasının bərpa edilməsinin tərəfdarıdır. Bu direktiv planlama ilə məhsuldarlığın, torpaqda effektiv istifadə olunacağını mü-dafiə edirlər. [8, səh 9]

Təbii ki, sovet kooperativçiliyinin dağılması ilə nəticələnən radi-kal islahatlar fərdi təsərrüfatçılığa üstünlük verənlər və müəyyən mənada bəzi işbazlar üçün məqbul idi. Sadalan qrupda 2-ci seqmentə daxil olanlar reformist və islahat tərəfdarı olan kütlə üçün prosesin bu yöndə davam etməsi müsbət dəyişiklik oldu. Çünki bununla həmin yenilikçi kütlə torpaqlardan rahatlıqla istifadə edə bildi. Xarici və yaxud yerli bazara uyğun məhsulların istehsalına başladı. Məhdud büdcə və torpaqla başladılan pro-ses böyük plantasiyalara, xaricə məhsul ixracı kimi dəyişikliklər müsbət tendensiyalara gətirib çıxardı. Amma yenə də, bu qrup istədiklərinin müəyyən qismini həyata keçirə bilir. Həm dövlət tərəfindən edilən dəstəyin istənilən səviyyədə olmaması, məhdud rəqabət mühiti, bundan əlavə bəzi işbazların maneələr törətməsi, kadr çatışmazlığı kimi problemlər islahatçı kəsimin istədikləri səviyyədə məhsul istehsal edə, bazara çıxara bilməməsinə, balanslarındakı torpaqdan səmərəli şəkildə istifadə etməmə-sinə gətirib çıxarır. Qeyd edilən problemlərdən daha ətraflı şəkildə digər amilləri analiz edərkən bəhs etmə fürsətimiz olacaq.

Mövcud iş mühiti ilə kifayətlənən kəsim isə işbazlar və özünə müəyyən sistem qurmuş keçmiş məmurlardır. Bu seqment orta-lamadan daha çox torpağa sahibdir və torpaqları olduğu kimi əkib becərirlər. Məqsədləri ərazini ya uzunmüddətli, ya da birbaşa satın almaq

üçün icarəyə götürməkdir. Onlar birlikdə və könüllü işləməyə meylli deyillər. Digər səhmdarlara inamlarının olmadıq-larını qeyd edirlər. Əksəriyyəti fəaliyyətlərini dövlət tərəfindən ayrılmış dotasiya yolu ilə davam etdirirlər. Belə fermerlərin əksə-riyyəti maliyyə baxımından çətinlik çəkirlər. Onların öz maliyyə ehtiyaclarını tamamilə təmin edə bilməmələri milli ərzaq təhlükə-sizliyini təhdid edir.

Təbii ki, kooperativləşmənin inkişafının qarşıını alan və ancaq öz marağını önə alan fəaliyyət göstərirlər. Bazarda mövcud olan rəqabət mühitinin daralması, digər fərdi və kollektiv subyektlərin bazara daxil olmasının qarşının alınması kimi mühüm problemlər yaradırlar. Bu proses də xeyli dərəcədə aqrar kooperativləşmədə demotivasiya mühiti yaradır. Əhalinin bu sahə ilə məşğul olmağa marağının itməsinə səbəb olur. Qeyd edilən vacib problem isə, son nəticədə aqrar sektorda gerilməyə, səmərəliliyin azalmasına,iqtsadiyyatın şaxələndirilməsi kimi Prezidentin xüsusi fərmanı ilə qəbul edilən böyük dövlət proqramının həyata keçirilə bilməməsi-nə gətirib çıxarır.

Axırıncı əhali seqmenti yəni bu sahənin inkişafına ümdi olmayanlar isə ən az koopertivləşməyə qatqısı olan insanlardır. Qeyd edi-lən əhali seqmenti aqrar kooperativləşmənin Azərbaycanda in-kişafına dair məsələlərinə laqeyd yanaşan və müəyyən mənada demotivasiya olmuş insanlardır. Əsasən də, bəzi işbazların rəqabət mühitinin daralması ilə nəticələnən fəaliyətləri bu əhali seqmenti-nin yaranmasına gətirib çıxarır.

Yuxarıda aqrar kooperativləşmədə əhali seqmentasiyası kimi mühüm amili nəzərdən keçirdik. Digər amilləri isə ardıcıllıq ilə sıralaya bilərik.

- Kadr çatışmazlığı

Belə ki bu proses təkcə aqrar kooperativləşmənin inkişafına de-yil, həm də aqrar sahənin inkişafına əngəldir. Qeyd edilən sektor üçün müasir tələblərə cavab verən kvalifikasiyalı işçilərin yetişdirilməsi üçün ixtisasyönümlü tədris və təlim müəssisələrinin yara-dılması vacib şərtlərdəndir.Kadr probleminin aqrar kooperativçiliyə birbaşa təsirinə təşkilati, idarəetmə, hüquqi və aqrar ixtisaslaş-mada yaranan çətinlikləri nümunə göstərə bilərik. Çünki kooperativlərkompleks yanaşmanı və müxtəlif ixtisaslaşmaların kombina-siyasını tələb edən qurumdur.Əlavə olaraq, iri kooperativlərin yaradılması, ixtisaslı işçilərin praktika əldə edə biləcəyi iş yerlərinin olmasına təkan verir.

Yeni müstəqillik əldə olunan dönəmlərdə aqrar sektora olan diqqətin azalması, sonda bu sahədə təhsilli insanların azalmasına gətirib çıxardı. Sonrakı dövrdə isə aqrar sahə ilə məşğul olanların belə bir təəssüratı var idi ki, onların bu sahə üzrə yetərincə məlu-matı var, həmin bilgiləri gələcək nəsillərə ötürə bilərlər. Ancaq sonradan məlum oldu ki, aqrar sahə üzrə məşğul olmaq üçün müasir standartlara cavab verən kadrlara ehtiyac var. Aqrar mütəxəssislərin rəyi olmadan yüksək məhsuldarlıq əldə etmək mümkün deyil. Bu səbəbdən də bölgələrin bir çoxunda çalışan işçilər gübrə və digər preparatların bitkilərə hansı normada veriləcəyini bilmirlər.

Bazar iqtisadiyyatı şəraitində çoxukladlı kənd təsərrüfatının səmərəliliyi mütəxəssislərin hazırlıq səviyyəsindən və işgüzar keyfiyyətlərindən asılıdır. İstehsalın təkmilləşdirilməsi, sahibkar-lıq, menecment, marketinq və qiymətyaratma, vergitutma və ma-liyyə-kredit təminatı, xarici iqtisadi fəaliyyətin əsasları, habelə hü-quq məsələlərinə dair biliklərin mənimsənilməsi praktik mütəxəs-sis və rəhbər işçi üçün zəruri keyfiyyətlərdir. Kadr ehtiyatlarının zəruri keyfiyyət dəyişiklikləri aqrar sahə mütəxəssislərinin hazır-lanmasını,

əmək bazarında vəziyyətin dəyişməsi ilə əlaqədar tək-rar hazırlıq və ixtisas səviyyəsinin artırılması sisteminin təkmilləş-dirilməsini nəzərdə tutur.

- Bölgələrdə olan zəif infrastruktur

Azərbaycan müstəqillik əldə etdikdən sonra, aqrar sahə də digər sektorlar kimi tənəzzülə uğradı. Bölgələrdə yerləşən istehsal sahələri, fabriklər və qurumlarda fəaliyyət dayandı. Bu müddət ərzində, bütün avadanlıqlar və istehsal vasitələri köhnəldi və yararsız hala düşdü. Sonrakı dönəmlərdə, Əsrin müqaviləsinin imzalanması, xarici investorların ölkəmizə yatırımlar etməsi kimi bir sıra fəaliyyətlər aqrar sahədə hərəkətliliyə yol açdı. Və sonda bölgələrdə aqrar sahəyə müəyyən qədər marağın yaranması bir sıra zavod və istehsal qurumlarının yaranmasına gətirib çıxardı. Avadanlıqlar və istehsal texnologiyalar ilə bağlı problemlər bu ərəfədə meydana çıxdı. Problemlərin həll olunması üçün investor-lara xeyli maddi vəsait lazım oldu. Xaricdən avadanlıqlar gətiril-məsi həm vaxt, həm də maddi cəhətdən çətinlik yaratdı. Bundan əlavə kadr çatışmazlığının olması gətirilən yeni texnologiyalardan istifadəni məhdudlaşdırdı.

- Aqrolizinq xidmətlərinin istifadəsindəki problemlər

Bu problemin ortaya çıxmasında bir neçə faktor rol oynayır. Belə ki, idarəetmə ilə bağlı yaranan sıxıntılar kooperativləşmənin qarşı-sında dayanan əsas problemlərdəndir. Həm icarə şərtlərinin sərt olması, həm bürokratik əngəllərin, çətin və vaxt aparan prosedurlar kooperativlərin aqrolizinq xidmətlərinin istifadəsinə əngəl yaradır. Bundan əlavə xidmətlər və avadanlıqlar bahadır.

Aqrolizinqi inkişaf etdirmək üçün dövlət proqramları genişlən-dirildi və dövlət yanacaq və əkinçilik üçün subsidiyaların ayrılma-sına dair fərmanlar imzaladı. Lakin, yalnız bu proqramlar kənd təsərrüfatı sektorunu canlandırmaq üçün kifayət etmir və bu onu göstərir ki, əlavə islahatlara ehtiyac var. Əlavə islahatların həyata keçirilməməsi fermer təsərrüfatlarının təchizatında və son nəticə-də məhsuldarlığa mənfi yöndə təsir göstərir.

- Aqro marketinq mühitinin zəif inkişaf etməsi

Aqrar kooperativlərdə istehsal və emal arasında birbaşa əlaqənin olmaması aqrar sahədə səmərəliliyin aşağı düşməsinə əsas səbəbdir. Marketinq üzrə tədbirləri işləyib hazırlanması və reallaşdırılması zamanı aqrar kooperativlər bir tərəfdən özlərinin istehsal-satış fəaliyyətlərinin səmərəliliyini təmin edə, başqa bir tərəfdən isə rəqabətqabiliyyətliliklərini yüksəldə bilirlər. Aqrar sahədə məhsullarının istehsalından ixracına qədər olan əməliyyat-ların həyata keçirilməsində və sonda elə də ciddi nailiyyətlərin əldə edilməməsinin başlıca səbəblərindən biri də Azərbaycanda aqromarketinq təhlilinin zəif həyata keçirilməsidir. Ölkədə fəaliyyət göstərən emal və saxlama müəssisələri məhsulların alınmasında və saxlanılmasında istehsalçılar üçün əlverişli olmayan şərtlər irəli sürməsi məhsulun maya dəyəri qiymətinə, bəzən daha aşağı qiymətə satılmasına da səbəb olur.

Tədqiqat göstərir ki, Azərbaycanın marketinq sisteminin onlara aşağıdakı kimi təsnif etmək mümkündür:

1) Ənənəvi olaraq toplanılmış praktiki təcrübənin nəzəri biliyi üstələməsi və bu təcrübə əsasında fəaliyyətin qurulması
2) Bazarın inhisara alınması və bu üsullarla idarə olunması; 3) İstehsal olunan məhsulun tələbata uyğunluğunun və ixrac üçün əhəmiyyətli olub olmamasının müəyyən edilməməsi;

4) Aqrar sahədə marketinq xidmətinin maliyyə təminatının və stimullaşdırılması metodlarının olmaması;
5) İstehsalçılara bazar informasiyalarının çatdırılması sahəsindəki problemlər
6) Məhsulların saxlanması, emalı və qablaşdırılması və məhsulla-rın təminatlı satış kanalının fəaliyyətinin təmin olunması və satışın təşkili ilə bağlı problemlər

Aqromarketinq sisteminin yuxarıdakı problemlərinin bəziləri-nin həlli bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə olduğu kimi kooperativlərin təşkili ilə mümkündür. Məsələn, aqrar sektorda fəaliyyət göstərən istehsalçıların məhsullarının saxlan-ması, emalı və qablaşdırılması sahəsindəki problemlərinin əhə-miyyətli hissəsini istehsalçıların özlərinin qüvvələrini və səylərini birləşdirməklə kooperativlərin və ya müxtəlif növ birliklərin təşkili vasitəsilə aradan qaldırmaq mümkündür.

Yuxarıda qeyd edilən amillər aqrar kooperativləşmənin ölkəmizdə inkişaf etməsinə mənfi tərəfdən böyük təsir göstərir. Belə ki, bu prosesin qarşısını almaq üçün ilk növbədə, dövlət və hökumət səviyyəsində tədbirlər görülməlidir. Nümunə olaraq, aqrar sektor-la bağlı yeni və fermer yönümlü siyasətin qəbul olunması əsas şərtlərdəndir. Bu siyasət çərçivəsində, ilk olaraq, azad rəqabət mühiti yaradılmalıdır. Artıq bu zaman müəyyən nəticələr əldə etmək mümkündür. Yuxarıda qeyd olunan amilləri birləşdirsək, onların kökündə rəqabət mühitindəki məhdudluq amilidir ki, bu faktor fermerlərin iri təsərrüfatlarda birləşməsinə və məhsullarını bazara rahatlıqla çıxarıb mənfəət əldə etməsinə mühüm əngəl törədir. Aqrar sektorun ərzaq təhlükəsizliyi, məşğulluq təmin edilməsi kimi mühüm funksiyaları dövlətə də fayda verir. Ona görə də, mənfi təsir amilləri neytrallaşdırmaq üçün fermerlərlə dövlət orqanları münasibətləri balansı təmin edilməlidir.

**Nəticə və Təkliflər**

Ümumi şəkildə Azərbaycanda kooperativçiliyə təsir edən əsas amilləri sıraladıq. Bunlar növbəsi ilə, əhalinin kooperativlərə münasibəti, kadr problemi, infrastruktur, aqro marketinq mühiti, azad rəqabət mühitinin olmaması kimi mühüm faktorlar idi. Aqrar kooperativçiliyin inkişaf etməsinə əngəl törədən faktorların məğzində kooperativlər (fermer təsərrüfatları), hökumət orqanları və iri özəl şirkətlərin arasında əməkdaşlıq münasibətlərinin zəif olmasındadır. Xarici ölkələrdə əsasən də, Hollandiyada, Danimar-kada bu baxımdan inkişaf edə bilmişlər. Belə ki, aqrar sahə üzrə təhsil ocaqları, universitetlər ilə böyük aqrar yönümlü şirkətlər, kooperativlər bir birilə sıx əlaqədədirlər. Həm də, belə qurumlar bir-birinin yaxınlığında yerləşir. Bu prosesin sayəsində koopera-tivlər yenilikləri daha sürətli şəkildə təbiq edə bilirlər. Beləliklə, kadr çatışmazlığının, aqro marketinq mühitinin yaranmasına, infrastruktur probleminin həllində kömək olacaqdır. Yalnız ko-operativlər, şirkətlər deyil, hökumət orqanları da bu prosesə dəstək verir. Bu üç qurumun sayəsində inkişafa nail olmaq müm-kündür.

Bölgələrdə ixrac məqsədli fermerlərə dəstək fəaliyyət mərkəz-ləri qurulmalıdır.Bu mərkəzlər fermerlər üçün xidmətlər və sağ-lam, normal və xarici tərəfdaşlarla davam edən münasibətlər tə-min etməlidir. Bundan əlavə xarici bazarlara çıxış əsasən də Avro-pa ölkələrinə aqrar məhsulların ixracını təmin etməlidir. Və bunun üçün xarici ölkələrdə yerləşən nümayəndəliklərin, səfirliklərin dəstək göstərməsi mümkündür. Ayrıca olaraq, ölkəmizin aqrar məhsullarını, fermer-lərini və kooperativlərinin tanıda biləcək bir fəaliyyət qrupun əsas şərtlərdən biridir. Nazirlik səviyyəsində belə, mərkəzlərin yaradılması üçün maliyyələşdirmə və təlimə dəstək mütəxəssisləri yetişdirməlidir.

Aqrar sektorda kooperativlərin rolu və Azərbaycanda təbiq olunma istiqamətləri ilə bağlı qeyd edəcəyim təkliflərin əsas məğzi qeyd etdiklərimdən ibarətdir .

**ƏDƏBİYYAT SİYAHISI**


1. Mehtiyev., Rövşən Ağayev., Ramil Xudayarov. Kənd təsərrüfatı kooperativləri: dünya təcrübəsi və Azərbaycan üçün təklif olunan model. "AZSEA" MMC. Bakı 2011
2. Bengü Everest., prof. Dr. Murat Yercan Aqrar-kredit kooperativlərində ortaqların kooperativçilik əsasları və təsir edən faktorların analizi – Balikesir vilayət birliyi 2015
3. Çıkın, Ayhan,TarımsalKooperatifİşletmeciliği. EgeÜniversitesiZiraatFakültesiBasımevi, İzmir 1990
4. Hayati Başaran., Serkan Birinci., Mukadder Emiroğlu., Burak Özsaraç., Işıl Uçan.Yeniden yapılanma döneminde tarımsal kooperatifçilik 2014.
5. Joao Rebelo, José Caldasvol.53 supl.1, Brasilia., arch 2015. The Economic Role of the Portuguese Agricultural Cooperatives Rev. Econ. Sociol. Rural March 2015
6. Stephen C. Smith., Jonathan Rothbaum Cooperatives in a Global Economy: Key Economic İssues, Recent Trends, and Potential for Development., September 2013
7. Zakic, N., Vukotic, S., Laketa, M. and Laketa, L., Agrıcultural Cooperatives: Researching Members' Perception of Important Issues of Cooperatıves on The Example of Serbia. The Journal of Animal & Plant Sciences, 23(1): (2013) Page: 290-297. ISSN: 1018-7081
8. http://uluchay.org/docs/Agriculture%20Cooperatives%20Paper%20_Uluchay.pdf – 12.06.2021
9. https://monitoring.az/assets/upload/files/9_Kend_teserrufati_opt%281%29.pdf-10.03.2021.
10. http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/dig-r-x-b-rl-r/item/20335-agrar-kooperasiyanin-modern-inkishaf-yollari-17.07.2021.

*2020. Volume 4, Number 2* *Pages 140-146*

***UOT:005.94***

# İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSININ BEYNƏLXALQ NƏZƏRİYYƏLƏRİ VƏ MODELLƏRİ

**ƏLİCANOVA GÜLÜZAR**

Bakı Biznes Universiteti

*alicanovaguluzar1098@gmail.com*

**XÜLASƏ**

MəqalədəİR-ınınidarə edilməsinin müasir idarəetmənin ən vacib komponentlərindən biri olmasından bəhs olunur.. Dünyanın əksər ölkələrində iqtisadi inkişafın indiki mərhələsində ən vacib problemlərdən biri kadrlarla iş sahəsində problemdir. Hər hansı bir müəssisənin qazancının ilk növbədə mütəxəssislərin necə peşəkarlıqla işləyəcəyinə bağlı olması ilə bağlı mübahisə etməsi ehtimalı azdır. Həmçinin bir çox müəssisələrin fəaliyyətinin nəticələri və kadrlarla iş təcrübəsinin toplanması təcrübəsinə əsasən, istehsal komandalarının formalaşdırılması və yüksək keyfiyyətli İR ilə təmin edilməsi səmərəliliyin və rəqabət qabiliyyətinin həlledici amilləri olması haqqında məqalədə qeyd olunmuşdur.

**Açar sözlər-** insan, resurs, kapital, idarəetmə, bilik, təcrübə.

**МЕЖДУНАРОДНЫЕ ТЕОРИИ И МОДЕЛИ УПРАВЛЕНИЯ ЧЕЛОВЕЧЕСКИМИ РЕСУРСАМИ**

**РЕЗЮМЕ**

В статье рассматривается, что управление персоналом является одной из важнейших составляющихсовременного менеджмента.Одной из важнейших проблем на современном этапе экономического развития вбольшинстве стран мира является проблема человеческих ресурсов. Вряд ли какая-либо компания будетспорить о том, как вообще будет работать прибыль профессионалов. В статье также отмечается, чтоформирование производственных коллективов и обеспечение качественного персонала – решающиефакторы эффективности и конкурентоспособности, основанные на результатах деятельности многихпредприятий и опыте работы с персоналом.

**Ключевые слова:** человеческие ресурсы, капитал, менеджмент, знания, опыт.

**INTERNATIONAL THEORIES AND MODELS OF HUMAN RESOURCE MANAGEMENT**

**ABSTRACT**

The article discusses that HR management is one of the most important components of modern management. One of the most important problems at the current stage of economic development in most countries of the world is the problem of human resources. It is unlikely that any company will argue about how the profits of professio-nals will work in the first place. It is also noted in the article that the formation of production teams and the provision of high quality HR are the decisive factors of efficiency and competitiveness, based on the results of the activities of many enterprises and the experience of gaining experience in working with staff.

**Keywords -** human, resource, capital, management, knowledge, experience.

## 1. Giriş.

İR idarə edilməsi" həm tədris, həm də elmi fəndir. Bu fənn bir sıra Qərb və dünya ökələrində müxtəlif adla tədris olunur. Burada ad müxtəlif olsa da idarəetmə obyekti eynidir - insandır, işçidir, işçi heyətidir. Həm də burada idarəetmənin təsiri metodlarında, prinsiplərində, qaydalarında da əsaslı oxşarlıq, hətta biz deyərdik eynilik vardır. Bununla əlaqədar olaraq onların hamısında aşağıdakı eyni tipli cəhətlər, aspektlər vardır: funksionallıq, təşkilati və təhsil aspektləri.

Bu aspektlər bir-biri ilə üzvi şəkildə bağlıdır. Burada funksional münasibətlər başlıca yer tutur. Çünki funksional münasibətlər və yaxud cəhətlər təşkilatlarda işçi heyətinin demək olar ki, bütün fəaliyyət sferasını, o cümlədən onların seçilməsi, hazırlanması, istifadə olunması, stimullaşdınlması, işə qəbulu və işdən çıxarılması kimi məsələləri əhatə edir.

Təşkilati münasibətlər isə firma və şirkətlərin, digər təşkilatlartın heyətlə bağlı bölmələrinin, xidmət sahələrinin heyətin fəaliyyəti üçün məsuliyyət daşımalı (məsələn, xətti menecerlər, əmək və yaxud məşğulluq şöbəsi və s.) olan şəxslərin bilavasitə məsuliyyəti başa düşülür. Burada təhsil, peşə hazırlığı, müəssisə iqtisadiyyatına münasibət, əmək və icra intizamı mühüm əhəmiyyət kəsb edir.

**2.Mövzunun aktuallığı.**

İqtisadi-siyasi, texnoloji, mədəni və sosial sferadakı struktur dəyişiklikləri ilə qloballaşma anlayışı yarandı. Bu, iqtisadi həyatın əsas dinamikası olan müəssisələrin beynəlxalq bir oriyentasiyaya uyğun davranış nümayiş etdirməsi ilə nəticələndi. Çoxmillətli müəssisələr say etibarı ilə dünya iqtisadiyyatında müəyyənedici qüvvəyə çevrildi. Bu vəziyyət müəssisələrin təşkilati strukturları və idarəetmə fəaliyyətlərini yeniləməsi və tənzimləməsi ehtiyacını yaratdı.

Kapitalizm nəticəsində həm özəl sektor təşkilatları, həm də ictimai təşkilatlar öz sərhədlərini keçmək istəyirdilər.Bu etnik qarışıqlıq çoxmillətli müəssisələrin yaranmasına təkan verdi. Çoxmillətli bir korporasiyanın xarakterik xüsusiyyəti onun ölçüsüdür və 3 cür olur:

a)iqtisadi forma və fəaliyyət sahəsindən asılı olmayaraq iki yaxud daha çox ölkədə fəaliyyət göstərən;

b)bir yaxud daha çox qərar qəbuletmə mərkəzinin effektiv nəzarəti altında bölmələr arasında mülkiyyət və ya digər əlaqələr vasitəsilə idarə olunur və bu biznes bölmələri arasında universal strategiyanın formalaşdırılması üçün əlaqəli və ümumi siyasətlərin qurulmasına səbəb olur;

c)bölmələr arasında məlumat, mənbə və məsuliyyətin bölüşdürüldüyü iqtisadi müəssisələrdən ibarət kommersiya müəssisəsidir[8, s.247].

Çoxmillətli bir şirkəti yerli şirkətdən fərqləndirən ən vacib üstünlüyü, çoxmillətli şirkətin qlobal miqyasda genişlənməni təmin edən bir təşkilat yaratmaqla öz mənbələrini sərhəddən xaricə asanlıqla köçürə bilməsidir. Ancaq çoxmillətli müəssisələr təkcə böyük müəssisələr deyil. Kiçik müəssisələr də beynəlxalq səviyyədə fəaliyyət göstərə bilir.Xüsusilə, müxtəlif ölkələrin əmək bazarlarından işçilərin cəlb edilməsi ilə məşğulluq, çoxmillətli müəssisələrin müvəffəqiyyəti üçün beynəlxalq insan resursları idarəetmə təcrübələrinə yönəlmişdir. Müəssisələr, işçi qüvvələrinin fərqli quruluşuna görə İR idarə edilməsində beynəlxalq təcrübəyə ehtiyac duymağa başladılar. Belə olduğu halda milli və qlobal yanaşmaları bir araya gətirmək və İR idarə edilməsi funksiyalarına beynəlxalq bir meyar gətirmək lazım oldu.

**3.Tədqiqat metodu.**

İnsan resurslarında yaranan yeni yanaşmalardan əlavə sərt(hard) və yüngül(soft) adlanan insan resurslarının idarəetmə modelləri bir qütbləşmənin təsiri ilə yaranan modellər olmuşdur və 80-ci illərdə elmi ədəbiyyatda onların təsiri hiss olunurdu. Bu qütbləşməyə sə-

bəb olan dəyişiklik 1980-ci illərdə Yapon rəqabəti ilə ortaya çıxan mükəmməllik modelləri və güclü bir təşkilatlanma mədəniyyətinin yaradılması yanaşmaları idi.

Yaponiya hər zaman əsas diqqəti idarəetmə sahəsinə yetirmişdir. 1960-cı illdə Yapon mütəxəssisləri bildirdi ki, müasir cəmiyyətin maliyyə və texniki sahələrdə idarə edilməsi beynəlxalq miqyasda yeni rəqabət mərhələsinə keçmişdir.Qadın işçilərin sayının artması, xidmət sektorunun çəkisində,işçi qüvvəsinin strukturunda və görülən işlərin keyfiyyətində dəyişikliklər qütbləşməyə əsas səbəb sayıla bilər [10, s.1].

"Miçiqan Modeli" adlanan sərt model Amerikan, "Harvard Modeli" adlanan yüngül yanaşma, Avropa ənənələrini əks etdirir. Amerikan ənənələrinə əsaslanan İR idarə olunması yanaşması ənənəvi kadr idarəetməsini əvəz edir, Avropa ənənələrinə söykənən insan resurslarının idarəetmə yanaşması isə ənənəvi sənaye münasibətlərindən ayrılaraq inkişaf etmişdir [9, s.1].

Amerika modelində bu funksiyanın yerinə yetirilməsi əsasən dolayı yaxud birbaşa olaraq mütləq şəkildə dövlətin nəzarəti şəraitində yerinə yetirilir.Bu baxımdan, sərt model insan resurslarının idarə edilməsində müəssisələrə strateji hədəflərinə çatmağa imkan verən və insanı istehsalın digər elementləri ilə eyni səviyyədə köməkçi bir vasitə olaraq görür. Daha humanist davranış görtəsən digər yanaşmada isə insan-müəssisə ilə qarşılıqlı əlaqəsi rəqabət üstünlüyünü təmin edən mühüm bir funksiya olduğuna və şirkətin digər bölmələri ilə qarşılıqlı əlaqəsinin rəqabətədavamlı olduğuna görə müəssisələrin ən dəyərli varlığı olaraq təyin olunur.

Sahədə üstünlük təşkil edən bu yanaşmalar əsasən fərqlərə yönəlsə də, qlobal kontekstdə təsirli olan müxtəlif dinamikalı müəssisələri oxşar davranışlara apara bilər. Bu məqamda regional təcrübədəki oxşarlıqlarının kəşfi və institusional təzyiqlərin təhlili sual altına düşür.

Yuxarıda qeyd olunmuş ümümiləşmiş modellərdən əlavə insan resurslarının idarə olunmasında beynəlxalq praktikada yaranmış aşağıdakı modellər mövcuddur:

- Paternalist Model

Bu modelin əsası, klassik metod anlayışının qəbul olunduğu əsas fərziyyələrə söykənir. Bu modelin əsas prinsipi ömür boyu işə sədaqətlə sadiq qalınan və müəssisənin iş öhdəliyinin həddən artıq qəbul olunduğu, daha çox Yaponiyanın ümumi mədəni təfəkkürünə və iş əxlaqına uyğun qurulmuş model olmasıdır.

- Mexaniki Model

Mexaniki model Teylor və Fordun idarəetmə ilə bağlı fikirlərinə əsaslanan bir yanaşmanı əks etdirir. Bundan əlavə, Fayolun idarəetmə ilə bağlı fikirlərinin əsasən mexaniki modellə üst-üstə düşdüyünü söyləmək olar.Bu yanaşmaya görə müəssisədə daxili nizam-intizam və nəzarət çox vacibdir [11, s.189].

Bu modelin "mexaniki model" adlandırılmasının səbəbi, təşkilat daxilindəki insan münasibətlərini minimuma endirmək, təşkilat daxilindəki iyerarxik münasibətlərə böyük əhəmiyyət vermək, ciddi intizam qaydaları qəbul etmək və qurumdakı işçiləri də elə maşının bir hissəsi kimi qəbul etməkdir.

Mexaniki modelinin insan resurslarına dair perspektivi belə izah edilə bilər ki, şəxsi uğurları artırmaq və məhsuldarlığı artırmaq üçün bu kimi elmi metodlardan da istifadə

olunmalıdır. Mexaniki modeli dəstəkləyənlər, fərdi uğur üçün mövcud olan vasitələrin məhdud olduğunu və bunun üçün daha çox maddi elementlərin lazım olduğunu vurğulayırlar. Rəsmi təşkilati quruluşa uyğun olaraq daxili daxili nizamın nəzərdə tutulduğu bu yanaşmaya əsasən məhsuldarlığı təmin etməyin ən təsirli vasitəsinin əmək haqqının verilməsidir.

- İnsan Münasibətləri Modeli

Bu modelin ortaya çıxması və əsas fərziyyələri EltonMayonun 1924-cü ildə başladığı Hawthorne araşdırmasının məlumatlarına əsaslanır. Bu tədqiqatlar işçilərin həmkarları tərəfindən qəbul edilməsini bəzən onun sosial ehtiyaclarından tutmuş, idarənin verdiyi maliyyə mükafatlarına qədər hərşeydən daha vacib olduğunu göstərdi.Təşkilatdakı insan münasibətləri, təşkilatın məhsuldarlığına müsbət və ya mənfi təsir göstərən ən vacib amillərdən sayılır. Təşkilatın insan resursları inkşafı baxımından demək olar ki, bu yanaşma insan elementini önə çəkdiyindən insan resursları menecmentinin inkişafına mühüm töhfə vermişdir[10, s.1].

- Bürokratik Model

Bürokratik model, əsasən, MaksVeberin bürokratiya ilə bağlı səsləndirdiyi fikirlərə əsaslanır. Bürokratiya köhnə anlayışlara söykənsə də, əvvəlcə Veber tərəfindən idarəetmə forması və təşkilatlarda qaçılmaz bir model kimi yeni formada və məzmunda qiymətləndirilmişdir. Bu modelin əsas anlayışları kimi tanınan və ideal bürokratiyanın tipi adlandırılan qanuni və rasional bilinen anlayışlar da təşkilatın insan resursları üçün böyük əhəmiyyət daşıyır.Bürokratik modellə mexaniki model arasında bəzi oxşarlıqlar olsa da, insan resursları perspektivi baxımından mühim fərqlər var. Bu modeldə, təşkilatdakı işçilərin əsas xüsusiyyətlərinin tapılmalı olduğu və İR idarə olunması baxımından vacib bir məsələnin vurğulandığı bildirilir.

- İştirakçı Model

İştirakçı model Drucker tərəfindən təklif olunan müasir idarəetmə üsullarının əsas fərziyyələrinə əsaslanır. Təşkilatçılığın müvəffəqiyyəti ilə işçilərin idarəetmədə iştirakı arasında müsbət bir əlaqənin olması ilə təşkilatda ən geniş səviyyədə idarəetmədə iştirak yolları və üsulları, işçilərin məqsədləri ilə təşkilatın məqsədləri arasında uyğunluq araşdırıldı. Bu modelin tələb etdiyi təşkilat forması, sərt bürokratik, iyerarxik və formal təşkilati quruluşa deyil, daha çox tabe-valideyn münasibətlərinə daha çevik, daha çox iştirakçı və daha az preseptiv bir anlayış kimi qəbul edir. Deyə bilərik ki, bu gün qəbul edilmiş və müdafiə olunan insan resurslarının idarə olunması təcrübəsi bu yanaşmaya daha uyğundur.Təşkilatda çalışan bütün işçilərin məhsuldarlıq səviyyəsini artırmaq üçün kadr potensialının mümkün olan maksimum səviyyəyə qaldırılması nəzərdə tutulur.

İR idarə edilməsində strateji yanaşmalar- Qloballaşma mühitində meydana çıxan texnoloji inkişaflar və beynəlxalq müstəvidə aparılan rəqabət bir çox sahələrə olduğu kimi əmək və məşğulluq hadisələrinə də təsir göstərmişdir. Çünki belə bir mühitdə, rəqabət üstünlüyünü təmin etmək və bunun davamlılığı üçün müəssisələrin insan kapitalına yönəldilməsi vacib idi. Belə olduqda əvvəllər müəssisələrdə xərc elementi olaraq qəbul edilən insan resursu strukturu strateji aktiv hala gəldi və iş fəaliyyətinə verdiyi töhfəni nəzərə alaraq inkişaf etdirilməli olan bir fəaliyyətə çevrildi. Beləliklə də İR idarə edilməsi sahəsində təsirli olan stratejik, perspektiv və fərqli yanaşmaların yarandı. Üstünlük təşkil edən strateji istiqamətlər universal (universalistic) yanaşma, fövqəladi (contingency) yanaşma və konfiqurasiya (configurational) yanaşmasıdır [12, s.197].

Universal yanaşmalar- Universal yanaşma ümumiləşdiriləbilən insan resurslarının idarəetmə təcrübələrinə və təşkilati fəaliyyətini inkişaf etdirən iş sistemlərinə yönəlmişdir. Əsasən, təşkilati strategiyadan asılı olmayaraq, insan resurslarının idarə olunması praktikası ilə təşkilati fəaliyyət arasındakı əlaqəni özündə cəmləşdirən bu yanaşmaya görə, hər bir müəssisə yeni təcrübəni qəbul etməlidir, çünki bəzən insan resurslarının idarə edilməsində yeni təcrübələr bütün şəraitlərdə uğurlu nəticələri təmin edə bilər. Bu yanaşma, xüsusi işə qəbul və seçim metodları, təlim proqramları, fəaliyyətin qiymətləndirməsi və komanda işi kimi İR idarə edilməsi təcrübələrinin işdə icrasına təşviq edir.

Ümumilikdə isə Amerikan modeli insan resurslarının idarə olunması təcrübəsinin universal modeli kimi qəbul edilir.Lakin bu yanaşmanın da zəif tərəfi onun fəaliyyətə strateji yanaşmaları və regional modellər baxımından mədəniyyət elementlərinin, beynəlxalq İR idarə edilməsi sahəsindəki institusional meyllərin qiymətləndirilməsinin və İR idarə edilməsi təcrübələrinin təşkilati strategiya ilə uyğunluğunun nəzərə alınmamasıdır.

Situativ yanaşma- Situativ yanaşma, universal yanaşmada nəzərdə tutulmuş sadə, səthi münasibətlərin əvəzinə qarşılıqlı əlaqələri daha çox özündə vurğulayır.Bu məqamda strateјik, təşkilati və ətraf mühit dəyişkənlikləri meydana çıxır. Stratejik dəyişkənlər insan resursları idarəetmə təcrübələrinin fəaliyyət səviyyəsinə töhfəsindən və bu təcrübələrin iş strategiyası ilə uyğunluğundan birbaşa asılıdır. Təşkilati dəyişkənlər isə quruluşu, texnologiyası və vəmüəsisənin təşkilat ölçüsüsü kimi məsələlərdən asılıdır. Ətraf mühit dəyişkənləri rəqabət, texnoloji, makroiqtisadi və fiziki fəaliyyətlə əlaqəli amillərdir.

Davranış nəzəriyyəsinə söykənən bu yanaşmaya görə, təşkilati effektivliyə nail olmaq üçün təşkilatın İR idarə edilməsi siyasəti və təcrübələri təşkilatın strategiyasına uyğun olmalıdır. Məsələn, Miles və Snow, insan resurslarının idarə edilməsi təcrübələrinin strategiya növlərinə görə necə fərqləndirilə biləcəyini və İR idarə edilməsi təcrübələrinin iş strategiyaları ilə (fürsətcil-prospector, müdafiəçi-defender və reaktor-reactor) necə uyğunlaşdırmağı analiz etmişdir [13, s.1].

Formatlaşdırıcı yanaşması- Formatlaşdırıcı yanaşma təşkilatlara eyni nəticələrə nail olmaq üçün fərqli təcrübələrdən istifadə edərək universal və situativyanaşmalarından daha çox müxtəlifliyi təmin olunmasına imkan verir. Həmin yanaşmada sistem həm ətraf mühitə, həm də təşkilati şərtlərə uyğunlaşır.

Başqa sözlə, situativ yanaşmanın bir qolu olan olan bu yanaşma situasiyadan daha bir addım irəli gedir və insan resursları idarəetmə təcrübələrinin üfüqi və şaquli istiqamətdə təşkilati quruluşa və strateji hədəflərə uyğunlaşdırılmasını təmin edən müəyyən sistemlərin olduğunu göstərir.

İnsan Resursları İdarəedilməsində Regional Modellər- İR idarə edilməsi sahəsinin fəlsəfi əsasları Avropadakı sənaye əlaqələri nizamına əsaslanmasına baxmayaraq, Amerikada funksional paradiqmanın təsiri altında inkişaf etmiş bir sahədir.

Sözügedən sahənin yaranmasına və inkişafına təsir edən bu iki qitə, mədəniyyət dinamikası və iş həyatına dair qanuni tənzimləmə kimi müxtəlif amillər baxımından müəyyən dərəcədə fərqlənir. Bu fərq İR idarə edilməsi sahəsində iki fərqli (sərt və yüngül) perspektivlərin ortaya çıxmasına səbəb oldu.

Sərt(hard) yanaşma İR idarə edilməsi sahəsindəki güclü strateji idarəetmə təzyiqlərini özündə əks etdirir. "Miçiqan Modeli" olaraq da tanınan bu yanaşmada İR idarə edilməsi funksiyası ilə əlaqəli işlərin iş strategiyasına uyğun olub- olmaması çox vacibdir. Rəqabət üstünlüyünün bir hissəsi hesab olunan işçilər hər biri müəyyən resurslar hesab olunur və işçilər istehsalın digər elementləri ilə bərabər tutulur.

Avropa ənənəsini əks etdirən yüngül(soft) yanaşmada İR idarə edilməsi funksiyası müəssisənin digər bölmələri ilə qarşılıqlı əlaqədə və harmoniyada vurğulanır. "Harvard Modeli" kimi də tanınan bu yanaşmada işçilər müəssisələrin ən dəyərli varlıqları kimi qəbul olunurlar. Buna görə, iştirakçı və komanda əsaslı idarəetməyə, səlahiyyət və təşəbbüs yolu ilə təşkilati ünsiyyət, etimad və öhdəliyə diqqət yetirilir. Bu perspektivin sənaye münasibətləri kontekstində əsas təsiri güclü həmrəylik, kooperativ birliyi, yaxşı inkişaf etmiş sosial təminat sistemləri və dövlətin təsirli qanunlarla iş həyatına müdaxiləsidir.

**4. Tədqiqat işinin nəticələri və onun müzakirəsi.**

Bildiyimiz kimi hər bir müəssisənin idarə edilməsində müəssisənin işçi heyətinin formalaşdırılması, işçi heyətinin düzgün idarə olunması müəssisənin fəaliyyətində əsas faktorlardır. Bu baxımdan hər bir müəssisə üçün daxilində kadrların hazırlanması, onların doğru yerləşdirilməsi və idarə olunması xüsusi əhəmiyyət kəsb edən məqamdır. İdarəetmə sistemində müəssisə özünün kadr siyasətini həyata keçirən zaman müəyyən istiqamətləri özündə rəhbər siyasət olaraq götürür.

Yuxarıda sadaladığımız beynəlxalq insan resursları modelləri, insan resurslarının müxtəlif ölkələrdə yaranaraq hal-hazırda bütün dünyada tətbiq edildiyini göstərir. Buna görə də müxtəlif ölkələrin vətəndaşları insan resurslarının inkşafında öz bacarıqlarını artırır və təşkilatın böyüməsi üçün səmərəli şəkildə kömək edirlər.İR idarə edilməsi nəzəri və praktik təhlili göstərdi ki, bu gün kadr siyasətinə yeni yanaşmalar lazımdır. Bunun bir neçə nəticəsi var.

- ✓ Birincisi, kadr idarəçiliyinin köhnə, inzibati formaları tamamilə tükəndi və bu da bir çox menecerləri insanlarla işləmə üsulları və metodları axtarmağa vadar edir;
- ✓ İkincisi, bazara keçid yeni ehtiyat və ehtiyatlar axtarmağa məcbur oldu. Bu şəraitdə bir çoxları məhsul və xidmət səviyyəsinin yüksəldilməsində ən vacib amil kimi təkcə materialdan deyil, insan resurslarından da səmərəli istifadə edilməsinə diqqət çəkdilər;
- ✓ Üçüncüsü, ölkədə əmək bazarı formalaşmaqdadır. Seçim imkanı, ixtisaslı kadr axtarışına ehtiyac, onların qiymətləndirilməsi və kadr idarəçiliyinə bazar əsaslı yanaşmanın digər elementləri mövcud idi;
- ✓ Dördüncüsü, kadrlarla işin elmi-metodiki bazası xeyli yaxşılaşmışdır.

**ƏDƏBİYYAT**


1. Ağalayeva, S.N., Kadrların təkmilləşdirilməsi: bu gün və sabah // İş.M., 2007. №3
2. FerecovRakif, İnsan kaynaklarıyönetimindeperformansdeğerlemesiveuygulaması, Bakı- 2011, 160 səh
3. Quliyev T.Ə., "İnsan resurslarının idarə edilməsi", Bakı - 2013, 828 səh
4. Quliyev T.A .Bazar iqtisadiyyatının idarə edilməsi . Bakı, 2012
5. M.Əliyev, H.Həmidov, İnsan resurslarının idarə edilməsi, Bakı -2002, 206 səh
6. T.Ə.Quliyev. "İnsan resurslarının idarə edilməsi" Bakı-2013, 361 s.
7. T.Y.Bazarov, B.L.Yeremin. "Heyətin idarə edilməsi".2012, 456 səh
8. Гордеева, Т.О. Достижениемотивациипсихологии. М .: Академия, 2008.336 с.
9. Кусокин, В. Многоуровневаясистемамотивацииперсонала // Управлениеперсоналом.М., 2008. № 11. С. 26-28.
10. Комаров Е.И. Стимулирование и мотивация в современномуправленииперсоналом // Управление-персоналом. 2002. № 1. С.25.Комиссаровна Т.А. Управлениечеловеческимиресурсами, 2002, 520с
11. Гончарова, О.И. Какмотивироватьлюдейнаработу? // Ведомости. 2006. №2. С.5.
12. FerecovRakif, İnsan kaynaklarıyönetimindeperformansdeğerlemesiveuygulaması, Bakı- 2011, 160səh
13. Веснин В. Р. Утилитарныймаркетингперсонала. ЮРИСТЪ. - Столица, 2010 – 103 с.
14. Sabuncuoğlu Zeyyat, İnsan kaynaklarıyönetimi, İstanbul- 2012, 362 səh.

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2020. Volume 4, Number 2* *Pages 147-157*

*UOT:311.216;336.717.6*

# BEYNƏLXALQ UÇOT VƏ HESABAT ƏSASINDA MÜHASİBAT İŞİNİN TƏŞKİLİ

**RƏHİMLİ Aysel Hüseyn qızı**
Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın
Dövlət Reyestri Xidmətinin 17 saylı Ərazi idarəsi
Maliyyə və Təsərrüfat şöbəsi
*ayselrahmli@gmail.com*

**XÜLASƏ**

Məqalədə müəssisə və təşkilatlar üçün zəruri olan maddi sərvətlərin və xidmətlərin əldə edilməsi mənbələri sadalanır, bu mənbələrin yaranma xüsusiyyətinə uyğun olaraq onların təsnifatı verilir. Tədqiqat nəticəsində, bu nəticəyə gəlinmişdir ki, təşkilatın fəaliyyəti və onun əmlakı haqda mühasibat uçotunun məlumatları həm daxili istifadəçilər-təşkilat rəhbərləri, təsisçilər, iştirakçılar və əmlak sahibkarları həm də xarici istifadəçilər-investorlar, kreditorlar və s. üçün tam, zəruri və düzgün informasiyalar formalaşdırmaq, təşkilatın maliyyə-təsərrüfat fəaliyyətində baş verəbiləcək neqativ hallardan vaxtında xəbərdar olmaq, təşkilatda cari və perspektiv dövrlərdə olan təsərrüfatdaxili ehtiyatları müəyyən edib, onları təsərrüfat fəaliyyətinin zəruri sahələrinə yönəltmək, bazarda maksimum mənfəət əldə etmək məqsədilə rəqabət qabiliyyətinə kömək və təsir göstərmək, hər bir təsərrüfat subyektinin fəaliyyətini hərtərəfli öyrənmək və araşdırılan məsələlərə dair əsaslandırılmış qərarlar çıxarmaq üçün son dərəcə zəruridir. Günümüzdə hər bir ölkədə istifadə olunan beynəlxalq mühasibat və hesabat əsasında mühasibat işinin təşkilinin vacibliyi danılmazdır.

**Açar sözlər:** məhsul və xidmətlər, müəssisənin təsərrüfat fəaliyyəti, təşkilatı – hüquqi forma, MMC, idarəetmə uçotu, maliyyə uçotu, aktivlər, öhdəliklər, kapital, gəlir və xərclər.

## ORGANIZATION OF ACCOUNTING ON THE BASIS OF INTERNATIONAL ACCOUNTING AND REPORTING

**ABSTRACT**

The article lists the sources of the acquisition of material assets and services necessary for enterprises and organizations, in accordance with the nature of the formation of these sources, their classification is given. The research is conducted, it is concluded that the accounting information on the activities of the organization and its property is available to both internal users - heads of organizations, founders, participants and property owners, as well as external users - investors, creditors, etc. to form complete, necessary and correct information for, to be timely aware of the negative events in the financial and economic activity of the organization, to determine the reserves in the current and future periods of the organization, to manage the necessary areas of activity, to help the market to be competitive and it is extremely necessary to influence, thoroughly study the activities of each business entity and make informed decisions on the issues under investigation. There is no denying the importance of organizing accounting on the basis of international accounting and reporting used by every state today.

**Key words:** products and services, economic activity of the enterprise, organization - legal form, LLC, management accounting, financial accounting, assets, liabilities, capital, income and expenses.

İnsanlar özlərinə lazım olan maddi nemətləri müxtəlif yollarla əldə etməyə çalışmışlar. Ehtiyacları ödəyən bu nemətlər məhsul, mal və xidmətlər adlandırılır. Məhsul və xidmətlərin əksər hissəsi **müəssisə** adlanan iqtisadi qurumlar tərəfindən istehsal olunur[1].

Rəsmi olaraq müəssisə hüquqi şəxs statusu olan təsərrüfat subyektidir. Müəssisə hər hansı bir məhsulu istehsal edir və ya xidmət göstərir, daha doğrusu iqtisadi fəaliyyətlə məşğul olur.

1 Nihat Küçüksavaş. Genel mühasebe. 5-ci baskı, İstanbul 1995.

**Müəssisə**-ictimai (insan qruplarının və təşkilatların) tələbatlarının ödənilməsi və mənfəət əldə edilməsi məqsədi ilə bir sahibkar və ya sahibkarlar birliyi tərəfindən yaradılan məhsulların istehsalı, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi ilə məşğul olan təsərrüfat subyektidir.

Müəssisə istehsal sferasının ilkin həlqəsi olaraq bazarın tələblərinin ödənilməsi və mənfəət əldə edilməsi məqsədi ilə məhsulların istehsalı, xidmətlərin göstərilməsi və işlərin yerinə yetirilməsi ilə məşğul olur.

Bu, istehsal müəssisənin fəaliyyətinin əsas növüdür və o, məhz bu fəaliyyəti həyata keçirmək üçün yaradılır. Əksər müəssisələrdə əməliyyat fəaliyyətinin əsasını istehsal-kommersiya fəaliyyəti təşkil edir.

Müəssisənin təsərrüfat fəaliyyəti sistemində və onun mənfəətinin formalaşmasında investisiya fəaliyyəti xüsusi rol oynayır. İnvestisiya fəaliyyəti müəssisənin iqtisadi potensialının genişləndirilməsinə yönəldilmiş kapital qoyuluşunun daha səmərəli formalarını əsaslandırmaqla xarakterizə edilir.

Müəssisənin maliyyə fəaliyyətinə dar və geniş mənada yanaşmaq olar. Geniş mənada müəssisənin maliyyə fəaliyyəti dedikdə təsərrüfat subyektinin maliyyəsinin idarə edilməsinin bütün aspektləri başa düşülür. Dar mənada isə xarici mənbələrdən maliyyə vəsaitlərinin cəlb edilməsi ilə əlaqədar pul vəsaitlərinin idarə edilməsi başa düşülür.

Müəssisənin təşkilati hüquqi forması onun hüquqi qeydiyyat formasıdır və bu müəssisəyə müəyyən hüquqi status verir.

Təşkilati-hüquqi forma təsərrüfat subyektinin əmlakının təsbiti və istifadəsi qaydasını, onun hüquqi mövqeyini və fəaliyyət məqsədinin müəyyən edilməsi ilə əlaqədardır.

Beynəlxalq təcrübədə kommersiya müəssisələrinin 3 təşkilati-hüquqi forması mövcuddur:

1) Fərdi müəssisələr;

2) Şərikli müəssisələr;

3) Korporasiyalar.

**1. Fərdi müəssisələr** bir şəxsə aid olub və onun tərəfindən idarə olunan müəssisələrdir. Fərdi sahibkar müəssisənin öhdəliklərinə görə özünün bütün əmlakı ilə cavabdehlik daşıyır. Bu cür müəssisələrin üstünlüyü asan idarə olunmasıdır. Çatışmayan cəhəti müəssisəyə əlavə kapitalın cəlb edilməsi imkanlarının az olmasıdır.

**2. Şərikli (ortaqlıq) müəssisələr** ən azı iki fiziki və ya hüquqi şəxs tərəfindən müqavilə əsasında təsis edilir. Fərdi müəssisələrdən bir fərqi vardır ki, o da müəssisənin ortağının olmasıdır. Müəssisənin şərikləri onun öhdəliklərinin yerinə yetirilməsinə görə özlərinin bütün əmlakı ilə məsuliyyət daşıyırlar[2]. Ortaqlıq müəssisələrinin 2 forması ola bilər: tam ortaqlıq və komandit ortaqlıq.

Ortaqlıq o halda **tam ortaqlıq** sayılır ki, onun iştirakçıları (tam ortaqları) nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olur və ortaqlığın öhdəlikləri üzrə onlara mənsub əmlakla məsuliyyət daşıyırlar.

2 Biznesin əsasları. Dərslik, A.B.Abbasovun redaktəsi ilə. Bakı-2005, səh.141

**Komandit ortaqlığı** elə bir ortaqlıqdır ki, ortaqlığın adından sahibkarlıq fəaliyyətini həyata keçirən və ortaqlığın öhdəlikləri üzrə öz əmlakı ilə məsuliyyət daşıyan iştirakçıları (tam ortaqlar) ilə yanaşı ortaqlığın fəaliyyəti ilə bağlı zərər üçün, qoyduqları vəsaitlərin məbləği həddində risk daşıyan və ortaqlığın sahibkarlıq fəaliyyətində iştirak etməyən bir və ya bir neçə iştirakçısı - maya qoyanı (kommanditçi) vardır.

**3. Korporasiyalar (payçı müəssisələr)** mülkiyyətin və idarəetmənin bir neçə şəxsə aid olduğu müəssisədir. Bu zaman mülkiyyətçilər müəssisənin öhdəliklərinə görə yalnız qoyduqları pay üzrə məhdud məsuliyyət daşıyırlar. Belə müəssisələrin üstünlüyü əlavə kapital cəlb etmə imkanlarının yüksək olmasıdır. Korporasiyalar həmçinin təsərrüfat cəmiyyətləri də adlanır.

**Korporasiyaların (təsərrüfat cəmiyyətləri)** 3 əsas forması yaradıla bilər:

- məhdud məsuliyyətli cəmiyyət;
- əlavə məsuliyyətli cəmiyyət;
- səhmdar cəmiyyəti formasında.

**Məhdud məsuliyyətli cəmiyyət (MMC)**

Bir və ya bir neçə şəxs (fiziki və (və ya) hüquqi şəxs) tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət məhdud məsuliyyətli cəmiyyət sayılır. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları müəssisənin öhdəlikləri üzrə məsuliyyət daşımır və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları əmlakın dəyəri həddində risk daşıyırlar.

**Əlavə məsuliyyətli cəmiyyət**

MMC-dən fərqli olaraq əlavə məsuliyyətli cəmiyyətin iştirakçıları müəssisənin öhdəlikləri üzrə əlavə məsuliyyət daşıyırlar. Bunun səbəbi şirkətə kredit vəsaitlərinin cəlb edilməsini asanlaşdırmaqdır. Ona görə ki, kreditorlar MMC-lərə vəsait verməyi riskli hesab edirlər.

**Səhmdar cəmiyyəti**

Səhmdar cəmiyyəti təsərrüfat fəaliyyətini həyata keçirmək məqsədilə nizamnamə fondunu səhm buraxmaq yolu ilə formalaşdıran fiziki və hüquqi şəxslərin könüllü sazişi əsasında yaradılan müəssisədir.

Səhmdar cəmiyyəti azı üç fiziki və (və ya) hüquqi şəxs tərəfindən tə’sis edilir. Səhmdar cəmiyyəti «açıq tipli səhmdar cəmiyyəti» və ya «qapalı tipli səhmdar cəmiyyəti» formasında yaradılır.

Səhmləri yalnız təsisçilər arasında bölüşdürülən və təsisçilərin əksəriyyətinin razılığı ilə özgələşdirilə bilən cəmiyyət **qapalı tipli səhmdar cəmiyyəti** sayılır.

Səhmləri müstəqil surətdə özgələşdirilə bilən cəmiyyət **açıq tipli səhmdar cəmiyyəti** sayılır.

Səhmdar cəmiyyətinin öhdəliklərinə görə səhmdarlar onlara məxsus olan səhm zərfi həcmində məsuliyyət daşıyırlar.

Hər bir müəssisə öz məqsədinə çatmaq üçün biznes fəaliyyətinin iştirakçıları ilə birgə işləməyə məcburdur. Təbii ki, biznes fəaliyyəti iştirakçılarının hər birinin öz maraq dairəsi və nail olmaq istədiyi məqsədlər vardır. Bunları bilmək hər bir sahibkar və mühasib üçün

vacibdir. Müəssisənin daxili və xarici mühitindəki iştirakçılar aşağıdakı cədvəldən daha aydın görünür (cədvəl 1.1.).

**Cədvəl 1.1.** Müəssisənin daxili və xarici mühiti

| Biznes fəaliyyətinin iştirakçıları | Maraqlar |
|---|---|
| ***1. Daxili mühit:*** | |
| 1. Mülkiyyətçilər | Kapitalın qorunması və artırılması. Daimi və dayanıqlı gəlirlərin əldə edilməsi. Son qərarların qəbul edilməsi hüququ |
| 2. Menecerlər | Mənfəətin əldə edilməsi və firmanın inkişafı. Şəxsi maraqlar–mükafatlandırılma, müstəqillik və hakimiyyət |
| 3. Muzdlu işçilər | Yüksək əmək haqqı. İş yerinin etibarlılığı, yaxşı əmək şəraiti və yüksək sosial müdafiə təminatı |
| ***2. Xarici mühit*** | |
| 1. Dövlət və ictimaiyyət | İş yerlərinin yaradılması, sosial rifah. Dünya bazarında rəqabətə davam gətirmək.Vergi gəlirlərinin əldə edilməsi. Qiymət sabitliyi. Ətraf mühitin qorunması və istehlakçıların maraqları |
| 2. Təchizatçılar | Yüksək gəlirlilik və aşağı xərclər. Əlaqələrin stabilliyi |
| 3. Kreditorlar | Yüksək faiz. Kreditin qaytarılma təminatı. Firmaya təsir imkanları |
| 4. İstehlakçılar | Geniş seçim, yüksək keyfiyyət, aşağı qiymətlər, xidmətlərin yüksək səviyyəsi |

Yuxarıda qeyd olunduğu kimi, müəssisənin başlıca məqsədi mənfəət əldə etməkdir. Bunun üçün o məhsul istehsal edir və satır, xidmət göstərir və əldə etdiyi mənfəətin təsisçilər arasında bölgüsünü həyata keçirir. Bəs bu işləri yerinə yetirən şöbələr (işçilər) kimlərdir? Əlbəttə hər bir orqanın işini yerinə yetirən strukturu olduğu kimi, müəssisənin də strukturu vardır. İstehsal və satış prosesinin necə təşkil olunduğunu təsəvvür etmək üçün bu strukturu görmək vacibdir. Aşağıdakı təsvirdə korporasiyanın timsalında müəssisənin srtukturunu nəzərdən keçirək (təsvir 1).

**Təsvir 1.** Müəssisənin strukturu



Təsvirdən göründüyü kimi, müəssisənin strukturu 4 əsas departament (istehsal, satış, maliyyə və insan qaynaqları) üzərində sistemləşir. Bunlardan biri olmasa müəssisənin məqsədlərinə çatması qeyri-mümkündür. Burada əsas işi istehsal və satış şöbəsi yerinə yetirsə də insan qaynaqları və maliyyə şöbəsi həmin işin uğurla həyata keçirilməsinə dəstək göstərir.

Sonda əldə olunan mənfəət əlbəttə ki, müəssisəni təsis edən direktorlar şurasına (təsisçilərin ümumi yığıncağına) nəsib olur. Rəhbər (prezident) isə sadəcə müəssisəni idarə etdiyi üçün əmək haqqı alır.

**İstehsal prosesi** istehsal amillərinin sistemli şəkildə bir araya gətirilməsi yolu ilə yeni məhsulun əldə olunması prosesidir.

İstehsal amilləri aşağıdakılardır:

- *İşçi qüvvəsi;*
- *Əsas vəsaitlər (bina, qurğu və avadanlıqlar);*
- *Xammal və materiallar.*

Məhsul istehsalı prosesini daha aydın görmək üçün aşağıdakı təsvirə baxaq:

| İstehsal Prosesi | | | |
|---|---|---|---|
| İstehsal amilləri → | Xammal→ | →Material xərci | → **Məhsul** |
| | İşçi qüvvəsi→ | →Əmək haqqı xərci | |
| | Əsas vəsaitlər→ | →Amortizasiya xərci | |

Məhsulun istehsal olunması, satılması, gəlirin əldə edilməsi, təkrar istehsalın planlaşdırılması və bu prosesin davamlılığının təmin olunması üçün **idarəetməyə** ehtiyac vardır. Ona görə də bir çox iqtisadçılar idarəetməni (sahibkarlıq qabiliyyətini) istehsalın 4-cü amili kimi qəbul edirlər.

İdarəetmənin aşağıdakı 3 əsas funksiyası vardır:




Nəyi Planlaşdırmaq?

- *nə istehsal etməli;*
- *necə istehsal etməli;*
- *kimin üçün istehsal etməli.*

Necə təşkil etmək?

- *istehsal amillərini bir araya gətirməklə;*

Necə nəzarət etməli?

- *İnzibati nəzarət; və*
- *Maliyyə nəzarəti;*

İstehsal və satış prosesini daha əyani şəkildə görmək üçün vəsaitlərin (pulun) dövranını düzgün anlamaq lazımdır. Belə ki, vəsaitlərin dövranı isehsal amillərinin müəssisəyə daxil olması ilə başlayıb, bunlardan məhsul (xidmət) istehsalı və həmin məhsulun(xidmətin) satı-

laraq qazanc əldə edilməsi və yenidən müəssisəyə vəsait qoyuluşu şəklində dövr etməsindən ibarətdir. Bu dövretmə prosesi təkrar istehsal prosesi olub, **dəyərin hərəkətini** ortaya çıxarır.

Dəyərin hərəkəti müəssisənin xarakterindən asılı olaraq dəyişə bilər. Məsələn, ticarət sahəsində dəyərin hərəkəti müəyyən malların alınaraq bir müddət saxlanıldıqdan sonra sa-tışı şəklindədirsə, xidmət sahəsində istehsal amillərinin alınması ilə yanaşı, bəlli bir xid-mət imicinin yaradılması və bu imicin müəyyən zamanlarda istifadə edilərək müştərilərin qulluğunda durmaq şəklində baş verə bilər. Bank müəssisəsində isə dəyərin hərəkəti müəyyən miqdar pulun müxtəlif yollarla cəlb edilməsi və onun ehtiyacı olanlara verilməsi yolu ilə baş verir.

Göründüyü kimi, dəyərin hərəkətinin *müştəri* və *satıcı* tərəfi olduğu kimi, *fiziki* (maddi) və *pul* tərəfi də vardır. Həqiqətən də müəssisəyə daxil olan hər bir istehsal amili gec və ya tez istehsal olunan mal və ya xidmətlərin satışı şəklində müəssisədən çıxdığı kimi, sonda yenə müəssisəyə pul vəsaiti şəklində daxil olur. Bu da yuxarıdakı düsturda göstərilir.

**Sual:** Qeyd etdiyimiz bütün bu proseslərə (dəyərin hərəkətinə) necə nəzarət edilir?

**Cavab:** Uçot vasitəsilə. Uçot dedikdə qeydiyyat, məlumat toplamaq başa düşülür.

**"Mühasib"** sözü ərəb sözü olub hesabat aparan, hazırlayan şəxs mənasını verir. Geniş mənada Mühasibat uçotu maliyyə xarakterli, pul ilə ifadə oluna bilən iqtisadi hadisələrin qeydiyyatdan keçirilib təsnifləşdirilməsi və hesabat şəklinə gətirilərək təqdim olunması və təhlilini öyrənən bir elm sahəsidir.

Beynəlxalq təcrübədə istifadə olunan "Accounting" sözü də təxminən bu mənaya gəlir. Sözün kökündə dayanan "Account" sözü hesab kimi tərcümə olunmaqla uçot və hesabatın aparılması mənasını verir.

Bu gün dünyada yaşayan hər bir kəs və fəaliyyət göstərən hər bir müəssisə mühasibatlığı vacib hesab edir. Bunun əsas səbəbi nədir?

Əgər siz, (yaxud hər hansı müəssisə) McDonalds şirkətinin səhmlərini, yaxud yeni texnika və avadanlıqlar almaq, yaxud da gələcək xərcləri və ya satışı planlaşdırmaq istəsəniz sizə mütləq mühasibat uçotu məlumatları lazım olur.

***Nə üçün?***

***Düzgün qərar vermək üçün!***

Deməli, mühasibat uçotu biznes qərarlarının qəbul olunması üçün əsas informasiya mənbəyidir.

Bəs informasiya necə hazırlanır?

Bu zaman bir neçə addımdan istifadə olunur. Bunlara məlumatı *müəyyən etmək, qeydiyyatını aparmaq və istifadəçilərə çatdırmaq* addımları aiddir.

*İlkin olaraq,* təsərrüfat hadisəsi müşahidə olunur, onun xarakteri müəyyən edilir. Məsələn, məhsulun satışı, yaxud xidmətin göstərilməsi baş verir və ya əldə olunan gəlirdən vergi tutulur, müəssisəyə dəftərxana ləvazimatı alınır, yaxud işıq, qaz pulu ödənilir və s.

*İkincisi,* baş vermiş hər bir iqtisadi hadisənin qeydiyyatı aparılır. Qeyd zamanı hadisənin tarixi, məzmunu və məbləği göstərilir. Bu addım zamanı hadisə həmçinin təsnifləşdirilərək (ümumiləşdirilərək) məbləğlər cəmlənib hesablanır.

*Üçüncüsü,* təsnifləşdirilmiş və ümumiləşdirilmiş iqtisadi hadisələr haqqında məlumat hesabat halına gətirilərək maraqlı tərəflərə (istifadəçilərə) ötürülür. Bu cür məlumatvermə müxtəlif formada ola bilər.

*Dördüncü,* hazırlanmış informasiya istifadəçinin tələblərinə uyğun şəkildə çatdırılır. İnformasiyanın faydalı olması üçün onun ən azı 3 tələbə cavab verməsi lazımdır. Əks halda həmin informasiyanın heç bir dəyəri olmur. Bunlar: tamlıq (münasiblik), dürüstlük (etibarlılıq) və vaxtında çatdırılmadır. İnformasiyanın qiymətini artırmaq üçün onun müqayisəliliyini təmin etmək lazımdır.

Buna görə bütün baş vermiş proseslərin qeydiyyatını aparmaq üçün mühasibat uçotundan istifadə edilir. Mühasibat uçotu müvafiq maliyyə və idarəetmə qərarı yaxud müəssisənin strateji inkişafı ilə əlaqədar qərarın qəbul edilməsi üçün zəruri informasiyanın toplanılması, ölçülməsi, qeydə alınması, işlənilməsi və lazımi istiqamətlərə yönəldilməsi sistemidir.

Mühasibat uçotu məlumatları ilə maraqlanan tərəflər mühasibat uçotu məlumatlarının istifadəçiləri adlanır. Mühasibat uçotu məlumatlarının istifadəçiləri 2 qrupa bölünür:

- daxili istifadəçilər;
- kənar istifadəçilər;

**Daxili istifadəçilər**. Müəssisə daxilində biznes qərarlarını qəbul etmə səlahiyyətinə malik olan rəhbər, menecer, yaxud sadə işçilər ola bilər.

[3] Təsərrüfat hadisəsi dedikdə müəssisədə baş vermiş konkret hər hansı bir əməliyyat, məsələn, istehsal, alqı-satqı, maliyyə qoyuluşu və s. başa düşülür.

**Kənar istifadəçilər**. Kənardan həmin şirkətin maliyyə uçotu məlumatları ilə maraqlanan tərəflər ola bilər. Bu istifadəçilərə investorlar və səhmdarlar, kreditorlar, dövlət vergi orqanları, yaxud istehlakçılar aiddir.

Göstərilən istifadəçilər maliyyə uçotundan aşağıdakı informasiyaları almaqda maraqlıdırlar:

1) İnvestorlar və səhmdarlar, onların nümayəndələri - həyata keçirilən və ya nəzərdə tutulan investisiyaların riskliliyi, gəlirliliyi və müəssisənin dividend ödəmək qabiliyyəti haqda informasiya;

2) Müəssisənin işçiləri və onların nümayəndələri (həmkarlar ittifaqı və s.) – işverənlərin gəlirliliyi, stabilliyi, iş yerlərini saxlamaq və əmək haqqı ödəyə bilmə imkanı barədə informasiya;

3) Borcverənlər – müəssisənin verilmiş borcları qaytara bilməsi və faizləri ödəyə bilməsi haqqında informasiya;

4) Malsatan və podratçılar, malalan və sifarişçilər – müəssisənin fəaliyyətinin fasiləsizliyi haqqında informasiya;

5) Dövlət orqanları – öz funksiyalarını (resursların yerləşdirilməsi, iqtisadiyyatın tənzimlənməsi, dövlət siyasətinin hazırlanması və reallaşdırılması, statistik nəzarətin aparılması və s. funksiyalar) həyata keçirmək üçün onlara lazım olan informasiya;

6) Bütövlükdə ictimaiyyət – yerli, regional və dövlət səviyyəsində müəssisənin ictimai rifahın yüksəldilməsində rolu haqqında informasiya;

**İdarəetmə uçotu informasiyası** – daxili istifadəçilər tərəfindən firmanın idarə olunması zamanı istifadə olunur. İdarəetmə uçotunun aparılmasında əsas məqsəd daxili istifadəçiləri **istehsal xərcləri və maya dəyəri haqqında** informasiya ilə təmin etmək, həmçinin maliyyə hesabatının təhlilinin nəticələrinə dair **göstəricilərlə** təmin etməkdən ibarətdir.

Əgər kənar istifadəçilər üçün maliyyə uçotunun məlumatları əsasən investisiyalar haqqında qərar vermək üçün lazım idisə, daxili istifadəçilər üçün uçot məlumatları aşağıdakı məqsədlər üçün lazımdır:

a) Strategiyanın hazırlanması;

b) İşin planlaşdırılması;

c) Qərarların qəbulu;

d) Resurslardan istifadənin optimallaşdırılması.

Yuxarıda qeyd olunanları nəzərə alaraq idarəetmə uçotunu bəzən daxili yaxud da istehsal (maya dəyəri) uçotu adlandırırlar.

Maliyyə uçotu ilə idarəetmə uçotu arasındakı fərqləri aşağıdakı cədvəldən də görmək olar.

| **Fərqlənmə meyarları** | **Maliyyə Uçotu** | **İdarəetmə Uçotu** |
|---|---|---|
| **İstifadəçilər** | Kənar | Daxili |
| **Qeydiyyat sistemi** | İkili qeydiyyat sistemi | İstənilən mümkün sistem |
| **Tənzimləmə mexanizmi** | Milli standarlar və qanunlar | Yoxdur |
| **Ölçü sistemi** | Dəyər (Pul) | İstənilən |
| **Uçotun obyekti** | Bütövlükdə müəssisə | Müəssisə və onun bölmələri |
| **Dövrülüyə görə** | Əsasən İllik tərtib olunur | Konkret dövr yoxdur |
| **Etibarlılığına görə** | Obyektivdir (Keçmiş real hadisələri əks etdirir) | Subyektivdir (proqnoz xarakteri daşıyır) |

Hər bir peşənin (elmin) müəyyən bir məhsulu olduğu kimi Maliyyə uçotunun da məhsulları maliyyə hesabatı hesab edilir. Bu hesabata aşağıdakılar daxildir:



**İdarəetmə uçotunun məhsullarına isə aşağıdakılar daxildir:**




**Maliyyə uçotu** - əsasən kənar istifadəçilərin tələblərinə uyğun informasiya formalaşdıran bir uçotdur. Maliyyə uçotunun əsas məqsədi müəssisənin maliyyə fəaliyyətinə aid aşağıdakı 3 istiqamətdə informasiya hazırlanır:

I. Maliyyə vəziyyəti;
II. Maliyyə nəticələri;
III. Maliyyə vəziyyətindəki dəyişikliklər haqqında.

Maliyyə nəticələri **Mənfəət və zərərlər haqqında hesabatda** öz əksini tapır.

Maliyyə vəziyyətini təhlil etmək üçün **Balans hesabatı** və **Kapitalda dəyişikliklər haqqında hesabatdan** istifadə edilir.

Pul vəsaitlərinin hərəkəti üzrə **Pul vəsaitlərinin hərəkəti** haqqında hesabatda öz əksini tapır.

Bu hesabatlar demək olar ki, bütün xırda və iri şirkətlər tərəfindən tərtib olunur.

Beynəlxalq uçot və hesabat sistemində maliyyə hesabatının elementləri beş yerə bölünür:

1) aktivlər;
2) öhdəliklər;
3) xüsusi kapital, yaxud xalis aktivlər;
4) gəlirlər;
5) xərclər.

Maliyyə hesabatının yuxarıda qeyd olunan elementlərin yerləşmə ardıcıllığı və quruluşu maliyyə bərabərliyi üzərində cərəyan edir. Bunu aşağıdakı (düstur1) şəkildə təsvir etmək olar:

**Aktivlər** – müəssisənin keçmiş hadisələr nəticəsində yaranmış, onun nəzarətində və istifadəsində olan elə resurslarıdır ki, gələcəkdə həmin müəssisəyə iqtisadi fayda gətirəcək.

**Öhdəliklər** – müəssisənin keçmiş hadisələr nəticəsində yaranmış və gələcəkdə ona iqtisadi fayda gətirəcək resursların həmin müəssisədən axıb getməsinə səbəb olan borclarıdır.

**Kapital** – müəssisənin aktivlərindən onun öhdəliklərini çıxdıqdan sonra qalan xalis aktivləridir.

**Gəlir** – hesabat dövründə müəssisənin iqtisadi faydasının elə artmasıdır ki, bu öz əksini aktivlərin artmasında, yaxud öhdəliklərin azalmasında tapır. Bunun nəticəsində kapitalın mülkiyyətçilərin payları hesabına olmayan artımı baş verir.

